Xalqın qəzeti!
# Xalq qəzeti
№ 25 (30429) 6 fevral 2024-cü il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

**7 fevral növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə 1 gün qalır**

## Sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır



**Ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasət nəticəsində pensiyaçıların da sosial müdafiəsinin gücləndirilməsində mühüm irəliləyişlərə, pensiyalarda davamlı artımlara nail olunub. Xüsusilə son illərdə bu istiqamətdə ardıcıl addımlar atılıb, inqilabi irəliləyişlər əldə edilib. Ümumiyyətlə, pensiya sahəsində aparılan islahatlar hər bir pensiyaçının maraqlarının müdafiəsinə, onların rifahının yaxşılaşdırılması üçün məqsədyönlü layihələrin gerçəkləşdirilməsinə yönəldilib. Prezident İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 5 fevral 2024-cü il tarixli Sərəncamı da bunun bariz ifadəsidir.**

Yeri gəlmişkən, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, dövlət başçısının adı çəkilən yeni sərəncamı ilə bütün növ pensiyalar indeksləşdirilərək 11,2 faiz artırılıb. Bu, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, pensiyaların artırılması istiqamətində ardıcıl şəkildə atılan addımların davamıdır.

Ölkə rəhbərinin adı çəkilən sərəncamı ilə 2024-cü il yanvarın 1-dək təyin edilmiş bütün pensiyalar Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 11,2 faiz indeksləşdirilməklə bu ilin 1 yanvar tarixindən artırılır.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan–Ermənistan şərti sərhədində Fransanın qəfil hücum planı

### Avropanın müşahidəçilik oyunu və ələ keçmiş Çexiya vətəndaşı



**Əlbəttə, Çexiya vətəndaşının Ermənistandan Azərbaycana keçmək istəməsi düşünməyə vadar edir. Özü də nəzərə alaq ki, adı açıqlanmayan həmin şəxs Ermənistan tərəfindən minalanmış zonadan keçib. Bunun özü də şübhələrə yol açmaqdadır. Deməli, hansı ərazinin təhlükəsiz olduğunu bilirmiş. Görünür, həmin şəxsin hesablamadığı bir məqam olub ki, o da Azərbaycan sərhədçiləri tərəfindən yaxalanmasıdır. Hazırda faktla bağlı araşdırmalar aparılır. Heç şübhəsiz, əlavə bilgilər də üzə çıxacaq.**

Hər halda, məsələ maraq doğurmaqdadır. Bu, nə deməkdir? Çexiya vətəndaşı hara, qeyri-qanuni yolla Azərbaycana keçmək hara? Suallara cavab axtararkən, son vaxtlar bir sıra Avropa ölkələrinin, xüsusən də Fransa nümayəndələrinin Ermənistan–Azərbaycan şərti sərhədində tez-tez görünməkdə olduqlarını yada salmalıyıq.

*(ardı 3-cü səhifədə)*

## Azərbaycanın polad magistralı 3 beynəlxalq dəhlizin qovşağında



Səhifə ⇨ 7

## Əmək pensiyalarının indeksləşdirilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci, 29.1-ci və 29.1-1-ci maddələrinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 2024-cü il yanvarın 1-nə 2023-cü il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müəyyən etdiyi:

1.1. orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2024-cü il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsinin, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyalarına münasibətdə – həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləğinin və 2023-cü il yanvarın 1-dən əmək pensiyalarının tərkibinə daxil edilən maddi yardımların;

1.2. istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində 2024-cü il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 5 fevral 2024-cü il**

## Serbiyanın AŞPA heyəti Azərbaycanla bağlı qətnaməni ləğv etməyə çağırır

**Serbiyanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyəti AŞPA-nın Azərbaycan nümayəndə heyəti ilə bağlı qəbul etdiyi qətnaməyə görə Assambleyanın sədri Teodoros Rousopoulosa etiraz müraciəti ünvanlayıb.**


Serbian Delegation to the PACE

Parliamentary Assembly of the Council of Europe
Mr Theodoros Rousopoulos
President of the Assembly

Excellency,

Nümayəndə heyətinin rəhbəri Bilyana Pantiç Pilya, deputatlar – Dubravka Filipovski, Elvira Kovaks, Dunya Simonoviç Bratiç, Stefan Yovanoviç, Yelena Zariç Kovaçeviç və Aleksandar Markoviçin imzaladıqları açıqlamada deyilir: "Təəssüf ki, Serbiya nümayəndə heyəti 2023-cü il dekabrın 17-də ölkədə keçirilən parlament seçkilərindən sonra Milli Assambleyamızın formalaşması prosesinin davam etməsi ilə əlaqədar bu qətnamə ilə bağlı səsvermədə iştirak edə bilməyib. Buna baxmayaraq, Serbiya nümayəndə heyəti Azərbaycan nümayəndə heyətinə qarşı olan münasibət və olduqca şübhəli əsaslarla qəbul edilmiş qətnamə ilə əlaqədar öz narazılığını diqqətə çatdırmaq istəyir. Biz qəti əminik ki, qətnamə AŞPA daxilində səmimi dialoqdan geriyə addım atmaq deməkdir və bu, yalnız davam edən qütbləşməyə təkan verir. Bu, həmçinin Assambleya daxilində dəyərlərin deqradasiyasının dərinləşməsinin bir göstəricisidir".

*(ardı 4-cü səhifədə)*

## İrəvanda konstitusiya müzakirələri qızışır



### "Hayakve" təşəbbüsü indi də hayların əsas qanununu "qorumaq"la məşğuldur

**Hazırda Ermənistanda siyasi gündəmdə olan əsas məsələlərdən biri ölkəyə yeni konstitusiyanın gərək olması barədə baş nazir Nikol Paşinyanın yanvarın 19-da səsləndirdiyi təkliflərlə bağlıdır. Təklifin irəli sürüldüyü gündən etibarən bu istiqamətdə həm hakim "Mülki müqavilə" partiyasının rəhbərliyi və iqtidar partiyasının deputatları, həm də müxalifət fəalları və siyasi ekspertlər öz fikirlərini bildirirlər.**

Qeyd edək ki, Ermənistanda bu istiqamətdə aparılan müzakirələr ölkəmizdə diqqətlə izlənilir. Məsələ ondadır ki, hayların əsas qanununda 1990-cı ildə qəbul olunmuş müstəqillik bəyannaməsinə istinad edilir. Müstəqillik bəyannaməsi isə ölkəmizə qarşı ərazi iddialarını stimullaşdırır, ona rəvac verir. Azərbaycana ərazi iddialarının qanunvericilik müstəvisindən yığışdırılmadığı müddətdə sülh müqaviləsinin imzalanması da qeyri-mümkün təsiri bağışlayır.

*(ardı 3-cü səhifədə)*

# Sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır

**(əvvəli 1-ci səhifədə)**

Həmçinin qulluq stajına görə əlavələr təyin edilmiş pensiyaların həmin əlavələrlə birlikdə müəyyənləşdirilən məbləğlərinin və 2023-cü il yanvarın 1-dən pensiyaların tərkibinə daxil edilən maddi yardımların da qeyd olunan qədər indeksləşdirilməklə bu ilin əvvəlindən artırılması təmin edilir.




Artımlar elektron sistem üzərindən avtomatik şəraitdə həyata keçirilir və pensiyaçıların bunun üçün hər hansı sənəd təqdim etmələrinə, müraciətinə ehtiyac yoxdur.

Yanvar ayı üzrə pensiyalara edilmiş artımlar fevral ayının pensiyası ilə birgə ödənəcək. Məsələn, şəxsin pensiyası 500 manatdırsa, bu məbləğ cari il yanvarın 1-dən 11,2 faiz, yəni 56 manat artırılmaqla 556 manata çatdırılacaq, yanvar ayının 56 manat artımı da fevral ayının pensiyasına əlavə olunaraq veriləcək. Ümumilikdə, 1,1 milyon pensiyaçını əhatə edən artımlar üçün illik əlavə olaraq təqribən 630 milyon manat xərclənəcək.

Qeyd edək ki, pensiyaların indeksləşdirilməklə artırılması ötən ilin əvvəlindən bütün növ pensiyalara şamil olunur. Hazırkı artım da həm ümumi əsaslarla pensiya təyin olunmuş, həm də qulluq stajına görə əlavə alan pensiyaçıları (pensiyaçı olan hərbi qulluqçular, hüquq-mühafizə orqanları əməkdaşları və b.) əhatə edir.

Sərəncamla tətbiq edilən indeksasiya üzrə artım 2023-ci il üzrə orta inflyasiya dərəcəsini (8,8 faiz) üstələyir.

Eyni zamanda, sərəncamla istehlak qiymətləri indeksinin ötən il üzrə illik səviyyəsinə uyğun olaraq sığortaolunanların fərdi hesablarında 2024-cü il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalları da 8,8 faiz indeksləşdirilərək artırılır. Məsələn, şəxsin fərdi hesabında 50 min manat pensiya kapitalı toplanıbsa, bu məbləğ 8,8 faiz, yəni 4400 manat artırılmaqla 54400 manata çatdırılacaq.

Bu da onu göstərir ki, işləyən şəxslərin fərdi hesablarında toplanan pensiya kapitalları yalnız hər ay onların əməkhaqlarından sosial sığorta ayırmaları əsasında deyil, həm də hər ilin əvvəlində dövlət tərəfindən indeksləşdirilmə əsasında mütəmadi olaraq artırılır.




Pensiyaların indeksləşdirilərək artırılmasına dair keçirilən mətbuat konfransında Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov artımdan sonra respublikamızda orta aylıq pensiyanın yeni məbləğini də açıqlayıb. O, pensiyaların indeksləşdirilərək artırılması nəticəsində orta aylıq pensiya məbləğinin 436 manatdan 485 manata, yaşa görə orta aylıq pensiyanın məbləğinin 467 manatdan 519 manata çatacağının proqnozlaşdırıldığı bildirib.

Anar Kərimov yanvar ayı üzrə pensiyalara edilmiş artımların fevral ayının pensiyası ilə birgə ödənəcəyini, həmçinin 2024-cü il üzrə pensiyaların maliyyələşdirilməsi üçün 6,5 milyard manat vəsaitin nəzərdə tutulduğunu da diqqətə çatdırıb.

**V.BİNYATOĞLU**
**XQ**




# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident!**
**Əziz Qardaşım!**

2023-cü ilin fevralında Türkiyədə baş vermiş və on minlərlə insanın həyatına son qoymuş dəhşətli zəlzələlərdən bir il ötür. Bu faciə nəticəsində həlak olmuş bacı-qardaşlarımızın əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir, onlara uca Allahdan rəhmət, doğmalarına və yaxınlarına səbir diləyirəm.

Bu fəlakət Türkiyəni olduğu kimi Azərbaycanı da dərindən sarsıtdı. Xalqımız həmin ağır günlərdə qardaş Türkiyə xalqı ilə bir ürək olaraq, faciənin ağrı-acısını bölüşdü, sonsuz kədərini birlikdə yaşadı. Zəlzələ xəbərinin ilk dəqiqələrindən heç bir yardım çağırışını gözləmədən Azərbaycan xalqı və dövləti öz qardaşlıq borcunu yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etdi. Baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması işlərinə və axtarış-xilasetmə əməliyyatlarına cəlb olunmuş xilasedicilərimiz, həkimlərimiz və könüllülərimiz türkiyəli həmkarları ilə çiyin-çiyinə böyük cəsarətlə, əzmlə və fədakarlıqla fəaliyyət göstərdi. Dövlət və özəl qurumlarla yanaşı kiçikdən böyüyə hər bir soydaşımız zəlzələ qurbanlarına dəstək və mənəvi dayaq olmaq üçün əlindən gələni əsirgəmədi.

Sizin qətiyyətli rəhbərliyiniz altında Türkiyə Hökuməti zəlzələnin səbəb olduğu irimiqyaslı dağıntıların aradan qaldırılması, zərər çəkmiş bölgənin dirçəldilməsi, evsiz qalan milyonlarla insanın evlə təmin edilməsi üçün var qüvvəsi ilə çalışır. Azərbaycan da hazırda Kahramanmaraş vilayətində humanitar fəaliyyətini davam etdirərək burada aparılan yenidənqurma və bərpa işlərində, sosial obyektlərin inşasında yaxından iştirak edir. Biz bu nəcib və şərəfli missiyada Türkiyənin yanında olmağımızdan böyük qürur duyuruq.

Bütün bunlar Azərbaycan-Türkiyə sarsılmaz birliyinin və həmrəyliyinin növbəti təzahürü olaraq qardaşlıq salnaməmizə əbədi olaraq həkk olundu. Türkiyə yaxşı gündə və hüznlü gündə Azərbaycanın yanında olduğu kimi biz də daim Türkiyənin yanındayıq və bundan sonra da olacağıq. Çünki biz bir millət, iki dövlətik.

Əminəm ki, Sizin liderliyiniz, Türkiyə xalqının mübarizə əzmi, həmrəylik ruhu və mətin iradəsi sayəsində qüdrətli Türkiyə dövləti bu çətinliklərin də öhdəsindən tez bir zamanda gələcək, bu acı sınaqdan şərəflə və daha da güclənmiş çıxacaqdır.

Bu hüznlü gündə bir daha Türkiyənin kədərinə şərik olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından başsağlığı verirəm.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 2 fevral 2024-cü il**

# Seçkilər Azərbaycanda bütün ölkə ərazisini əhatə edəcək

**Mərkəzi Seçki Komissiyası tərəfindən seçicilər üçün bütün imkanlar yaradılıb, 1000 məntəqədə veb-kameralar quraşdırılıb. Seçki günü həmin məntəqələrdəki prosesi onlayn rejimdə izləmək mümkün olacaq.**



Bu fikirləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MDB-nin Baş katibi Sergey Lebedev ilə görüş zamanı səsləndirib. O bildirib ki, ölkəmizdəki seçkiləri müşahidə etmək üçün 790 beynəlxalq müşahidəçi qeydiyyatdan keçib.

*

Həmin gün MSK sədri Məzahir Pənahov növbədənkənar prezident seçkilərini izləmək üçün Azərbaycana gələn İslam Əməkdaşlıq Təşkilatının (İƏT) nümayəndə heyəti, Monteneqrodan olan həmkarı Nikola Mugosa , Gürcüstan Mərkəzi Seçki Komissiyasının sədri Giorgi Kalandarişvilinin rəhbərlik etdiyi nümayəndə heyəti, Maldiv və Ukrayna Mərkəzi Seçki komissiyalarının üzvləri ilə görüşüb.

Görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov fevralın 5-də Qazaxıstan Mərkəzi Seçki Komissiyasının sədri Nurlan Abdirov ilə görüşüb.

MSK-nın sədri Məzahir Pənahov ölkədə seçki prosesinə hazırlıq barədə məlumat verib. Qeyd edib ki, Mərkəzi Seçki Komissiyası tərəfindən seçicilər üçün bütün imkanlar yaradılıb, 1000 məntəqədə veb-kameralar quraşdırılıb. Seçki günü həmin məntəqələrdəki prosesi onlayn rejimdə izləmək mümkün olacaq.



Qazaxıstan MSK-nın sədri Nurlan Abdirov çıxışında prezident seçkilərinin böyük məsuliyyət olduğunu qeyd edib. O, ölkəsinin Azərbaycanla əməkdaşlığa, dostluğa böyük önəm verdiyini diqqətə çatdırıb. Ölkəmizə 6 müşahidəçi ilə gəldiklərini deyən qazaxıstanlı qonaq Azərbaycanın işğaldan azad olunmuş ərazilərində seçkiləri müşahidə edəcəklərini deyib.

**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 57** **Bakı şəhəri, 30 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında" 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli, "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2011-ci il 12 may tarixli 79 nömrəli və "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2015-ci il 28 aprel tarixli 122 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublika-sının 2023-cü il 2 may tarixli 864-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qayda-sı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2-ci bənd üzrə:

1.1.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"3.2. Nikaha daxil olmağı arzu edənlər Azərbaycan Respublikası Ailə Məcəlləsinin 13-cü maddəsində nəzərdə tutulmuş tibbi müayinədən keçməklə qeydiyyat şöbəsinə, konsulluq idarəsinə və icra hakimiyyətinin nümayəndəliyinə nikaha daxil olmaq barədə şəxsən yazılı ərizə verirlər.";

1.1.2. ikinci və üçüncü abzaslar müvafiq olaraq üçüncü və dördüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Nikaha daxil olmaq haqqında ərizə təqdim edildikdə qeydiyyat şöbəsinin, konsulluq idarəsinin və icra hakimiyyəti nümayəndəliyinin vəzifəli şəxsi tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sistemi vasitəsilə əldə edilir. Bu mümkün olmadıqda həmin arayış nikaha daxil olmaq barədə ərizəyə kağız formada əlavə edilir.";

1.2. 3.3-cü bəndin birinci abzasında "tibbi müayinədən keçdiklərini təsdiq edən arayışı təqdim etməkdən imtina edən" sözləri "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 13-cü maddəsində nəzərdə tutulmuş tibbi müayinədən keçməyən" sözləri ilə əvəz edilsin;

1.3. 3.13-cü bəndə "razılığı" sözündən sonra ", Azərbaycan Respublikası Ailə Məcəlləsinin 13-cü maddəsinə uyğun olaraq, tibbi müayinədən keçmələri" sözləri əlavə edilsin;

1.4. 5.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"5.6. Ərizə əsasında nikahın pozulması ər-arvadın və ya onlardan birinin seçdiyi, məhkəmə qətnaməsi əsasında nikahın pozulması isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə qeydiyyat şöbəsi və konsulluq idarəsində dövlət qeydiyyatına alınır.";

1.5. aşağıdakı məzmunda 5.8-1-ci, 5.8-2-ci və 5.8-3-cü bəndlər əlavə edilsin:

"5.8-1. Nikah qeydiyyat şöbəsi və konsulluq idarəsində pozulduqda nikahın pozulmasının dövlət qeydiyyatına alındığı gündən, məhkəmə qaydasında pozulduqda isə bu barədə məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən nikaha xitam verilmiş sayılır.

5.8-2. Məhkəmənin qətnaməsi əsasında nikahın pozulması qeydə alınarkən nikahın pozulması haqqında akt qeydində və şəhadətnamədə nikaha xitam verilmə tarixi kimi məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi gün göstərilir.

5.8-3. Məhkəmə qətnaməsi əsasında nikahın pozulmasının dövlət qeydiyyatı Azərbaycan Respublikası Ailə Məcəlləsinin 23.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminə daxil olmuş nikahın pozulması barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparılır.";

1.6. 5.7-ci bənd və 5.9.3-cü yarımbənd ləğv edilsin;

1.7. 5.9-cu bəndə "əsasında" sözündən sonra "həm ər ilə arvadın hər ikisinin, həm də onlardan birinin ərizəsi üzrə" sözləri əlavə edilsin;

1.8. 5.9.5-ci yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 5.9.6-cı yarımbənd ləğv edilsin;

1.9. 5.18-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.18. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 25.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin infor-masiya sisteminə nikahın etibarsız sayılması barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış daxil olduqda həmin çıxarışa əsasən nikah haqqında akt qeydi ləğv edilir, bu halda şəhadətnamə verilmir. Akt qeydinin digər nüsxəsinin də ləğv edilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Vətəndaşlıq vəziyyəti aktlarının reyestri xidmətinə və ya Naxçıvan Muxtar Respublikası vətəndaşlıq vəziyyəti aktlarının arxivinə elektron qaydada bildiriş göndərilir. Məhkəmənin qətnaməsinə əsasən ləğv edilməli olan akt qeydi başqa qeydiyyat şöbələrində və ya konsulluq idarələrində saxlanıldıqda məhkəmənin qətnaməsindən çıxarış icra olunması üçün aidiyyəti üzrə həmin qeydiyyat şöbələrinə və ya konsulluq idarələrinə göndərilir.".

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 451 (Cild I) ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.4-cü bəndin birinci cümləsində "yaşayış yeri və ya müvafiq aktın olduğu" sözləri "seçdiyi" sözü ilə əvəz edilsin;

2.2. 6.6-cı bənddə "yaşayış yeri" sözləri "seçdiyi yer" sözləri ilə əvəz edilsin;

2.3. aşağıdakı məzmunda 6.20-1-ci bənd əlavə edilsin:

"6.20-1. Adın, ata adının və soyadın dəyişdirilməsinin dövlət qeydiyyatı Azərbaycan Respublikası Ailə Məcəlləsinin 190.2-ci maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sisteminə daxil olmuş adın, ata adının və soyadın dəyişdirilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarışa əsasən qətnamənin çıxarıldığı yer üzrə qeydiyyat şöbəsi, habelə konsulluq idarəsi tərəfindən aparılır.".

**3** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 28 aprel tarixli 122 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 610 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə Qaydası"nın 3.4-cü bəndinin ikinci cümləsi üçüncü cümlə hesab olunsun və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Həmin arayış elektron formada tərtib olunaraq, tibb müəssisəsinin rəhbəri tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənir və dərhal elektron informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən isə həmin gün Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sisteminə ötürülür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Dairə seçki komissiyasının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Surxay Yusif oğlu İsmayıl 16 saylı Yasamal ikinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

# Azərbaycan–Ermənistan şərti sərhədində Fransanın qəfil hücum planı

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, bu il fevralın 2-də Fransa Milli Jandarmeriyasının briqada generalı Uilyam De Meyer Avropa İttifaqının Ermənistandakı mülki missiyasının yerləşdiyi ərazilərə baş çəkib, sərhəddəki vəziyyətlə tanış olub. Görəsən, fransız general nəyi müəyyənləşdirmək istəyirmiş? Hələlik, mövcud istiqamətdə konkret nə isə demək çətindir. Yalnız müəyyən ehtimallar irəli sürmək mümkündür. Bu barədə söz açacağıq. Ancaq əvvəlcə bir məqama diqqət yetirək.

Azərbaycan rəhbərliyi bəyan edib ki, Ermənistan və havadarları tərəfindən sərhəddə hansısa hərəkətlilik həyata keçirilsə, ölkəmiz adekvat addımlar atacaq. Deməli, bu cəhdlər barədə bilgilərimiz var. Hər halda, Azərbaycan rəsmilərinin bəyanatları reallıqla fiksasiya olunmaq potensialına malikdir. Yəni, elə-belədən səsləndirilməyib. Əvvəl fransız generalı, sonra Çexiya vətəndaşı. Görəsən, növbədə daha kimlər var?.. Əlbəttə, bütün bunlar kəşfiyyat-diversiya fəaliyyətinin izləri kimi nəzərə çarpmaqdadır. Bə o zaman məqsəd nədir?

Qeyd edək ki, Avropa İttifaqının mülki müşahidə missiyasının tərkibi əsasən fransız jandarmlarından və pensiyada olan alman polislərindən ibarətdir. Onların sayı iki yüzdən çoxdur. Bir müddət əvvəl missiyanın silahlandırılmasına dair fikirlər də yayılmışdı. Heç şübhəsiz, kontingent silahla rəftarı bacaran şəxslərdən təşkil olunub və hələ bilmək olmaz ki, onun üzvləri üzərlərində silah gəzdirirlər, ya yox. Sözümüz ondadır ki, silahlarının olması tam mümkündür.

Onu da düşünək ki, avropalı müşahidəçilərin Ermənistan–Azərbaycan sərhədinin Ermənistan tərəfində patrul xidməti həyata keçirmələri Azərbaycana qarşı destruktiv mövqe tutan Fransanın istəyidir. Paris İrəvanı müdafiə etmək üçün belə bir təşəbbüsə baş vurub və eyni zamanda, hərbi mövcudiyyət üçün presedent də formalaşdırıb. Tam mümkündür ki, müşahidəçilər "zəruretlə əlaqədar olaraq özlərini müdafiə məqsədilə" silah götürəcəklərini bəyan etsinlər. Axı, ermənipərəstlərin "əsas tapmaları" su içimi kimi asandır...

Digər tərəfdən, son zamanlar Ermənistan rəhbərliyi tərəfindən Azərbaycan və Ermənistan qoşunlarının olduqları mövqelərdən geri çəkilmələrinə dair bəyanatlar səslənməkdədir. Bunu avropalılar da gündəmə gətirirlər. Rəsmi İrəvan, eyni zamanda, bildirir ki, Azərbaycan suveren Ermənistanın ərazisini işğal edib. Halbuki, məsələni belə qoyuluşu tam yanlışdır. Ölkəmizin hərbçiləri, sadəcə, strateji əhəmiyyət daşıyan yüksəklikləri ələ keçiriblər və bu mövqelərə sahiblənmək təxribatların qarşısını almaq məramına söykənir. Təxribatlar isə olub və görünür yenə də olacaq. Haqqında söz açdığımız iki fakt da fikrimizin təsdiqi kimi nəzərdən keçirilə bilər.

Bəli, hər zaman bildirmişik ki, Qərb Ermənistanı illüziya bataqlığına çəkməkdədir. Xüsusən də Fransanın hərəkətləri bu baxımdan daha qabarıq təsir bağışlamaqdadır. Ölkə Senatının qətnaməsi, eləcə də mediasının ayrı-ayrı materiallarının məzmunu onu deməyə əsas verir ki, hazırda Parisin istəyi Ermənistanı növbəti dəfə Azərbaycana qarşı müharibəyə təhrik etməkdir. Fransız mediasında "qəhrəman erməni xalqı", "Qarabağ ermənilərinin Azərbaycana nifrəti" mövzuları heç də elə-belədən yaranmayıb.



Nifrətin əməli nəticələr verməsi naminə Ermənistana silah-sursat yardımı da var. Nəzərə alaq ki, Hindistanın Ermənistana göndərdiyi silahlar da, faktiki olaraq, Fransaya məxsusdur. Daha dəqiq deyək ki, Ermənistana Fransaya məxsus, lakin Hindistanda istehsal olunmuş silahlar göndərilir. Fransızlar öz silahlarını hindistanlıların ucuz işçi qüvvəsi hesabına hazırlayırlar. Belə praktikadan müxtəlif Avropa brendləri də yararlanırlar. Onlar fabrik və zavodlarını ucuz işçi qüvvəsi olan Asiya ölkələrində qururlar.

Beləliklə, Fransa ucuz istehsal olunmuş silahlarını Ermənistana verir ki, ikinci hər zaman Azərbaycana qarşı, belə demək mümkünsə, əli tətikdə dayansın. Görünür, bu mürəkkəb konfiqurasiyada avropalı müşahidəçiləri kəşfiyyat məqsədilə istifadə də əsas götürülür. Ancaq indiki məqamda başlıca vəzifə İrəvana ruh verməkdir. Həm əldə edilmiş məlumatlara, həm də son günlər sülh gündəmi baxımından Ermənistan rəhbərliyinin ortaya atdığı qoşunların güzgü qaydasında geri çəkilməsi ritorikasına əsasən deyə bilərik ki, ermənilərdə ruh yüksəkliyi formalaşdırmaq üçün başlıca vəzifə Azərbaycan hərbçilərinin qərarlaşdıqları strateji yüksəklikləri qəfil sürətli hücumla geri qaytarmaqdır.

Burada əsas rol Fransaya məxsusdur. Parisin nəzərdə tutduğu plana əsasən hücum gözlənilməz olmalıdır. Çox güman, fransız generalın şərti sərhəddə peyda olmasının da, elə Çexiya vətəndaşı olan şəxsin minalanmış zonanı keçib Azərbaycan tərəfinə keçməsinin da balıca məqsədi budur.

Hər bir halda, belə gedişlərin heç bir nəticə verməyəcəyi birmənalıdır. Yəni, Azərbaycan hərbçiləri münasib bildikləri nöqtələrdən bir addım geri çəkilən deyil. Bunu ölkəmizin rəhbərliyi, kifayət qədər, əmin tərzdə bəyan edib. Deməli, avropalılar nəzərə almalıdırlar ki, hazırkı durumda sərhəd zolağı kimi qiymətləndirilmiş ərazidə hansısa hərəkətlilik yaratmaq, nəinki Bakı-İrəvan sülh prosesinə zərbə vurmaqdır, habelə, Ermənistanı real təhlükəyə atmaqdır. Çünki hərəkətlilik hücum cəhdi kimi qiymətləndiriləcək və buna layiqli cavabın verilməsi isə mütləqdir.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# İrəvanda konstitusiya müzakirələri qızışır

(əvvəli 1-ci səhifədə)

Fevralın 1-də bu istiqamətdə fikirlərini bölüşən Prezident İlham Əliyev bildirdi ki, müstəqillik haqqında bəyannamədə Qarabağın Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var. Bu sənədə istinadlar da Ermənistanın konstitusiyasında öz əksini tapıb. Həmçinin Ermənistanın digər normativ-hüquqi sənədlərində ölkəmizə qarşı ərazi iddiaları, İrəvanın qoşulduğu bir çox konvensiyalarda və digər sənədlərdə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeyd-şərtlər mövcuddur. Prezident qeyd etdi ki, bu iddialara son qoyulduğu, Ermənistan konstitusiyasında və digər normativ-hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər. Dövlətimizin başçısı bildirdi ki, hazırda Ermənistanda bu mövzuda ölkədaxili müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər.

Ermənistanda isə konstitusiyanın dəyişdirilməsi məsələsi ilə bağlı hakim siyasi düşərgədə, əsasən, həmrəylik mövcuddur. Onlar baş nazirin təklifi ətrafında yekdillik nümayiş etdirirlər. Hətta, parlamentin sədri Alen Simonyan bir qədər də irəli gedərək, dövlət himninin və gerbinin də dəyişdirilməli olduğunu bildirib. O, özünün "Teleqram" kanalında yazıb: "Mənə aydındır ki, Ermənistan Respublikasının himni gec-tez dəyişdirilməlidir. Onun bizim dövlətimiz və erməni musiqisi ilə əlaqəsi olmalıdır. Dövlət himni qaydalara uyğun ifa edilməlidir. Mən himni dahi Aram Xaçaturyanın möhtəşəm musiqisi ilə əvəz etmək lazım olduğunu iddia etmirəm. Amma görünən odur ki, bizə yad, xaricdən gələn mövcud himnin dəyişdirilməsi zərurətdir".

Gerblə bağlı da fikirlərini bölüşən Simonyan qeyd edib ki, bu məsələ də müzakirə edilməlidir. O, gerbdə Nuh peyğəmbərin gəmisinin, Türkiyə ərazisindəki Ağrı dağının və indiki Ermənistan ərazisinin su altında qalmasının təsvirini nəzərdə tutaraq yazıb: "Ən azından gerbdə Ermənistan su altında qalmış vəziyyətdə təsvir olunmamalıdır. Nəzərə almaq lazımdır ki, "Böyük daşqın" bəşəriyyətin cəzası idi. Bundan əlavə, gerbimizdəki şir "Facebook"dakı gülüş işarəsinə bənzər şəkildə ola bilməz. Ermənistanı qoruyan qılınc isə zəncirlənmiş halda əks oluna bilməz".

Jurnalistlərə müsahibəsində isə A.Simonyan deyib ki, yeni konstitusiyaya ehtiyac regionda baş verən geosiyasi dəyişikliklərin nəticəsidir. Onun sözlərinə görə, Ermənistan müstəqilliyini bərpa edəndən bəri fundamental sənədlərdə yenidən işlənməli olan müddəalar var: "Bunlar geosiyasi dəyişikliklərlə və son hadisələrlə bağlıdır. Biz Ermənistanın hara getdiyini və hansı məqsədlər güddüyünü başa düşməliyik. Ermənistan Respublikasının hansı məqsədlə mövcud olduğu sualını özümüzə verməliyik: O, "böyük Ermənistan"ı bərpa etmək, yoxsa vətəndaşların təhlükəsizliyini və rifahını təmin etmək üçündür? Bu suallara cavab verməliyik və hesab edirəm ki, cəmiyyətimizdə onlara verilən cavablar birmənalı deyil".

Ancaq parlament sədrinin müavini Ruben Rubinyan iqtidarın ölkənin himni və gerbinin dəyişdirilməsi ilə bağlı qərar qəbul etmədiyini bildirib. Onun sözlərinə görə, hazırda hakim "Mülki müqavilə" partiyasının, onun parlamentdəki fraksiyasının və hökumətin bununla bağlı hər hansı qərarı yoxdur:



"Kim dedi ki, biz himni və gerbi dəyişmək istəyirik? Şəxsən mən onları dəyişdirmək istəmirəm".

Rubinyan, onu da bildirib ki, yeni konstitusiya layihəsi mövcud deyil, onu heç kim görməyib.

Parlamentin dövlət-hüquq məsələləri daimi komissiyasının sədri, hakim "Mülki müqavilə" partiyasından olan deputat Vladimir Vardanyan isə fevralın 5-də parlamentdə jurnalistlərin suallarını cavablandırarkən deyib: "Biz konstitusiyaya iki prizmadan baxmalıyıq. Bunlardan birincisi sənədin mətninin özü, digəri vətəndaşların iradəsi və ya sərhədləridir. "Bu məsələ, əslində, 2018-ci ildən bəri davamlı olaraq müzakirə olunur. Mən istəyirəm ki, biz konstitusiyaya sosial, ictimai münasibətlərin inkişafı ilə bağlı dəyişdirilməli olan canlı sənəd kimi baxaq. Bu nöqteyi-nəzərdən Ermənistan müstəqilliyini bərpa etdikdən sonra nəinki konstitusiya islahatlarını, hətta yeni konstitusiyanın mətni məsələsini də müzakirə edən ilk və sonuncu ölkə deyil".

Yeni konstitusiyada müstəqillik bəyannaməsinə istinadın mümkün olub-olmaması ilə bağlı suala, o, belə cavab verib: "Konstitusiyanın yeni mətni referenduma çıxarılarsa, hansı mətndə olacağına hakimiyyət mənbəyi qərar verəcək".

Müxalifətin konstitusiyanın dəyişdirilməsinin Azərbaycanın tələbi olmasına əmin olduğuna dair fikirləri şərh edən komissiya sədri deyib: "Biz bu problemi Azərbaycan mediasından daha çox müzakirə edirik. Heç bir konstitusiya təzyiq altında qəbul edilə bilməz və qəbul edilməməlidir. Çünki təzyiq altında qəbul olunarsa, suverenliklə bağlı problemlərimiz olacaq. Yeni konstitusiyada müstəqillik bəyannaməsinə bəlkə daha çox, bəlkə daha az istinad ola bilər. Hələlik, sadəcə, ideya var və hər şeyi qeyd etdiyim kimi, hakimiyyət mənbəyi, yəni xalq həll edəcək. Mən həmişə konstitusiyanın həftədə bir dəfə dəyişdirilməsi cəhdlərinin əleyhinə olmuşam, eyni zamanda, konstitusiyanı "müqəddəs inək" kimi qəbul etmək cəhdlərinin də əleyhinəyəm, bu, canlı sənəddir".

Siyasi analitik Suren Surenyants hesab edir ki, baş nazir konstitusiya və müstəqillik bəyannaməsi ilə bağlı "aşağı səviyyəli" ritorika ilə Ermənistan dövlətçiliyini delegitimləşdirir: "Paşinyan fevralın 1-də ictimai radioya müsahibəsində dedi ki, Ermənistan konstitusiyasının qəbulu və ona əlavələrin edilməsi heç vaxt vətəndaşların iradəsini birbaşa ifadə etdiyi şəraitdə baş verməyib. Bəs başqa ölkələrin diktəsi ilə hazırlanacaq konstitusiya nə dərəcədə legitim olacaq? Paşinyan, şübhəsiz ki, vacib olan daxili legitimlik məsələlərindən narahatdır, lakin siz kənardan sifarişlə yeni konstitusiya qəbul etməyə hazırlaşdığınız halda, dövlətçiliyinizin legitimliyi sual altına düşür".

Ermənistanın sabiq ədliyyə naziri Gevorq Danielyan isə fikirlərində bir qədər də qabağa gedərək Azərbaycanın yeni konstitusiya qəbul etməli olduğunu deyib. Sabiq nazir sərsəm fikirlərini sosial şəbəkədəki hesabında ifadə edib.

Bu arada "Hayakve" təşəbbüsünün indi də konstitusiya hərəkatı formalaşdırmaq üçün işlərə başladığı açıqlanıb. "Hayakve"nin ofisindən verilən məlumata görə, təşəbbüs şurası fevralın 6-da mübarizə ilə bağlı addımlarını açıqlayacaq. Qeyd olunur ki, hərəkat Ermənistanın müstəqillik bəyannaməsi və konstitusiyasını "qorumaq" məqsədi ilə yaradılacaq.

Qeyd edək ki, "Hayakve" təşəbbüsü ötən ilin yayında yaradılmışdı. Məqsəd N.Paşinyanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımasının hüquqazidd olduğunda dair 40 min imza toplamaq idi. Ancaq onların təşəbbüsü uğursuzluğa düçar oldu. İndi yeni təşəbbüsü də eyni aqibətin gözləmədiyinə heç kim təminat verə bilməz.

Müzakirələr qonşu ölkələrdə də siyasi ekspertlərin diqqətini çəkib. Gürcü politoloq Gela Vasadze Ermənistan mətbuatına müsahibəsində deyib ki, o, bu mövzuda azərbaycanlı qonaqlar və müxtəlif ekspertlərlə söhbətlər aparıb: "Mənim başa düşdüyüm qədər hər iki tərəf bir-birinin ərazi bütövlüyünü tanıdığını bəyan edir. Amma Bakıda deyirlər ki, Ermənistan konstitusiyası və ali sovetinin qərarı bunu qadağan edirsə, İrəvan sülh sazişini necə bağlayacaq? Bu, onların mövqeyidir".

Vasadze qeyd edib ki, Ermənistanın Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olması ilə bağlı iddialarına gəlincə, bu, həqiqətən də belədir: "Gürcüstan da Gürcüstan Demokratik Respublikasının hüquqi varisidir. Mən azərbaycanlı qonaqlarımdan birinə bu barədə sual verəndə və ona Gürcüstanla Azərbaycan arasında nə ola biləcəyi ilə bağlı sadə sual verəndə o, mənə aydın cavab verdi: Gürcüstan Alma-Ata Bəyannaməsini tam olaraq tanıdı, Ermənistan isə qeyd-şərtlə qəbul etdi. Alma-Ata Bəyannaməsində Qarabağ məsələsi də daxil olmaqla, on qeyd-şərt var. Ümumiyyətlə, məndə belə bir təəssürat yaranıb ki, həm Azərbaycan, həm də Ermənistan üçün gələcəkdə qarşılıqlı etimadsızlığın baş verməməsi, müdaxilə üçün heç bir çatın qalmaması çox vacibdir".

Göründüyü kimi, Ermənistanda konstitusiyaya dəyişikliklər, yaxud yeni əsas qanunun qəbulu ilə bağlı müzakirələr getdikcə qızışmaqdadır. Onların nə ilə yekunlaşacağını isə təbii ki, zaman göstərəcək.

**Səxavət HƏMİD**
**XQ**

## Ekspert rəyi



**Fikrət SADIXOV, politoloq**

**Ermənistan ya konstitusiyasına düzəlişlər etməli, ya da yeni əsas qanun qəbul etməlidir. Çünki müasir beynəlxalq münasibətlər sistemində bir dövlətin digərinə ərazi iddialarının olması nonsensdir. İndi 1990-cı illər deyil. Regionda yeni reallıqlar yaranıb. Həmin reallıqları da yaradan Azərbaycandır. Ölkəmizə qarşı ərazi iddialarının hələ də qalması, əlbəttə, Ermənistanın tam mənada qeyri-sivil və qeyri-adekvat dövlət olmasının göstəricisi ola bilərdi. İndi hökumət yeni reallıqları anlayır. Daxildə bir sıra qüvvələr isə ona qarşı çıxırlar. Radikal müxalifətçilər, revanşistlər kifayət qədər aqressivdir. Amma onlar çoxluq təşkil etmirlər. Çoxluq başa düşür ki, Azərbaycan müharibədə qalib gəldikdən, öz torpaqlarını azad etdikdən sonra Ermənistan konstitusiyasında belə müddəaların qalması absurddur.**

**Eyni zamanda, Azərbaycan tərəfi mövqeyini rəsmi İrəvana çatdırıb. Bildirilib ki, müvafiq müddəalar konstitusiyadan qaldırılmayanadək sülh sazişi imzalanmayacaq. Çünki belə olan halda sülh sazişi heç bir məna daşımayan sənədə çevrilə bilər.**

# Serbiyanın AŞPA heyəti Azərbaycanla bağlı qətnaməni ləğv etməyə çağırır

(əvvəli 1-ci səhifədə)

Serbiyanın AŞPA-dakı nümayəndə heyəti qəbul edilmiş qətnaməyə qəti etirazını bildirərək, Assambleyanın və Avropa Şurasının reputasiyasına və müəyyən edilmiş roluna mənfi təsirlərin qarşısını almaq məqsədilə onu yenidən nəzərdən keçirməyə çağırır: "Azərbaycanın parlament nümayəndə heyətinin etimadnaməsinin qəbul edilməməsi AŞPA çərçivəsində Azərbaycan ilə əməkdaşlığı qeyri-mümkün edir və bu ölkə ilə Avropa Şurasının daha geniş çərçivədə müxtəlif orqan və mexanizmlərdən ibarət zəngin palitrasında əməkdaşlıq və öhdəliklərin yerinə yetirilməsi baxımından daha çox imkanın itirilməsinə gətirib çıxarır".

Müraciətdə daha sonra qeyd edilir ki, belə vəziyyət dialoq və müvafiq öhdəliklərimizin yerinə yetirilməsi üçün platforma rolunu oynayan bu qurumun əsas məqsədinə ziddir. Bu, assambleyanın və bütövlükdə Avropa Şurasının nüfuzuna da ciddi zərbə, eləcə də onların dəstəklədiyi əməkdaşlıq ruhuna etinasızlıqdır. Bundan əlavə, bu, Şuranın Cənubi Qafqaz regionuna, o cümlədən, təşkilatın mandatına birbaşa aid olan məsələlərdən uzaqlaşmasına gətirib çıxarır ki, bu da təşkilatın maraqlarına uyğun hesab edilə bilməz.

Sənəd bu sözlərlə bitir: "Serbiya nümayəndə heyəti AŞPA-nın bütün üzvləri ilə səmimi dialoqun və əməkdaşlığın davam etdirilməsinin son dərəcə vacibliyini bir daha vurğulayaraq, qətiyyətli davranmağınız və Azərbaycan Respublikası nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı qətnamənin ləğv olunması xahişi ilə sizə müraciət edir".

**XQ**

# Erməni siyasi gündəmi – sülhdən yayınmaq "formulları"

## Hayastanın bəhanələri bitib-tükənmir...

**Konstitusiya dəyişikliyi, Azərbaycanla sülh, Rusiya ilə münasibətlər. Hazırda başlıca olaraq bu üç mövzu Ermənistanın siyasi gündəmini məşğul etməkdədir. Diqqətçəkən cəhət ondadır ki, konstitusiya dəyişikliyi və Rusiya ilə münasibətlər xüsusunda ortaya çıxanlar da özlüyündə Azərbaycanla sülh gündəliyinə təsir göstərməkdədir. Əlbəttə, söhbət mənfi təsirdən gedir. Birincidən başlayaq.**

Məlumdur ki, Azərbaycan rəhbərliyi də Ermənistan konstitusiyasının dəyişdirilməsinin vacibliyini vurğulayıb. Bunun çox sadə səbəbi var – həmin konstitusiyada qonşulara, o cümlədən, Azərbaycana qarşı ərazi iddiaları yer alır. İrəvan sülhdə maraqlıdırsa, gərək, ilk növbədə, özünün əsas qanununa əl gəzdirsin. Nəzərə alaq ki, dəyişiklik həm də səmimiyyət jestidir.

Ancaq Ermənistanda məsələni belə qiymətləndirməyənlər siyasi meydandadırlar. Onlar bildirirlər ki, Bakının bəyanatı Ermənistanın suverenliyinə qəsddir. Belə



təxribatçı mövqe tutanlar onu da vurğulayırlar ki, Azərbaycan, guya, Ermənistanın ərazi bütövlüyünü pozaraq, ölkənin 220 kvadratkilometrdən çox ərazisini işğal edib və guya, indi təcavüzünü respublikanın fundamental sənədlərini sıradan çıxarmaqla davam etdirir. Ən başlıca məqam isə budur ki, başıpozuqlar yığını ölkəmiz tərəfindən irəli sürülmüş məsələnin Ermənistanın tamamilə məhvinə yönəldiyinə dair vay-şivən qaldırırlar.

Bəli, müasir Ermənistan Respublikasının fundamental əsası işğalçılıq, Qarabağ avantürası üzərində qurulub. Əslində, ölkə 1918-ci ildə müstəqilliyini əldə edərkən də eyni motivlər aktual idi. Bu isə o deməkdir ki, ərazi iddiası olmasa, Ermənistan bir dövlət kimi yoxdur. Deməli, mövcud trayektoriyada dəyişiklik mütləqdir. Yəni, Ermənistan mövcudiyyət üçün fərqli yol seçməlidir. Əlbəttə, bunu ölkədə dərk edənlər var. Ancaq, təəssüf ki, onların sayı şivən ritorikasına baş vuranlardan ya çoxdur, ya da birincilərin susqunluğu fonunda ikincilərin qışqırığı daha ucadan gəlir.

Ermənistandakı revanşist kəsim iddia edir ki, vaxtilə sülh yolunda əsas manea Azərbaycanın və Türkiyənin Qarabağ məsələsinin həll olunmaması ilə bağlı bəyanatları idi. Artıq Qarabağ məsələsi yoluna qoyulub, ancaq Bakı bununla kifayətlənmək fikrindən uzaqdır.

Əlbəttə, erməni siyasilərin səsləndirdikləri bəhanədir. 2020-ci ilin 44 günlük müharibəsindən sonra yeni nələrisə uydurub onu sülh gündəmi kimi təqdim edən Ermənistan hakimiyyəti olub. Erməni siyasi isteblişmenti də ölkə rəhbərliyinin hansı siyasi manipulyasiyalara baş vurduğunu gözəl anlayır. Mövcud xüsusda hər iki qütb arasında yazılmamış anlaşma mövcuddur.

Tam aydındır ki, Ermənistana sülh lazım deyil. Ona görə də ölkə reallığı qəbul etmək niyyətindən uzaqdır. Müvafiq olaraq, Azərbaycan tərəfindən səslənmiş bütün fikirlər erməni cəmiyyətinə qıcıqlandırıcı tərzdə təqdim olunur. Eləcə də, konstitusiya dəyişikliyi ilə bağlı məsələ.

Baxmayaraq ki, onu ilk dəfə erməni iqtidarı gündəmə gətirib, mövzu o tərzdə vurğulanır ki, sanki, Bakı İrəvana əsas qanunda dəyişikliyi diktə edir. Nəticədə psixoz mühitin təsirləri güclənir və reallıq inkişaf plana keçir. İlk baxışdan, bu durumu yaradan Ermənistan müxalifəti kimi görünür. Ancaq məsələ heç də belə deyil. Çünki zaman-zaman ölkə hakimiyyətinin məhz müxalifətin dilindən səslənmiş avantürist baxışları özünün siyasətinin tərkib hissəsinə çevirdiyini görmüşük.

Dediyimiz kimi, Ermənistanın siyasi mühitinin əsas mövzularından biri də Rusiya ilə münasibətlərdir. Əlbəttə, mövcud xüsusda birinci cəhət Azərbaycanla sülh gündəmidirsə, ikinci məqam Ermənistanın Qərblə yaxınlığıdır. Qərblə yaxınlığa son zamanlar bir seqment də əlavə olunub. Söhbət NATO seqmentindən gedir. İrəvanda səfərdə olan NATO-nun Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanın açıqladığı kimi, Ermənistanın Alyans ilə siyasi və praktiki əməkdaşlığı fəallaşdırmaq qərarı ruhlandırıcıdır. Ermənistan hakimiyyəti isə bu kursu ölkənin təhlükəsizliyinin möhkəmlənməsi baxımından izah etməyə çalışır.

Əlbəttə, Ermənistana konkret təhlükəsizlik təminatı lazımdır. Ancaq ölkənin siyasi ekspertləri bildirirlər ki, indiki durumda NATO-da, ABŞ-da və Avropa İttifaqında heç kim belə bir zəmanəti verməyə hazır deyil. Mövcud istiqamətdə yalnız şifahi vədlər nəzərə çarpır. Əlbəttə, bu mənada, Fransanı istisna saymaq mümkündür. Ancaq o da məlumdur ki, Parisin özünün də beynəlxalq durumu qaydasında deyil.

Digər tərəfdən, burada İran faktoru da vurğulanmalıdır. Ermənistanın NATO ilə əməkdaşlığa can atması kontekstində bu faktorun İrəvanın təhlükəsizliyinin təminatı baxımından nə dərəcədə önəmli olacağı şübhəlidir. Nəzərə alaq ki, bu günlərdə İran Ermənistana səfər etmiş Ali Dini Rəhbərin müşaviri Kamal Xərrazinin dili ilə Qərbin İranın şimal sərhədlərində mövcudluğunun qəbuledilməzliyini diqqətə çatdırdı. Bu, o deməkdir ki, Qərbin istənilən infrastrukturu, ilk növbədə, NATO İran üçün "qırmızı xətt"dir.

Bilavasitə, Rusiyanın üzərinə gələk. Hələlik, Moskva İrəvanın davranışlarına yalnız ritorika səviyyəsində reaksiya verir. Çünki ikincinin Qərb xüsusunda NATO ilə yaxınlaşması hələlik reallıq kimi görünmür. Deməli, Kreml ehtiyatlıdır. Onun ehtiyatlı davrandığını təsdiqləyən daha bir xüsus da var.

Xatırlayaq ki, Rusiya Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu ratifikasiyasının yolverilməz olduğunu bildirmişdi. Ancaq bu il fevralın 1-dən İrəvan BCM-in tamhüquqlu üzvünə çevrildi. Yəni, Roma Statutu rəsmən qüvvəyə mindi. Moskva isə buna qarşılıq səbrli davrandı. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirdi ki, Roma Statutunun qəbulunun Moskva–İrəvan ikitərəfli münasibətlərinə təsir göstərməyəcəyinə ümidvardır.

Deməli, Ermənistan tərəfindən bilavasitə özünə qarşı yönəlməyən hərəkətlər olmazsa, Rusiya bəyanatlarla məhdudlaşa bilər. Moskva fərqindədir ki, İrəvana qarşı cəza mexanizmlərindən istifadə mənfi reaksiya doğuracaq. Yəni, sərtlik Ermənistana hansısa yolla öz hərəkətlərini və siyasətini yenidən düşünməyə və qiymətləndirməyə şərait yaratmayacaq, əksinə, ölkədə atdığı addımların düzgünlüyü hissi güclənəcək. Ancaq bu, heç də o demək deyil ki, Kreml İrəvanı iqtisadi, enerji və s. alətlərlə sıxmağa çalışmayacaq.

Bəli, Rusiya ümidlidir ki, Ermənistan qatarı ondan uzaqlaşmayıb. Bir ümid yeri də İrəvanın Rusiyanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqına rotasiya qaydasında sədrliyə başlamasıdır. Bu sədrlik Ermənistanın 2022-ci ildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına sədrliyi zamanı çıxardığı oyunbazlığı unutdurur.

Sonda onu deyək ki, Ermənistan hakimiyyəti yuxarıda qeyd etdiklərimiz xüsusunda Azərbaycanla sülhdən boyun qaçırmaqdadır. Mövcud durumda onun gələcək fəaliyyətinin nədən ibarət olacağını proqnozlaşdırmaq da müəyyən qədər çətindir.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Xüsusi Təyinatlıların taktiki təlimi



**Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü il üçün hazırlıq planına əsasən, Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) hissə və bölmələri ilə "Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda taktiki-xüsusi təlim keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, taktiki-xüsusi təlimdə xüsusi təyinatlılar ərazinin maketi üzərində tapşırıqları dəqiqləşdirib, yüksək dağlıq ərazidə və şiddətli soyuqlarda taktiki yerdəyişmə fəaliyyətlərini yerinə yetiriblər.

Şərti düşmən müdafiəsinin yarılması, dayaq məntəqəsinin ələ keçirilməsi, ilk tibbi yardımın göstərilməsi və yaralının döyüş meydanından təhlükəsiz şəkildə təxliyəsi üzrə tapşırıqlar yerinə yetirilib.

Qarlı, şaxtalı hava şəraitində komandir heyətinin bölmələrin idarə edilməsi üzrə bilik və bacarıqlarının artırılması, döyüş əməliyyatları və xilasetmə tədbirlərinin aparılması, şəxsi heyətin xizək sürmə, eləcə də hərəkətli və hərəkətsiz vəziyyətdə atəşaçma vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə qarşıya qoyulmuş tapşırıqlar yüksək peşəkarlıqla icra olunub.

**XQ**

# XİN-in Türkiyədəki zəlzələnin ildönümü ilə bağlı başsağlığı

**Xarici İşlər Nazirliyi Türkiyədəki zəlzələnin birinci ildönümü ilə bağlı başsağlığı verib. Bu barədə XİN-in "X" səhifəsində paylaşım edilib:**

"Qardaş Türkiyədə böyük insan tələfatı və dağıntılara səbəb olan zəlzələnin birinci ildönümündə faciə qurbanlarının ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. "Bir millət, iki dövlət" kəlamı ilə bağlı olduğumuz Türkiyənin həm sevinc, həm də kədərində daim yanındayıq".

**XQ**

# Müdafiə məhsullarımız beynəlxalq sərgidə



**Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində ikinci dəfə təşkil edilən "World Defence Show-2024" Beynəlxalq Müdafiə Sənayesi Sərgisi fevralın 4-də işə başlayıb.**

Tədbirdə Azərbaycanın Müdafiə Sənayesi naziri Vüqar Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir.

45-dən çox ölkədən 750-dən çox iştirakçı və 115 xarici nümayəndənin qatıldığı "World Defence Show-2024" sərgisində Müdafiə Sənayesi Nazirliyinin təşkil etdiyi stenddə Azərbaycan istehsalı olan 107 adda müdafiə təyinatlı məmulatlar nümayiş olunur.

Açılış mərasimində iştirak edən V.Mustafayev Səudiyyə Ərəbistanı Krallığının Müdafiə naziri Xalid bin Salman Əl-Saud ilə görüşərək, sərgi ilə bağlı xoş diləklərini onun diqqətinə çatdırıb.

Səfər çərçivəsində V.Mustafayev Səudiyyə Ərəbistanı Krallığının Hərbi Sənaye Təşkilatının rəhbəri Əhməd Əbdüləziz Əl-Ohali ilə də görüşüb.

Qeyd edək ki, sərgi fevralın 8-i yekunlaşacaq.

**XQ**

# Mərakeşli jurnalistlər AZƏRTAC-da

**Mərakeşin nüfuzlu media orqanlarının nümayəndələri AZƏRTAC-da olublar. İdarə Heyətinin sədri Vüqar Əliyev iki ölkə mediası arasında genişlənən əlaqələrdən danışıb.**



Qonaqlara AZƏRTAC haqqında ətraflı məlumat verilib. Bildirilib ki, 104 yaşını qeyd etməyə hazırlaşan agentlik Azərbaycanın ilk xəbər agentliyidir. Hazırda dünyanın 50 xəbər agentliyi ilə tərəfdaşlıq münasibətlərinə malik olan agentlik 8 dildə xəbər, 5 dildə video yayır. Onun 21 ölkədə 22 müxbir məntəqəsi fəaliyyət göstərir.

Qeyd olunub ki, AZƏRTAC Mərakeşin MAP agentliyi ilə əlaqələrə malikdir. Bununla belə, əməkdaşlığın daha da genişləndirilməsinə və fəal informasiya mübadiləsinin aparılmasına ehtiyac var.

Görüşdə MAP agentliyinin redaktoru Mohammed Asvab, "L'Opinion" qəzetinin redaktoru Anass Maklux, "Al Bayane" qəzetinin direktorluğunun rəhbəri Mahtat Rakas, "Le Desk" rəqəmsal mətbu orqanının jurnalisti Fatima Lqadiri, "TelQuel" həftəlik xəbər jurnalının jurnalisti Yassine Majdi, "L'economiste" qəzetinin jurnalisti Saad Alami Yunes, BBMT onlayn xəbər kanalının jurnalisti Buxaib Brhadda iştirak ediblər.

**XQ**

# Xocalıda artilleriya mərmiləri

**Azərbaycanın Qarabağ bölgəsində əraziyə baxış zamanı Xocalı rayonunda artilleriya mərmiləri aşkarlanıb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, ordumuzun mühəndis-istehkam bölmələri tərəfindən aşkar edilmiş 8 ədəd 122 millimetr zirehdələn, 273 qəlpəli-fuqas və 285 ədəd 122 millimetrlik top mərmiləri arxalığı təhlükəsizlik qaydalarına riayət edilməklə ərazidən müsadirə edilib.

**XQ**

# Heydər Əliyevin milli dövlət quruculuğu konsepsiyasının Naxçıvan mərhələsi

## (“Bir millət, iki dövlət” kəlamı kontekstində)

**II MƏQALƏ**

***Heydər Əliyev, həqiqətən də, tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü Müstəqil Dövlətlər Birliyi məkanında, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir…***

**Çingiz AYTMATOV**



Milli dövlət quruculuğunun “Naxçıvan sinerjisi”: birləşdiricilik nümunəsi kimi

Yuxarıda vurğulanan fikirlərdən fəlsəfi-sinergetik qənaətlər əldə etmək olar. Bunun üçün yeni bir anlayış daxil etməliyik: milli dövlət quruculuğunun “Naxçıvan sinerjisi”. Bu anlayış fəlsəfi və politoloji aspektlərdə nəyi ifadə edir?

### a) “Sinergizm” və “sinerji”: qısa fəlsəfi-sinergetik izah

Öncə, milli dövlət quruculuğunun “Naxçıvan sinerjisi” dedikdə nəyi nəzərdə tutduğumuzu izah edək. Məsələyə fəlsəfi-sinergetik yanaşdığımızdan daxil etdiyimiz anlayışın konkret və əsaslı elmi məzmunu müəyyən edilməlidir.

“Sinerji” anlayışı sinergetikada işlənir. Bununla yanaşı, “sinergizm” anlamı da vardır. Bunlar fərqlidirlər. Sinergizm, ümumiyyətlə, mürəkkəb və özünütəşkil edə bilən sistemlərin (cəmiyyət də bura daxildir) həm real prosesləri arasında olan münasibətləri, həm də bu münasibətləri öyrənmənin sinergetik “elmi təşkiledici prinsipi”ni ifadə edir. Bir qədər sadə şəkildə ifadə etsək, “sinergizm” mürəkkəb və qeyri-xətti sistemlərin real özünütəşkil prosessuallığını və ümumelmi tədqiqat strategiyasını (M.Kastels, B.Latur, E.Moren, V.İ.Arşinov mənasında) ifadə edir. Sinergizmin əsas əlaməti sistemin elementlərinin bir-biri ilə harmoniyası, uzlaşması, həmahəngliyidir. Bu keyfiyyətdə sinergizm sistemi tamlaşdıran, bütövləşdirın və özünütəşkil edən başlıca ümumi epistemoloji prinsipdir.

“Sinerji” anlayışı sinergizmdən alınır. Sinerji artıq konkret enerji aspektində sistemdaxili elementlərin harmoniyada və vəhdətdə aktuallaşmasıdır (əyaniləşməsi, potensialın aktuallaşma sayəsində predmetləşməsi, maddi forma alması, konkret faktora çevrilməsi).

Deməli, “sinerji” abstrakt olduğu qədər də konkret məzmuna malik heterogen (qeyri-bircins, fərqli təbiətli, müxtəlif elementlərdən təşkil olunan sistem-proses və ya şəbəkə) hadisədir. Tədqiq olunan obyektin təbiətindən asılı olaraq sinerji müxtəlif formalarda əyaniləşə və ya predmetləşə bilər. Məsələn, fiziki sistemlərdə, bu, kvantların harmoniyasının predmetləşməsidirsə, bioloji sistemlərdə hüceyrələrin qarşılıqlı əlaqəsinin sintetik effektinin elmi obrazı ola bilər. Sosial-siyasi sistemlərdə isə cəmiyyəti təşkil edən subyektlərin fəaliyyətlərinin konkret məqsəd fonunda harmoniyası, bir-biri ilə uzlaşması və ahəngdarlıq yaratmasıdır.

Biz, “sinergizm” və “sinerji” anlayışlarının ümumi fəlsəfi-sinergetik anlamlarını Azərbaycanda müstəqil milli dövlət quruculuğu konsepsiyasının konseptual elmi kateqorial aparatının anlayışı olaraq “Naxçıvan sinerjisi” ifadəsinə reduksiya (məna və məzmunca konkret mövzuya “köçürürük”) edirik. Mətndəki təhlil göstərəcəkdir ki, bunun ciddi elmi əsasları mövcuddur, yəni belə reduksiyaya haqqımız vardır.

### b) Milli dövlət quruculuğunun “Naxçıvan sinerjisi”

Milli müstəqil dövlət quruculuğu konsepsiyası çərçivəsində “Naxçıvan sinerjisi” konkret məzmuna malikdir. Onun nəzəri ilə yanaşı, praktiki fəaliyyət aspektləri vardır. Burada öncə, Azərbaycanın bir konkret regionunda cəmiyyətin, rəhbərliyin və siyasilərin vahid amal uğrunda ümum-Azərbaycan miqyasında fəaliyyətinin otaq bir cəhəti ifadə olunmuşdur. O, naxçıvanlıların (vətəndaş, siyasətçi, idarəedən, ziyalılar və digər təbəqələrin) bütövlükdə Azərbaycanda müstəqil dövlət qurmaq uğrunda fəaliyyətlərini (sinergetik ifadə etsək: enerjilərini) eyni istiqamət (daha doğrusu, məqsəd) üzrə birləşdirməyi, sintez etməyi, harmoniyasına, ahəngdarlığına nail olmasını ehtiva edir. Bu keyfiyyətdə “milli dövlət quruculuğunun son hədəfi, bütövlükdə, Azərbaycanda müstəqil dövlətin qurulmasından ibarətdir. Bu tezisi təsdiq edən dörd faktı göstərə bilərik (əslində, onlar çoxdur).

Onlardan biri 1989-cu ildə İranla olan sərhədin xalq tərəfindən sökülməsi idi. Bu, naxçıvanlıların bütün dünyaya əsas məsələnin bütövlükdə Azərbaycanın müstəqil dövlətçiliyi ilə bağlı olduğu mesajını əməli fəaliyyət vasitəsi ilə göndərməsi idi. Böyük qəhrəmanlıq tariximizin bir fraqmentidir!

**İkinci fakt** kimi, 1990-cı ildə məhz Naxçıvanda Azərbaycan Demokratik Respublikasının şanlı üçrəngli bayrağının Dövlət Bayrağı kimi qəbul edilməsini və onun təntənəli surətdə Naxçıvan parlamentinə gətirilməsini göstərə bilərik. Eyni zamanda, Naxçıvan parlamenti Azərbaycan Ali Soveti (o zaman, Azərbaycanın qanunverici orqanı belə adlandırılırdı) qarşısında vəsatət qaldırdı ki, Azərbaycan dövləti bu bayrağı rəsmi olaraq Dövlət Bayrağı kimi təsdiq etsin!

Bayrağın rəsmi olaraq Azərbaycanın bir regionunda, bütövlükdə, Azərbaycanın Dövlət Bayrağı statusunda qəbul edilməsi olduqca əlamətdar və milli dövlət quruculuğu baxımından prinsipial əhəmiyyət daşıyan hadisə idi. Bu, faktiki olaraq Naxçıvan əhalisinin, bütövlükdə, Azərbaycanı müstəqil dövlət kimi görmək arzusu ilə “nəfəs aldığı”nı ifadə edirdi.

Siyasi kontekstdə isə bu, Azərbaycan tarixində ilk dəfə olaraq bir bölgədə dövlətçiliyin rəmzi kimi qəbul edilən bayrağın, həmin bölgənin özü tərəfindən, bütövlükdə, Azərbaycan qanunverici orqanına müraciət edərək onun rəsmi dövlət bayrağı kimi qəbul edilməsi məsələsinin qaldırılması olayı idi!

Burada Naxçıvan əhalisinin iki mühüm siyasi ismarıcı vardı: onlardan biri Naxçıvanda faktiki olaraq, bütövlükdə, Azərbaycan dövlətçiliyi uğrunda mübarizənin aparıldığının nümayişi idi. Yəni, söhbət ölkənin bir regionundan getmirdi. Digəri isə Naxçıvanda bu fəaliyyəti təşkilatlanmış şəkildə koordinasiya edən, ona yön verən və qarşıya konkret aydın vəzifələr qoyan təşkilatlanma mövcud idi!

Sərhədlərin sökülməsindən sonra məhz ADR-in bayrağının Naxçıvanda qəbul edilməsi stratejidə hədəfin Bütöv Azərbaycan olacağı mesajı idi. Bu, ümumiyyətlə, Azərbaycanın yerləşdiyi coğrafi-siyasi və geosiyasi məkanda inqilabi bir hərəkat idi. O, Naxçıvandan başlamışdı, özü də Şimali Azərbaycanda müstəqil dövlət quruculuğunun motivasiyasi kimi həyata keçirilirdi!

**Üçüncü fakt.** Bütün bunların fonunda 1990-cı ilin yayında Ulu Öndərin Naxçıvana gəlişi çox əhəmiyyətli hadisə kimi görünür. Bu, taleyin xoş sürprizimi idi? Yoxsa, ömrünü Vətəninə həsr etmiş bir böyük siyasi xadimin yenidən fəaliyyətə başlamasının ilk addımı?

Əslində, bu cür sualların ritorikadan və emosiyaları “yoxlamaq”dan başqa mənası yoxdur. Çünki Heydər Əliyevin fəaliyyəti göstərdi ki, Ulu Öndərin bir siyasətçi və dövlət xadimi kimi, ən böyük amalı xalqa və dövlətə xidmət etməkdən ibarətdir. Ümummilli lider bu barədə açıq demişdir. Hətta “əgər müstəqillik yolunda mənə və ailəmə terror belə etsələr, müstəqillik yolundan çəkilmək yoxdur” məzmununda fikrini bəyan etmişdi. Ona görə də 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi dönüş nöqtəsi, Azərbaycanda müstəqil dövlət quruculuğuna yeni güc, təkan verilməsi hadisəsi kimi qəbul edilməlidir. Məsələ ondan ibarət idi ki, həmin mərhələdə həm Naxçıvan muxtar qurum olaraq çətin vəziyyətdə idi, həm də müstəqillik yolunda işləri mükəmməl aparmaq üçün təcrübəli, iradəli, mahir diplomat olan bir liderə ehtiyac yaranmışdı. Proseslər naxçıvanlıların düzgün seçim etdiklərini çox tez bir zamanda göstərdi.

Ulu Öndər həmin hadisə ilə bağlı demişdir: “Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim… Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm”.

### Həmrəylik: “Naxçıvan sinerji”si elementi kimi

**Dördüncü fakt.** Artıq 1991-ci il dekabrın 16-da Naxçıvan Ali Məclisi bütün Azərbaycan üçün tarixi əhəmiyyəti olan bir qərar qəbul etdi. Bu, 31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında qərarı idi. Bu, Ulu Öndərin dəfələrə xalqı və siyasətçiləri birləşməyə səsləyişinin birbaşa məntiqi nəticəsi idi! 31 dekabr tarixi də təsadüfən seçilməmişdi: məhz dekabrın 31-də sərhədlər sökülmüşdü!

Bununla Heydər Əliyev Azərbaycanın müstəqil dövlət ola bilməsi üçün iki hadisəni üzvi surətdə bir-biri ilə vahid siyasi məntiq daxilində sintez etmişdir: ümumi müstəqil dövlət qurmaq konsepsiyası ilə xalqın praktiki fəaliyyətinin nəticələrini birləşdirmişdi! Bu, sinergetik terminlərlə milli dövlət quruculuğu konsepsiyasının “Naxçıvan sinerji”sinin mühüm əlamətlərindən biridir! Bu kontekstdə araşdırmaçıların “1991-ci il dekabrın 16-da Naxçıvanda qəbul olunan qərar azərbaycançılıq ideologiyasının təbliği və ümumxalq birliyinin təmin edilməsi baxımından böyük əhəmiyyət daşıyır” fikri tamamilə əsaslıdır.

Bir qədər də dərindən məsələyə yanaşanda Heydər Əliyevin müstəqil dövlət quruculuğunu eksklüziv reallaşdırmaq üçün azərbaycançılıq ideologiyasının ilk sınağını Naxçıvanda həyata keçirdiyi fikrini irəli sürə bilərik. Bu, böyük ideoloji addım, tətbiqi baxımdan yenilik idi. Çünki Avrasiya məkanında bir regionda bütövlükdə ölkə üçün uğurlu ola bilən ideologiyanı konkret hüquqi sənəddə konkret mövzu üzrə hamının qəbul edəcəyi formada ifadə etməyin ikinci nümunəsi yoxdur. Həmin sənəd əsasında dünya azərbaycanlılarının müstəqil dövlət amalı uğrunda sıx birləşməsi məqsədləri aydın görünürdü. Dünya azərbaycanlılarının həmrəyliyi günü ilə bağlı keçirilən qurultaylarda göstərdikləri fövqəladə aktiv fəaliyyət də təsdiq edir ki, Ulu öndərin “həmrəylik” anlayışına verdiyi nəzəri məna və real-praktiki məzmun güclü təsiretmə və birləşdirmə potensialına malikdir. Sosial-siyasi həmrəylik xilas olmanın əsas təminedici faktorudur. Cəmiyyətin məqsədyönlü birliyi olmasa, kollektiv olaraq qalıcı uğur əldə etmək mümkün deyildir.

Bundan başqa, həmrəyliyin fəlsəfi-sinergetik anlamı Heydər Əliyevin nümunəsində Azərbacan üçün konkret məzmun kəsb etmişdir. Ulu öndər məsələni bu aspektdə aktuallaşdırmışdır: müstəqilliyə aparan yol həmrəylikdən keçir, həmrəylik isə konkret olaraq vahid məqsəd uğrunda fəaliyyət birliyini tələb edir! Bu baxımdan, həmrəylik milli dövlət quruculuğunun Naxçıvan mərhələsinin sinerjisinin əsas əlamətlərindən biridir! Eyni zamanda, “Naxçıvan sinerji”sinin sonrakı mərhələdə “Azərbaycan sinerjisi”nə çevrilməsinin başlıca mexanizmidir!

Məsələnin bu aspektinin təhlilinə keçməzdən öncə milli dövlət quruculuğunun mühüm bir özəlliyini vurğulayaq. Biz, “Naxçıvan sinerjisi”nin konkret bir mərhələdəki bir neçə takiki və strateji xarakterli funksiyasını nəzərdə tuturuq.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# “İslam maliyyə sistemi və onun Azərbaycandakı perspektivləri”

**Dövlətimiz tərəfindən həyata keçirilən İslam dünyasına yönələn, müsəlman ölkələri arasında birliyin daha da gücləndirilməsini, sülh və əməkdaşlığın dərinləşdirilməsini özündə ehtiva edən siyasət Azərbaycanın hər bir müsəlman ölkəsinə olan münasibətində özünü açıq şəkildə göstərir. Həm də ona görə ki, Azərbaycanın çoxəsrlik tarixi, mədəniyyəti Yaxın və Orta Şərq ölkələrində, o cümlədən, müsəlman dünyasında gedən proseslərlə sıx bağlıdır.**

Artıq demokratik dünyaya inteqrasiya etmiş respublikamız yeni sistemə məhz tarixən formalaşmış mənəvi dəyərlərlə daxil olub. Mövcud çoxəsrlik mədəniyyətinin kökündə ümumşərq, ümumislam amili xüsusi yer tutan Azərbaycanın İslam aləminə olan marağı, eləcə də müsəlman ölkələrinin ölkəmizə olan diqqəti təbiidir. Bu mənada Azərbaycanın İslam dünyasına olan diqqəti həm də ölkəmizin müsəlman dövlətləri arasında əməkdaşlığa verdiyi töhfələrlə müşayiət olunur.

Bununla yanaşı, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2017-ci ilin Azərbaycan Respublikasında “İslam həmrəyliyi ili” elan edilməsi humanist və sülhsevər təşəbbüs olmaqla ölkəmizin İslam birliyinə olan həssas münasibətinin daha bir göstəricisidir. Belə təşəbbüslər dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsi sahəsində əməli addımların atılmasına, o cümlədən, müsəlman ölkələri arasında əməkdaşlıq əlaqələrinin daha da güclənməsinə öz töhfəsini verməkdədir.

Bütün dövrlərdə sülhpərvər siyasət yürüdən, müsəlman həmrəyliyinə diqqətlə yanaşan Azərbaycan hər zaman dövlətlər arasında münasibətlərin daha da canlandırılmasına çalışıb və bu istiqamətdə üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirib. Müasir dünya reallıqları da sübut edir ki, İslam aləminin birliyə böyük ehtiyacı var. Çünki hazırda İslam dünyasında, ümumilikdə, Yaxın Şərq regionunda cərəyan edən proseslər, müharibələr, hərbi-siyasi çəkişmələr nəticəsində bir qisim dövlətlərin iqtisadiyyatı dağılıb, tənəzzülə uğrayıb. Qərb ölkələrində isə islamofobiya yayılır, bəzi qərb dairələri məqsədyönlü şəkildə sülh, barışıq, bərabərlik dini olan İslamı terrora bağlayırlar. Belə bir vaxtda iqtisadi əməkdaşlığın gücləndirilməsi, ümumilikdə, İslam maliyyə sisteminin yaradılması və inkişafı xüsusi önəm kəsb edir və dövrün çağırışlarından irəli gəlir.

Bu mənada, Azərbaycan İlahiyyat İnstitutu ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin birgə layihəsinin nəticəsi olaraq nəşr edilmiş “İslam maliyyə sistemi və onun Azərbaycandakı perspektivləri” adlı dərs vəsaiti mühüm aktuallığa malikdir. Dərs vəsaiti İslam maliyyə sisteminin formalaşdırılmasının tarixi və nəzəri məsələlərini geniş izah etməklə, ölkəmizdəki perspektivləri barədə ətraflı məlumatları da özündə əks etdirir.

İslam maliyyə aktivləri hələ 2020-ci ildəki 3,4 trilyon ABŞ dollarından 7,8 faiz artaraq 2021-ci ildə 3,6 trilyon dollara çatıb, eləcə də dinamik olaraq artmaqdadır. İslam maliyyəsi nəinki müsəlman ölkələrini, bütün dövlətləri əhatə etməkdədir. Mərkəzi Asiya, Şimali Amerika, Sakit okean hövzəsi və Afrika bölgəsi də daxil olmaqla, dünyanın 135 ölkəsində İslam bankçılığı tətbiq olunur.

Azərbaycanda İslam maliyyəsi üzrə kadr hazırlığı, institusional inkişaf, qanunvericiliyin təkmilləşdirilməsi, dünyada aparıcı İslam maliyyə qurumları ilə əməkdaşlığın gücləndirilməsi və İslam maliyyə kanalları vasitəsilə sərmayə cəlbi, xüsusən də postkonflikt quruculuğunda İslam maliyyə imkanlarından istifadə məsələləri kitabın aktual müzakirə mövzularıdır.

“İslam maliyyə sistemi və Azərbaycanda perspektivləri” adlı kitab, ümumilikdə, altı fəsildən ibarətdir. Əsərin “İslam iqtisadiyyatının nəzəri əsasları və tarixi inkişafı” adlı birinci fəslində İslam iqtisadiyyatının dini-nəzəri əsasları və prinsipləri izah edilir, din və iqtisadiyyat arasındakı əlaqələr şərh olunur, İslam iqtisadiyyatının elastiklik, ümumbəşərilik, tədricilik kimi xüsusiyyətlərinin nəzəri aspektləri açıqlanır. İslam iqtisadiyyatının qaydaları aydın şəkildə verilir, mənbələri göstərilir. Kitabda qeyd olunur ki, İslam iqtisadiyyatında hüquqi mənbə və metodlardan istifadə edilməsinin səbəbi iqtisadiyyata hüququn bir parçası kimi yanaşılmasından irəli gəlir.

İslam bankçılığında maliyyə tədarükü, bank məhsulları, sistemin cari vəziyyəti, habelə icarə, sosial alətlər, kapital bazarı, sahənin inkişafında təkafülün rolu və s. istiqamətlərdə elmi-nəzəri məsələlərə kitabın “İslam maliyyə mexanizmləri” adlanan ikinci fəslində baxılır. Bu fəsildə şəriklik (ortaqlıq), ticarət, icarə və sosial model əsaslı İslam maliyyə mexanizmləri nəzərdən keçirilir, müdarəbə, özəl müdarəbə, müştərək müdarəbə, muşarəkə və s. kimi bank məhsullarının geniş nəzəri izahı verilir və müdarəbədə pul axını sxematik təsvir edilir.

Kitabda İslam maliyyəsi üzrə ölkələrin reytinqi, tənzimləmə sisteminə görə qabaqcıl ölkələr, qlobal İslam maliyyə mənzərəsi, mövcud maliyyə sisteminin başlıca alətlər üzrə bölgüsü, müxtəlif ölkələr üzrə İslam maliyyə aktivlərinə dair statistik göstəricilər əsasında İslam maliyyəsinin cari vəziyyəti, sukuk bazarının formalaşması, təkaful əməliyyatları və s. geniş təhlil olunur.

Kitabın islam ticarət qanunları, İslamda müqavilənin növləri və hüququ, İslam maliyyə institutlarında şəriət komitələri, sözügedən maliyyə sistemində uçot və korporativ idarəetmə kimi məsələləri əhatə edən üçüncü fəsili “İslam ticarət qanunları və İslam maliyyə institutlarında korporativ idarəetmə standartları” adlanır. Bu fəsildə İslamda təbərru, ibra, bey satış, əmanət, müsavəmə, hüquqların ötürülməsi, habelə əməkdaşlıq müqavilələrinin nəzəri-praktiki aspektləri izah edilir, şəriət komitələrinin rolu və vəzifələri, onların fəaliyyətində tətbiq olunan tənzimlənmə, muhasibat və audit standartları ətraflı təhlil olunur.




Kitabda bildirilir ki, İslam Maliyyə İnstitutunda (İMİ) şəriət nəzarəti qaydalarının tənzimlənməsi, muhasibat və audit standartlarının tərtibi və tətbiq olunmasına nəzarət İMİ-nin Muhasibat və Audit Təşkilatı (AAOIFI) tərəfindən həyata keçirilir. Şəriət təftişinin əhatə dairəsi, şəriət nəzarət komitəsi ilə daxili şəriət təftişinin fərqləndirici xüsusiyyətləri, AAOİFİ maliyyə hesabatlarının səciyyəvi cəhətləri, audit və idarəetmə komitəsinin funksiyaları və s. kimi məsələlərə də üçüncü fəsildə aydınlıq gətirilir.

Kitabın “Qlobal maliyyə sisteminin inkişafında islam maliyyəsinin rolu” adlı dördüncü fəslində İslam maliyyə xidmətlərinin müasir vəziyyəti geniş təhlil olunur, İslam maliyyə sisteminin davamlılığı araşdırılır, maliyyə xidmətləri sahəsində qlobal imkanlar tədqiq olunur. Bu fəsildə statistik məlumatların əsasında İslam maliyyə xidmətlərinin müasir vəziyyəti araşdırılır, Birləşmiş Ərəb Əmirlikləri, Malayziya, İndoneziya, Misir və Səudiyyə Ərəbistanının timsalında bu sahəyə investisiya qoyuluşu, maliyyə xidmətlərinin inkişaf dinamikası və miqyası təhlil olunur. Ənənəvi maliyyələşmə ilə İslam maliyyəsi arasında müqayisəli paralellik aparılır, İslam maliyyə sistemində səmərəlilik, risk, risklərin idarə edilməsi və s. istiqamətlərdə nəzəri əsaslar və prinsiplər verilir.

Kitabda qeyd edilir ki, müsəlmanların şəriətə uyğun maliyyə sisteminə artan ehtiyacı İslam maliyyəsinin böyüməsinə təkan verir. Bir çox müsəlman qeyri-islam ölkələrində yaşasa da, ənənəvi bankçılıqda faiz ödənişlərinin qadağan olunmuş riba ilə ziddiyyət təşkil etdiyini başa düşdükdən sonra təbii olaraq alternativ maliyyələşdirmə üsulları axtarır ki, bu da İslam maliyyə sisteminin inkişaf drayveri kimi çıxış edir.

Kitabın bu fəslində, həm də dünyada İslam maliyyə xidmətlərinin inkişaf imkanları Səudiyyə Ərəbistanı, Mərakeş, Yəmən və İraqda İslam maliyyəsinə üstünlük verən kiçik və orta sahibkarların (KOS) timsalında təhlil olunur. Konkret rəqəmlərlə təsvir edilən dinamika əsasında İslam maliyyə xidmətlərinin qlobal perspektivləri izah edilir.

“Azərbaycanın bank sisteminə baxış və islam maliyyə sisteminin perspektivləri” adlı beşinci fəsildə isə Azərbaycanın bank sistemi zəngin statistik məlumatlar əsasında təhlil olunur və bu sistemin perspektivləri göstərilir. Bu fəsildə İslam bankçılığı ilə Mərkəzi Bankın funksiyaları araşdırılır, İslam bankçılığının tətbiqi imkanları izah edilir.

Ümumilikdə, kitabda verilmiş zəngin informasiyalar, İslam maliyyəsinin mövcud vəziyyəti və perspektivləri istiqamətində aparılan geniş əhatəli təhlillər praktiki və nəzəri cəhətdən əhəmiyyətli hesab olunur. İslam maliyyə sisteminin fundamental əsaslarını öyrədən dərs vəsaiti ali təhsil müəssisələrində əhəmiyyətli tədris vasitəsi olmaqla yanaşı, həm də bu sahədə araşdırma aparan tədqiqatçılar, habelə müvafiq qərarların qəbulu üçün zəngin və dəyərli bir mənbə rolunda çıxış edir.

***Ceyhun MƏMMƏDOV,***
***Milli Məclisin deputatı***

# Səsimiz taleyimizdir – hamılıqla səs verək!

## Xankəndi seçki bayramı ərəfəsində

**2024- cü il fevralın 7-ə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə Xankəndidə geniş hazırlıq işləri gedir. Bu nə röyadır, nə də xəyal, əsl reallıqdır. Seçicilər böyük səbirsizliklə həmin günü gözləyirlər. 122 saylı Xankəndi seçki dairəsinin 14-cü seçki məntəqəsi Xankəndi şəhərinin mərkəzində yerləşir. Özü də keçmiş mərkəzi inzibati binada. Yəni, separatçı rejimin “rəhbərlərinin” yuva saldıqları parlament binasında. İndi həmin binanın üzərində və qarşısında Azərbaycan Bayrağı dalğalanır. Binanın içərisində isə 14 saylı seçki məntəqəsi yerləşir. Fevralın 7-də Azərbaycan vətəndaşları həmin seçki məntəqəsinə gedərək ölkəmizin növbəti Prezidentini seçəcəklər. Bu seçkilərdən sonra dünya birliyi bir daha şahid olacaq ki, Qarabağ Azərbaycandır.**




122 saylı Xankəndi seki dairəsi dairə seçki komissiyasınn sədri Mədinə Abbasova ilə söhbətimizi bu mövzuda davam etdirdik. Mədinə xanımla söhbət zamanı məlum olur ki, onun seçki prosesində biliyi və təcrubəsi böyükdür. Deyir ki, Xankəndidə seçkilərə elə hazırlaşmışıq ki, həm Ermənistan, həm də onun havadarları, eləcə də islamofob, Azərbaycanofob və türkəfob qüvvələr yana-yana qalsınlar. Sanki Xankəndidə el şənliyi, toy-bayram olacaq. Bu, əsl bayram seçkisi olacaq.

Əslən qarabağlı olan M.Abbasovanın atası Birinci Qarabağ müharibəsinin qazisidir. Deyir ki, atasının ən böyük arzusu işğal altında olan ərazilərimizin



düşməndən azad edilməsi idi:

– Mən Xankəndi seçki məntqəsinə gedərkən separatçı rejimin başçısı Arayik Arutyunyanın oturduğu kabinetə getdim və həmin otağın pəncərəsini acaraq atamla görüntülü danşdım. Danışdıqca, binanın həyətindəki və digər yerlərdən asılmış Azərbaycan Bayrağını göstərdim. Dedim ki, ata, bax, mən Xankəndidəyəm. Özü də Arayikin keçmiş kabinetindən görüntülü danşıram. Görürsən ki, şəhidlərimizin qanı yerdə, sənin kimi sağlamlğını itirmiş minlərlə qazimizin torpaq həsrəti gözünüzdə, ürəyinizdə qalmadı. Təsəvvür etdim ki, atamın ağrı-acısı həmin anda yaddan çıxdı. Dedi ki, qızım, bu vaxta qədər mənə bu cür qiymətli hədiyyə verən olmamışdı. İndi mən özümü dünyanın ən xoşbəxt, ən sağlam insanı hesab edirəm.

Özüm Xankəndiyə gedə bilməsəm də, doğma qızımın səsini oradan eşidirəm. Dedim, darıxma ata, inşallah, bu gün-sabah gələrsən. Sənin də səsin Xankəndidən gələr. Artq Xankəndi düşməndən azad edilib. Bu yerdə dövlət başçımızın Xankəndidə Azərbaycan Bayrağını qaldırdığı səhnə gözlərim önündə canlandı. Atam sevincindən hönkür-hönkür ağlamışdı. Ömrümdə atamı bu qədər, sevincli, şad-xürrəm bu qədər qürurlu görməmişdim. Dedi ki, İlahi, ölmədim, bu günü də gördüm. Həmin gün ailəmizdə sevinc-sevincə, şadlıq-şadlığa qarışmışdı. Atam hər gün Şuşaya, Xankəndiyə getməyə hazırlaşırdı. Səbirli ol, ata. İnşallah seçkilərdən sonra arzuna çatarsan.

M.Abbasova seçkilərə hazırlıqdan da danışdı. Dedi ki, artıq Xankəndidəki 14 saylı seçki məntəqəsi seçicilərin yolunu gözləyir.

**Söhbətimizi Xankəndi seçki məntəqəsinin sədri İmran Mirzəyevlə davam etdirdik. O dedi:**

– Biz Xankəndini tərk edəndə mənim 19 yaşım var idi. Otuz ildən sonra yenidən doğma el-obamda, isti ocağımızdayam. Seçki komissiyası formalaşan gündən buradayam. Seçki məntəqəsi çox səliqəlidir. Seçkilərin demokratik, azad keçirilməsi üçün bütün imkanlardan istifadə olunub. Yaxşı bilirik ki, hazırda dünya ictimaiyyətinin nəzər-diqqəti Xankəndiyə, Şuşaya yönəlib. Seçkilərin şəffaf keçirilməsi üçün komissiyamızın üzvləri üçün təşkil olunan treninqlərdə fəal iştirak etmişik.

Seçki ilə bağlı bilik və vərdişlərimizin daha da təkmilləşdirilməsində maarifləndirici proqramların, xüsusilə treninqlərin rolu böyükdür. MSK seçki məntəqəsini lazım olan bütün ləvazimatlarla təmin edib. Barmaqların gözlə görünməyən mürəkkəb balonlarından tutmuş bənövşəyi lampalar, daşınan və daşınmaz seçki qutuları, metodiki vəsaitlər, yaddaş kitabçaları, əyani vəsaitlər və digər zəruri ləvazimatlara qədər hamısı seçki məntəqəsinə vaxtında çatdırılıb. Seşki məntəqəsinin yaxınlığında quraşdırılmış dəmir lövhədə prezidentliyə namizədlərin təşviqat aparmaları üçün bərabər səviyyədə yer ayrılıb. Biz demokratik, azad və şəffaf seçki keçirməklə Ermənistan və onun havadarlarına gözdağı verəcəyik.

**Hüseyn Əhmədov, seçki məntəqəsinin katibi:**

– Mən Bakıda anadan olmuşam. Atam-anam, babam-nənəm isə Xankəndidəndir. Xankəndidə seçki məntəqəsi yaradılandan buradayam. Artıq buralara elə öyrəşmişəm ki, Bakya qayıtmaq istəmirəm. Valideynlərim doğma yurdlarına dönən kimi, mən də onlarla qayıdacağam. Seçkiyə hazırlığa gəlincə, bütün işlər başa çatıb. Biz seçki bayramına hazırlaşırıq. Seçici siyahıları məntəqənin münasib yerindən asılıb.

Xankəndinin bütün ərazisini seçkiyə çağırış plakatları bəzəyir.Artıq səsvermə bülletenləri də seçki məntəqəsindədir. Hər tərəfdə Azərbaycan Bayrağı dalğalanır. Hər birmiz üçün qürurverici, iftixarlı bir mənzərə yaranıb. Bu mənzərəni, beynəlxalq müşahidəçilər də görüblər. Halbuki, 2020-ci ilə qədər Xankəndidə keçirilən saxta, qondarma seçkilərdə bir nəfər də olsun beynəlxalq müşahidəçi iştirak etməmişdi. Axı biz qalibik, düşmənin başını əzmişik və növbədənkənar prezident seçkilərinə qalib ölkənin vətəndaşları kimi gedirik.

## Şuşada 1189 seçiciyə bildiriş vərəqəsi çatdırılıb

**Azərbaycanın Ermənistan üzərindəki tarixi Qələbəsindən sonra Şuşa şəhəri yerli və nüfuzlu beynəlxalq qurumların tədbirlərinin, eləcə də müsiqi festivallarının, kitab sərgilərinin keçirildiyi məkana çevrilib. Fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkiləri ilə əlaqədar Şuşa şəhərində məntəqə seçki komissiyasının yaradılması əlamətdar və yaddaqalan hadisələrdən biridir. 124 saylı Şuşa–Ağdam–Xocalı–Xocavənd seçki dairəsi dairə seçki komissiyasının işğaldan azad edilən Şuşa şəhərində yeni yaradılan 105 saylı seçki məntəqəsinin sədri Səbinə Gözəlova deyib ki, Şuşa növbədənkənar prezident seçkilərinə tam hazırdır.**




Komissiya sədrinin sözlərinə görə, seçki məntəqəsi Şuşada yeni inşa edilmiş 1 nömrəli tam orta məktəbin binasında yerləşir. Binada müasir infrastruktur mövcuddur, məntəqə lazımi texniki vasitə və metodik, o cümlədən, əyani vəsaitlərlə, fasiləsiz rabitə və elektrik enerjisi, istiliklə, generatorla təchiz olunub. Vətəndaşların seçimlərini sərbəst şəkildə etmələri üçün məntəqədə səsvermə kabinələri quraşdırılıb. Eyni zamanda, şəffaf seçki qutuları, gözlə görünməyən mürəkkəb, ultrabənövşəyi lampalar vaxtında gətirilib. Seçkilərdə 1189 nəfər seçicinin səs verməsi nəzərdə tutulub. Onlardan bir nəfəri ilk dəfə səsvermə hüququndan istifadə edəcək. Seçkilərin mütəşəkkil keçirilməsi üçün Şuşanın, demək olar ki, hər küçəsinə seçkiyə çağırış plakatları asılıb. Bir sözlə, Şuşa seçkiyə çağırış plakatlarına bürünüb.

Seçki məntəqələrində katib və üzvlər, habelə seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyənləşdirilib. Seçicilərə səsvermənin keçirilmə tarixi, vaxtı və yeri barədə bildirişlərin paylanması işi də başa çatıb. Komissiya üzvləri MSK tərəfindən təşkil olunmuş maarifləndirici proqramlar çərçivəsində keçirilən treninqlərdə iştirak ediblər. Bu da seçki zamanı yarana biləcək hər hansı problemin aradan qaldırılmasında mühüm rol oynayacaq.

S.Gözəlova deyib ki, əhali prezident seçkilərinə böyük maraq göstərir. Bu, həm də 30 ildən sonra ilk dəfə keçirilən seçkilərdir. Şuşada yaşayanlar və işləyənlər arasında xüsusi fəallıq var. Biz dünyaya sübut edəcəyik ki, Azərbaycan demokratik seçki kecirməyə qadir ölkədir.

## Füzuli – azad şəhər zəfər epopeyasına səs verəcək

**“Böyük Qayıdış” proqramına uyğun olaraq Füzuli rayonuna köç davam edir. Keçmiş məcburi köçkün soydaşlarımız döğma el-obalarına böyük coşqu və sevinclə qayıdırlar. Döğma ata-baba yurdlarında məskunlaşanların ilk bir neçə gündən sonra keçiriləcək növbədənkənar prezident seçkiləri kimi siyasi əhəmiyyətli bir tarixi hadisədə iştirakları onlar üçün ən qiymətli hədiyyə olacaq. Həm hər cür infrastruktura malik mənzillər, həm də seçki bayramı. Fizulililər həmin günü böyük səbirsizliklə gözləyirlər..**

Füzuli şəhərində 527 ailə olmaqla, 1969 nəfərin daimi məskunlaşması artıq təmin edilib. Həmin sakinlərdən 1292 nəfəri səsvermə hüququ olan seçicilərdir. Onlar doğma yurdlarında ilk dəfə 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində səs verəcəklər. Səsvermə işğaldan azad olunan Füzuli şəhərində 3 məntəqədə baş tutacaq. Ümumilikdə, 84 saylı Füzuli Seçki Dairəsi üzrə 54 min 457 seçici qeydə alınıb. Onlardan 3619 nəfəri işğaldan azad olunan ərazilərdəki 75, 76 və 77 saylı seçki məntəqələrində səs verəcəklər.




77 saylı seçki məntəqəsində qeydə alınan 1292 nəfər seçici Füzuli şəhərinə qayıdan keçmiş məcburi köçkünlərdir. 75 saylı seçki məntəqəsində səs verəcək 1351 nəfər, 76 saylı seçki məntəqəsində isə 976 nəfər işğaldan azad olunan ərazilərdə çalışanlardır.

Dairə üzrə seçki prosesini izləyəcək 1020 müşahidəçi qeydə alınıb. Müşahidəçilərdən 24 nəfəri işğaldan azad olunan seçki məntəqələrində iştirak edəcəklər. Onların seçki prosesini rahat müşahidə etmələri üçün hər cür şərait yaradılıb.

## Şərqi Zəngəzur köçkünləri seçkilərə öyünclə gedirlər

**Növbədənkənar prezident seçkilərinin yaddaqalan cəhətlərindən biri də səsvermənin Azərbaycanın bütün ərazilərində keçirilməsidir. Bu, son 30 ilin ən əlamətdar hadisələrindəndir. İndi ölkəmizin hər yerində, o cümlədən, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Bayrağı dalğalanır.**




“Biz prezident seçkilərinə alnıaçıq, üzüağ gedirik. Fəxr edir, qürur duyuruq ki, ölkəmizin gələcək prezidentini öz dədə-baba yurdumuzda seçəcəyik. Seçkilərə başımzı dik tutaraq gedirik. Çünki biz isti ocaqlarımızda, dədə-baba evimizdə, eşiyimizdəyik”.



Bu sözləri 30 ildən sonra el-obalarına qayıtmış keçmiş məcburi köçkünlərdən eşitmək hər birimizin qəlbini dağa döndərir, gələcəyə olan inamımızı daha da artırır. 120 saylı Cəbrayıl–Qubadlı Seçki Dairəsinin baş məsləhətçisi Ömər Kəlbalıyev bu sözləri deyəndə sevincini gizlədə bilmirdi. Dedi ki, bu seçkilərdə Cəbrayıl–Qubadlı dairəsi üzrə 54 min 554 seçicinin səs verməsi nəzərdə tutulub. Artıq onların hər birinə bildirişlər verilib. Əslində, bildirişi alan seçicilər seçki haqqında tam məlumatlıdırlar. Deyirlər ki, artıq beynəlxalq aləmin də bu seçkilərdən məlumatı var. Elə olmasaydı, yersiz bəhanələrlə ölkəmizə qarşı təhdid və təzyiq vasitələrindən istifadə etməzdilər. Ancaq unutmasınlar ki, onların bu əsassız təzyiqləri Azərbaycanı, xalqımızı mövqeyindən döndərə bilməyəcək. Biz seçkini mütəşəkkil surətdə keçirəcəyik.

Ö.Kəlbalıyev dedi ki, Ermənistanı havadarları ilə bərabər cəmi 44 günə diz çökdürən, separatçı rejimin otuz il ərzində qurduğu yuvanı bir gün ərzində darmadağın edən, işğaldan azad edilmiş ərazilərdə qısa müddətdə xarüqələr yaradan, keçmiş məcburi köçkünlər uçun ata-baba yurdlarında hər cür şəraiti olan kənd, qəsəbə, şəhər salan, soydaşlarımızın təhlükəsizliyini təmin edən, onları öz evlərinə qaytaran dövlətimiz təzyiq və təhdidlərdən qorxub çəkinən deyil. Dairənin ərazisindəki 81 seçki məntəqəsində, onlardan 3-ü Qubadlı rayonu ərazisində yaradılıb, seçkiyə hazırlıq işləri başa çatıb. Hətta həmin ərazilərdə keçiriləcək seçki prosesini izləmək üçün 1048 müşahidəçi də qeydiyyatdan keçib. Beynəlxalq müşahidəçilər də işğaldan azad edilmiş ərazilərdə keçirilən seçkiləri izləməkdə maraqlıdırlar. Bu günlərdə ATƏT-in müşahidəçiləri də dairədə və seçki məntəqələrində olublar.

DSK nümayəndəsi aşağı seçki komissiyaları üzvlərinin MSK tərəfindən təşkil edilmiş maarifləndirici proqramlar çərçivəsində keçirilən tədbirlərdə iştirak edərək seçkiyə aid məsələlərlə yaxından tanış olduqlarını, bilik və vərdişlərini daha da təkmilləşdirdiklərini bildirib. Ən başlıcası odur ki, keçmiş məcburi köçkünlər doğma yurdlarında səs verəcəklər.

Prezident seçkilərində, ümumilikdə, səs verəcək 54 min 554 seçicidən 3 min 236 nəfəri Qubadlı rayonunun payına düşür. Onların seçkidə iştirakları–konstitusion hüquqlarının təmin olunması üçün bütün vasitələrdən istifadə olunub. İşğaldan azad edilmiş ərazilərimizin sakinləri prezident seçkiləri kimi məsul və zəruri siyasi kampaniyada alnıaçıq, üzüağ iştirak etməkdən qürur duyduqlarını bildirirlər.

## Hadrutda səsvermə suverenliyin təntənəsi olacaq

**“124 saylı Şuşa–Ağdam–Xocalı–Xocavənd seçki dairəsinin 108 saylı seçki məntəqəsi rayonun Hadrut qəsəbəsində yerləşir. Budəfəki seçki prosesində həm məntəqə sədri kimi, həm də doğma yurdumda səsverən biri kimi bu tarixi hadisənin şahidi olduğum üçün qürurluyam”. Bu fikirləri 124 saylı Şuşa–Ağdam–Xocalı–Xocavənd seçki dairəsinin 108 saylı seçki məntəqəsinin sədri Raqil Əlizadə bildirib.**




Məntəqə sədri deyib ki, 7 fevral – Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıq tam yekunlaşıb, seçki prosesinin şəffaf və demokratik şəraitdə keçməsi üçün lazımi şərait yaradılıb. Artıq səsvermə bülletenləri seçki məntəqəsindədir. Məntəqə lazımi texniki vasitə və metodiki vəsaitlərlə, yanğın təhlükəsizliyi, fasiləsiz rabitə və elektrik enerjisi ilə təchiz olunub. Barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi üçün lazım olan ləvazimatlar da seçki məntəqəsinə vaxtında çatdırılıb. Barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi bir seçkinin təkrar səsvermənin qarşısının alınması üçün ən yaxşı vasitədir.

Vətəndaşların sərbəst şəkildə səsvermələri üçün kabinələr quraşdırılıb. Məntəqə sədri, katibi və üzvləri Hadrutda ilk dəfə keçiriləcək prezident seçkilərinin qanunvericiliyə uyğun keçirilməsi fasiləsiz fəaliyyət göstərirlər. Biz MSK tərəfindən təşkil olunmuş treninqlərdə iştirak etmişik. Bu da bizim seçki ilə bağlı bilik və bacarığımızın daha da təkmilləşdirilməsində böyük rol oynayıb. Seçki siyahıları dəqiqləşdirilib, məntəqə üzrə 526 seçici qeydiyyatdadır. Bir sözlə, tam hazır vəziyyətdə seçki gününü gözləyirik.

*Səhifəni hazırladı:*
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Azərbaycanın polad magistralı 3 beynəlxalq dəhlizin qovşağında

## 2023-cü ildə ölkəmizin dəmir yolu ilə 18 milyon tondan çox yük daşınıb



**"Azərbaycan Dəmir Yolları" (ADY) QSC-dən aldığımız məlumata əsasən, qurum 2023-cü ildə xərclərin optimallaşdırılması və əlavə gəlirlərin təmin edilməsi hesabına bu sistemin inkişafına 35 milyon manat sərmayə yatırıb. Məsələn, 16 kilometr yolda rels dəyişdirilib. Keşlə, Biləcəri stansiyalarında, Yeni Suraxanı–Suraxanı, Yeni Suraxanı–Hövsan hissələrində 22 kilometr yol əsaslı təmir olunub. Zirə limanı ilk dəfə dəmir yolu şəbəkəsinə qoşulub. Biləcəri çeşidləmə parkının yolları 1960-cı illərdən ilk dəfə bərpa edilməyə başlanıb.**

Cari ildə isə investisiya qoyuluşunun daha da artırılaraq 50 milyon manata çatdırılacağı, bu vəsaitin isə 20-dən çox layihənin icrasına cəlb ediləcəyi nəzərdə tutulub. Belə ki, 2024-cü ildə Baş Ələt dəmir yolu stansiyasının təmirinin həyata keçiriləcəyi, Yalama stansiyasının genişləndiriləcəyi, 50 kilometr uzunluğunda yolların üst quruluşunun müasirləşdiriləcəyi, Biləcəri çeşidləmə parkında aparılan təmirin tamamlanacağı planlaşdırılıb.

Qeyd edək ki, Azərbaycan dəmir yollarında istifadə olunan hərəkət tərkibi əhəmiyyətli dərəcədə yenilənib. Məsələn, "Stadler Rail Group" şirkətindən 2015–2018-ci illərdə ölkədaxili və Abşeron dairəvi dəmir yolu xətti üzrə marşrutlarda istifadə edilməsi üçün elektrik qatarları alınıb. 2019-cu ildə isə ölkəyə qatar və lokomotiv parkının yenilənməsi proqramı çərçivəsində sabit və dəyişən cərəyanla işləyən 50 ədəd lokomotiv çatdırılıb.

Xatırladaq ki, "Stadler Rail Group" istehsalı olan "FLIRT" markalı 10 ədəd dizel və elektrik qatarının alınması üçün müqavilə bağlanıb. Qatarlardan dördü 2023-cü ildə ölkəyə çatdırılıb və müvafiq sınaq prosesi bitdikdən sonra xəttə buraxılması nəzərdə tutulub. Bu il ərzində isə digər qatarların da qatar parkına əlavə edilməsi planlaşdırılıb.

Yeni qatarların alınması diqqətdə saxlanılmaqla bərabər, keçən il "Azərbaycan Dəmir Yolları"nın "Stadler Rail Group" şirkəti ilə birgə imzaladığı müqaviləyə əsasən, Regional Servis Mərkəzi yaradılıb. Mərkəzdə dəmir yollarında səmərəli istifadə olunan "Stadler" markalı bütün növ nəqliyyat vasitələrinin, habelə regionun eyni növ qatarlarının təmiri, həmçinin texniki xidmətinin həyata keçirilməsi nəzərdə tutulub.

ADY-də lokomotiv və vaqon parkını artan yükdaşıma tələbatına uyğunlaşdırmaq üçün də müəyyən işlər görülüb. Bu məqsədlə 303 yeni platforma alınıb. 2014-cü ildə Qazaxıstandan 10 ədəd yeni teplovozun gətirilməsi üçün müqavilə imzalanıb və teplovozlar hazırda qatar parkına daxil edilib. Həmin il Estoniyadan da 4 ədəd müasir elektrovoz alınaraq ölkəmizə gətirilib.

"Azərbaycan Dəmir Yolları"nın məlumatında o da vurğulanır ki, son 20 il ərzində respublikamızda dəmir yolları ilə yükdaşımaların həcmində böyük artım qeydə alınıb. Artımı davamlı etmək üçün mövcud dəmir yolu xətlərinin yenilənnəsi, eyni zamanda, yeni yollar salınması da diqqətdə saxlanılıb.

QSC-nin yaydığı məlumata görə, ölkəmiz üzərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin buraxılış gücünü artırmaq məqsədilə 2017-ci ildə Şərq–Qərb bağlantısının ən vacib seqmentlərindən olan Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolunun təntənəli açılışı gerçəkləşib. Yeni dəmir yolu xətti regional yükdaşımalarda məsafə və vaxt müddətini qısaldaraq Çin–Avropa–Çin nəqliyyat və ticarət dəhlizinə yeni nəfəs gətirib. BTQ dəmir yolu Gürcüstan seqmentinin hazırda davam edən genişləndirilməsinin bir neçə aya başa çatdırılacağı, xəttin buraxılış gücünün 1 milyon tondan 5 milyon tona qədər artırılacağı planlaşdırılıb.

Ötən illər ərzində yükdaşımalarda, xüsusilə tranzit yükdaşımalarda əhəmiyyətli dərəcədə artım müşahidə olunub. Belə ki:

**– ölkəmiz üzərindən daşınan tranzit yüklərin həcmi 80 faizə yaxın artıb;**

**– 2023-cü ildə dəmir yolları ilə 18 milyon tondan çox ümumi yük, 7 milyon tona yaxın tranzit yükü daşınıb;**

**– Şimal-Cənub dəhlizi üzrə Astara (İran) terminalının tikinti işlərinin 60 faizi uğurla tamamlanıb. Ötən il bu terminalda 700 min tona yaxın yük aşırılıb. Həmçinin Azərbaycan Astarasında yaradılan yeni terminal sayəsində Şimal-Cənub dəhlizinin inkişafına töhfə verilib.**

Beynəlxalq nəqliyyat bağlantısı olan Orta Dəhliz üzrə tranzit yüklərin həcminin artırılması və səmərəli idarə olunması məqsədilə Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmir yolları arasında Birgə Müəssisə yaradılıb. Çin mənşəli yüklərin Orta Dəhlizlə Azərbaycan üzərindən daşınması bərpa edilib. Bu məqsədlə konteyner daşımalarının blok qatar şəklinə salınması və təyinatı üzrə birbaşa göndərilməsi təmin olunub. Çindən idxal və tranzit yükü ilə yola düşən konteyner blok qatarlar Orta Dəhlizlə ortalama 8-10 gün ərzində ölkəmizə çatıb ki, bu da ənənəvi marşrutlarla çatdırılma vaxtından təxminən iki dəfə (15-18 gün) azdır.

ADY-nin qatar parkı "Stadler" markalı müasir dizel və elektrik qatarları, həmçinin "Alstom" istehsalı olan lokomotivlərlə yenilənib. İstismar müddəti bitmiş qatarların istifadəsi dayandırılıb, Abşeron dairəvi dəmir yolu xətti boyunca stansiya, vağzal və dayanacaqlar əsaslı təmir olunub. Bütün bunlar vətəndaşların rahat və təhlükəsiz nəqliyyat xidmətinə olan ehtiyacını qarşılamaqda mühüm rol oynayıb, onların dəmir yollarına inam və etibarını artırıb:

**– 2015-ci ildən etibarən Bakı–Sumqayıt–Bakı xətti üzrə sürət qatarları istifadəyə verilib;**

**– 2017-ci ildə Bakı dəmiryol vağzalı yenidənqurmadan sonra tam yeni xidmət infrastrukturu ilə sakinlərin üzünə açılıb;**

**- həmin ildə Abşeron dairəvi dəmir yolu xəttində sərnişindaşıma xidmətini bərpa etmək üçün 110 kilometr uzunluğunda Bakı–Sabunçu–Pirşağı–Sumqayıt–Xırdalan–Biləcəri–Bakı xətti inşa olunub. Xətt boyunca iki ayrı marşrut üzrə sərnişinlər, ümumilikdə, 14 məntəqəyə səyahət edə bilirlər;**

**– 2018–2020-ci illərdə Sumqayıt və Sabunçu dəmiryol vağzalları, həmçinin Zabrat-1, Məmmədli dayanacaqları, Zabrat-2 stansiyaları yenidən qurularaq sakinlərin istifadəsinə verilib. Bundan başqa, Abşeron dairəvi dəmir yolu xəttinin Pirşağı–Görədil–Novxanı–Sumqayıt hissəsinin açılışı həyata keçirilib.**

2023-cü ildə ADY tərəfindən rekord həddə – 7 milyon sərnişin daşınıb. Abşeron dairəvi marşrutuna əlavə qatarların buraxılması, Bakı–Qəbələ–Bakı marşrutunun açılması və Bakı–Gəncə–Bakı marşrutunun Ağstafayadək uzadılması, xətt üzərində Qovlar (Tovuz) və Dəllər (Şəmkir) stansiyalarına yenidən dayanacaq verilməsi sayəsində əldə edilən bu göstərici 2022-ci ilin göstəricisindən 38 faiz çox (5,1 milyon nəfər) olub.

***Vaqif BAYRAMOV***
***XQ***

---

## Gürcüstanda Ulu öndərin yubileyinə həsr edilmiş poçt markaları




**Gürcüstanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş poçt markaları dövriyyəyə buraxılıb.**

Poçt markasını onlayn qaydada Gürcüstan Poçtunun saytından, yaxud qurumun ölkə üzrə 81 məntəqəsindən əldə etmək mümkündür.

**XQ**

## 380,4 min hektar əkin sığortalanıb

### *2023-cü ildə Azərbaycanda 380 min 476 hektar əkin sahəsi sığortalanıb ki, bu da əvvəlki illə müqayisədə 43 faiz çoxdur*

**Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, ötən il bitkiçilik sahəsindən toplanmış sığorta haqlarının məbləği 13 milyon manat təşkil edərək əvvəlki ilin göstəricisini 4,2 milyon manat və yaxud 48 faiz üstələyib. Nəticədə, fondun bitkiçilik üzrə qarşıladığı sığorta təminatı yarım milyard manatı keçərək 506 milyon manata yüksəlib.**



Ötən il ölkədə buğda, arpa, pambıq və qarğıdalı əkilmiş sahələr daha çox sığortalanıb. Ümumilikdə isə, əkin sahələrinin sığortası üzrə sığorta müqavilələrinin sayı 47 minə yaxınlaşıb ki, bu da əvvəlki illə müqayisədə 4 min müqavilə artıqdır.

2023-cü ildə aqrar sığorta mexanizmi vasitəsilə 6500 baş iribuynuzlu, 1300 baş xırdabuynuzlu olmaqla ümumilikdə, 7800 baş kənd təsərrüfatı heyvanı sığorta edilib. Bunun da nəticəsində 3,9 milyon manat sığorta haqqı toplanıb. İl ərzində heyvanların sığortası üzrə sığorta təminatının məbləği isə 36 milyon manat təşkil edib.

Xatırladaq ki, aqrar sığorta vasitəsilə əkin sahələri, kənd təsərrüfatı heyvanları və balıqçılıq təsərrüfatları sığorta edilir. Bitkiçilik sığortasına taxıl və tarla bitkiləri, meyvə bağları, texniki bitkilər, tərəvəz və bostan bitkiləri, heyvanların sığortasına isə iri və xırda buynuzlu heyvanlar – inək, camış, qoyun və keçi təsərrüfatları daxildir.

## Aqrosənaye ixracı artıb

**Ötən il Azərbaycandan ayrı-ayrı xarici ölkələrə 1 milyard 135 milyon dollar məbləğində aqrar və aqrar-sənaye məhsulları ixrac edilib. Bu barədə İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin icraçı direktoru Yusif Abdullayev məlumat verib.**



Onun sözlərinə görə, ümumi aqrar ixracının 878 milyon dolları emal edilməmiş kənd təsərrüfatı məhsullarının payına düşüb. İl ərzində ölkədən 127,2 milyon dollarlıq xurma, 119,6 milyon dollarlıq təmizlənmiş fındıq, 57,2 milyon dollarlıq alma, 51,5 milyon dollarlıq şaftalı və nektarin, 44,6 milyon dollarlıq albalı və gilas, 30,6 milyon dollarlıq nar ixrac olunub. Əvvəlki illə müqayisədə xurma, təmizlənmiş fındıq, alma, şaftalı və nektarin, albalı və gilas ixraçında artım qeydə alınıb, nar ixracı isə bir qədər azalıb.

Bununla yanaşı, ötən il ölkədən 257 milyon dollar məbləğində emal olunmuş kənd təsərrüfatı məhsulları ixrac edilib.

# "KOB evləri" – özəl bölmənin arxa-dayağı

## "Bakı evi"ndə bu ilin ilk kredit aksiyası keçirilib

**Ölkə iqtisadiyyatının dinamik inkişafında mühüm rol oynayan özəl sektora dövlət dəstəyi getdikcə gücləndirilir, sahibkarlığın inkişafı üçün əlverişli biznes və investisiya mühiti formalaşdırılır. Bunun nəticəsidir ki, son illər iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilmiş özəl sektorun ümumi daxili məhsul istehsalında payı ildən-ilə artır. İndi ölkənin qeyri-neft sektorunu əhatə edən layihələrin əksəriyyəti məhz sahibkarların, xüsusən də kiçik və orta biznes subyektlərinin səyləri və onların vəsaitləri hesabına reallaşdırılır.**



Son illər Azərbaycan dövləti kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi məqsədilə bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirir. Bu baxımdan ölkədə yaradılmış kiçik və orta biznes (KOB) evləri vasitəsilə sahibkarlara göstərilən xidmətlər diqqət çəkir. Məlumat üçün bildiririk ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) struktur bölməsi olan KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin təqdim olunduğu vahid məkandır.

Bu yaxınlarda "Bakı KOB evi"ndə 2024-cü ilin ilk investisiya təşviqi sənədləri təqdim edilib. 3 sahibkara verilmiş sənədlər "VVE GROVV" MMC-nin "Meyvə şirəsinin hazırlanması və qablaşdırılması", "Promalt" MMC-nin "Yeni texnologiyanın tətbiqi ilə arpa səmənisi (malt) istehsalı zavodunun tikintisi və yüksək keyfiyyətli arpa səmənisi xammalının istehsalı" və "Fruit Aqro" QSC-nin "Müxtəlif meyvələrin emalının təşkili" layihələrini əhatə edib.

İnvestisiya təşviqi sənədi almış layihələr qida məhsullarının istehsalı sahəsində olmaqla, Qusar, İmişli və Samux rayonlarında həyata keçiriləcək. Həmin layihələrin reallaşması nəticəsində yerli istehsala təqribən 20,3 milyon manat investisiya yatırılacağı, 60-dan çox yeni iş yerinin açılacağı nəzərdə tutulur.

Qeyd edək ki, investisiya təşviqi sənədi hüquqi şəxslərə və fərdi sahibkarlara Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. İnvestisiya təşviqi sənədini almış sahibkarlar 7 il müdətində mənfəət və gəlirin 50 faizinin vergisindən, əmlak və torpaq vergisindən, həmçinin idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğuların idxalı üçün ƏDV-dən və gömrük rüsumundan azad edilir. Bütövlükdə isə, ötən müddətdə ölkəmizdə sahibkarların 588 layihəsinə investisiya təşviqi sənədi verilib. Bu mexanizm sahibkarlara investisiya layihələrinə daha çox vəsait yönəltməyə, istehsalın və rəqabətqabiliyyətli məhsul ixracının genişləndirilməsinə əlavə imkan yaradır.

Yeri gəlmişkən, 6 il əvvəl İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətə başlaması bu sahədə böyük işdə canlanmaya səbəb olub. 2018-ci ildə nizamnaməsinin və struktutunun təsdiq olunması ilə fəaliyyətə başlamış agentlik ölkədə kiçik və orta biznesin inkişafını dəstəkləyən, KOB subyektlərinə bir sıra xidmətlər göstərən, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirən publik hüquqi şəxsdir. KOBİA-nın məqsədi Azərbaycanda davamlı iqtisadi inkişafın təmin edilməsi üçün kiçik və orta biznesin iqtisadi inkişafda rolunun, ÜDM-də və məşğulluqda payının artırılması, rəqabət qabiliyyətinin gücləndirilməsidir.

KOBİA-nın qarşısında kiçik və orta biznes subyektlərinin ölkə iqtisadiyyatında rolunu möhkəmləndirmək, maliyyə resurslarına çıxış imkanlarını genişləndirmək, dövlət və özəl qurumların bu sahədə fəaliyyətini əlaqələndirmək, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaratmaq, bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsinə nail olmaq kimi prioritet vəzifələr durur. Bu vəzifələrin uğurla reallaşdırılması üçün ölkə ərazisində kiçik və orta biznes (KOB) evləri yaradılır. Burada xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik və rahatlıq prinsipləri əsasında həyata keçirilir. Biznes xidmətlərinin bir məkanda toplanması, vaxta və xərclərə qənaət, operativlik KOB evlərinin əsas üstünlükləridir.

Xatırladaq ki, ölkə üzrə sayca 3-cü olan "Bakı KOB evi"ndə dövlət və özəl qurumlar tərəfindən biznes subyektlərinə sahibkarlıq fəaliyyəti üçün zəruri olan xidmətlər göstərilir. Ümumilikdə, burada sahibkarlara 29 dövlət qurumu tərəfindən 150-dən çox, 20 özəl qurum tərəfindən isə 100-dən çox adda xidmət təqdim olunur. Həmin xidmətlərə biznesin qeydiyyatı, lisenziya və icazələrin alınması, biznes planın hazırlanması, güzəştli maliyyə vəsaitlərinə çıxış, vergi, gömrük, reklam, qida təhlükəsizliyi, kommunal xidmətlərə qoşulma, notariat və digər məsələlər daxildir. Bundan əlavə, kiçik və orta biznes subyektləri burada yaradılmış Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasında Dövlət Gömrük Komitəsi, eləcə də gömrüklə əlaqəli xidmətlər təqdim edən gömrük təmsilçiləri, logistika şirkətləri və digər idxal-ixrac əməliyyatları ilə bağlı geniş spektrli xidmətlər göstərilir. təqdim olunur. Bütövlükdə isə, ümumi sahəsi 11 min kvadratmetrdən çox olan və 3 mərtəbədən ibarət "Bakı KOB evi"ndə sahibkarlara lazımi xidmətlər göstərən bir sıra dövlət qurumları ilə yanaşı, onların maliyyə əlçatanlığının təmin olunması məqsədilə 5 bankın, lizinq və sığorta şirkətlərinin fəaliyyət masaları da mövcuddur.

Hazırda KOB evləri Bakı, Xaçmaz və Yevlax şəhərlərində fəaliyyət göstərir. Bu yaxınlarda isə daha bir KOB evinin Gəncə şəhərində fəaliyyətə başlaması nəzərdə tutulur. 70 xidmət masasının quraşdırılacağı yeni KOB evində Gəncə–Daşkəsən iqtisadi rayonundan olan sahibkarlıq subyektlərinə bir çox qurumlar tərəfindən 150-yə yaxın dövlət-biznes xidmətləri, bank, sığorta, lizinq, broker kimi özəl təşkilatlar tərəfindən isə 100-dək zəruri biznes xidmətləri göstəriləcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Naxçıvan Muxtar Respublikası – 100**

# Türkiyənin Naxçıvanda xilaskarlıq missiyası

**(əvvəli XQ-nin 2 fevral 2024-cü il tarixli sayında)**

## I. Qədim diyar daşnak quldurların hədəfində

Naxçıvanda Milli Şura sədri Cəfərqulu xan, onun oğlu Kəlbəli xan, Rəhim xan, Kamran xan, Cabbarağa Vəzirov və başqalarının səyləri ilə yerli inzibati komitə bərpa olundu. Bölgənin erməni işğalından qorunması üçün tədbirlər görüldü.

Bu vaxtlar gənc Azərbaycan Cümhuriyyəti hökuməti hələ Azərbaycanın bütün ərazilərinə hakim deyildi. Bakı və şəhərətrafı birbaşa Rusiya hökumətinin başçısı V.Leninə tabe olan bolşevik rus, erməni komissarlarından ibarət üzdəniraq "Bakı kommunası"nın əlində idi. Bu hərbi-siyasi diktaturanın ruslardan və ermənilərdən ibarət silahlı qüvvələri, eləcə də ayrı-ayrı erməni silahlı birləşmələri Azərbaycan Cümhuriyyətini beşiyindəcə boğmaq üçün birləşərək Gəncəyə hücumlara başladılar.

Həm daşnaklara, həm də bolşevik istiqlalçılarına qarşı mübarizə aparan Azərbaycan hökuməti Naxçıvanın, Zəngəzurun müdafiəsində ciddi çətinliklərlə qarşılaşmışdı. Bakıdan Naxçıvana gələn dəmiryolu İrəvandan keçirdi. Şose yollarının keçdiyi Zəngəzur bölgəsinə erməni silahlı quldur dəstələri tez-tez basqınlar edir, əhaliyə divan tuturdular. Buna görə də Azərbaycan hökuməti ilə lazımi əlaqə yox idi. Naxçıvan həm özünü idarə etməkdə, həm də ərazi bütövlüyünü, xalqın təhlükəsizliyini təmin etməkdə ağır məsuliyyət yükünü özü çəkməli olmuşdu. Belə çətin vəziyyətdə özünü Azərbaycanın ayrılmaz hissəsi sayan Naxçıvan Türkiyənin qardaşlıq yardımına arxalanaraq azərbaycançı siyasət yeridir, təpədən-dırnağa qədər silahlanmış erməni quldurlarına qarşı mətanətlə mübarizə aparırdı.

Lakin yaranmış şərait elə idi ki, Naxçıvan bölgəsi erməni daşnaklarının hücumlarına təkbaşına davam gətirə bilməzdi. Türkiyədə işğalçılıq planları boşa çıxan, türk qoşunları tərəfindən əhalisinin əksəriyyətini Azərbaycan türklərinin təşkil etdiyi İrəvana sıxışdırılan daşnak-erməni qüvvələri buradan Şərur–Kəngərli torpaqlarına həmlələr edir, nəzarətlərindəki ərazini genişləndirməyə can atırdılar.

Birinci Dünya müharibəsi davam edirdi. Bitərəf İranın ərazisi müharibə edən ittifaqların döyüş meydanına çevrilmişdi. İngiltərə, Rusiya və Osmanlı Türkiyəsi burada savaş halında idilər. Cənubi Azərbaycanın bir qismi Rusiyanın, digər qismi Türkiyənin hərbi nəzarətində idi. 1 avqust 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin Naxçıvan bölgəsi, həmçinin Cənubi Azərbaycanın Təbriz bölgəsi K.Qarabəkir paşanın 1-ci Qafqaz kolordusunun təsir dairəsində idi. Avqustun 7-də K.Qarabəkir paşa qərargahını Təbrizdən Naxçıvana köçürdü. Qafan tərəfdən Naxçıvana hücuma hazırlaşan erməni quldurlarının qarşısı kəsildi.

1 avqust 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin Naxçıvan bölgəsi, həmçinin Cənubi Azərbaycanın Təbriz bölgəsi K.Qarabəkir paşanın 1-ci Qafqaz kolordusunun təsir dairəsində idi. Avqustun 7-də K.Qarabəkir paşa qərargahını Təbrizdən Naxçıvana köçürdü. Qafan tərəfdən Naxçıvana hücuma hazırlaşan erməni quldurlarının qabağı alınmış oldu. Bir qədər sonra Təbrizi tutmağa can atan ingilis qoşunlarını qabaqlamaq üçün K.Qarabəkir paşa avqustun 16-da II tüməni Təbrizə göndərdi. Özü isə sentyabrın 2-də qərargahı ilə Təbrizə getdi. Sentyabrın 5-də döyüşə girən türk qoşunları ingilisləri qəti məğlubiyyətə uğradıb Kaplankuh dağınadək təqib etdilər, hətta onların iki təyyarəsini vurub saldılar.

Sentyabrın 15-də Türkiyə və Azərbaycan silahlı qüvvələrindən təşkil olunmuş Qafqaz İslam Ordusu Nuru paşanın komandanlığında Bakını rus və erməni qəsbkarlarından azad etdi. AXC hökuməti Gəncədən Bakıya köçdü. Bu xəbər Naxçıvanda böyük sevinclə qarşılandı.

Oktyabrın 22-də K.Qarabəkir paşa Cənubi Azərbaycanı tərk edərək Naxçıvana yola düşdü. Oktyabrın 25-də Culfaya, sonra isə Naxçıvana gəldi. Lakin cəmi 6 gün sonra oktyabrın 31-də K.Qarabəkir paşa əmr aldı ki, I kolordu qərargahı ləğv edilir, özü də İstanbula çağırılır. Bu onunla əlaqədar idi ki, 30 oktyabr 1918-ci ildə I Dünya müharibəsində vuruşan dövlətlər Mudros müqaviləsi bağlamışdılar və məğlub tərəf kimi Türkiyə bir çox sərt tələblər altına salınmışdı. Türk qoşunları Qafqazı tərk etməli, müharibədən əvvəlki sərhədlərə çəkilməli və bir sıra ağır əzici tələblərə əməl etməli idi.

Nuru paşa Bakıdan və Azərbaycanın digər bölgələrindən qoşunları çıxardığı kimi, K.Qarabəkir paşa da 1918-ci il noyabrın 1-də qərargahı ilə Naxçıvandan qatarla Qarsa yola düşməli oldu. Mudros şərtlərini eşidən K.Qarabəkir paşa çox pərişan olmuş və demişdi: "40 illik əsarətdən 6 ay öncə qurtulan və erməni məzalimindən ağır yaralar alan... türk-müsəlman əhalisinin yaşadığı bu bölgələr, biz 1914-cü ilin hüduduna çəkilincə yenidən erməni-gürcü zülmünə məruz qalacaqdır. Buna çarələr düşünüb, tədbirlər görməliyik".

Bu dövrdə türk qoşunlarının tərk etdiyi digər bölgələr kimi, Naxçıvan ərazisində də erməni işğalından qorunmaq məqsədilə bir məhəlli hökumət yaradılması zəruri olmuşdu. 3 noyabr 1918-ci ildə Naxçıvandan, İrəvan ətrafından, Şərur Eçmiəzdin və Sürməlidən (İqdır) gələn nümayəndələr Qəmərlidə keçirilən təsis yığıncağında mərkəzi İqdır olan Araz–Türk hökuməti təşkil etdilər. Naxçıvan rəsmən hökumət mərkəzi olmasa da, idarəçilik və müdafiə işlərinin əksəriyyəti məhz burada yerləşmişdi. 1918-ci il noyabrın 7-də K.Qarabəkir paşanın Naxçıvanın köməyinə göndərdiyi əsgərlər Şaxtaxtı kəndini və dəmir yolu stansiyasını erməni silahlı qüvvələrindən təmizlədilər, 4 top və digər hərbi qənimətlərlə yanaşı, 170 silahlı əsir götürüldü.

1918-ci il ilin dekabrında türk əsgərləri Zəngibasar və qismən də Vedibasar ərazilərini azad edib Şərura daxil oldular. Kəlbəli xanın 400 nəfərlik süvarisi də köməyə gəldi və birlikdə polkovnik Doluxanovun qoşununa ağır zərbə endirildi, ermənilər Arazdəyən stansiyasınadək qovuldular.

Bölgədə yaranmış belə mürəkkəb şəraitdə Araz–Türk Respublikası rəhbərliyi ingilislər tərəfindən sıxışdırılaraq get-gedə işlərdən kənar edilirdi. Araz-Türk Respublikasının nümayəndəsi P.Bayrambəyov AXC Parlamentinin iclaslarında iştirak edir, vəziyyətlə əlaqədar Parlamenti məlumatlandırırdı.

Naxçıvanı faktiki olaraq Cəfərqulu xan idarə edirdi, Kəlbəli xan bölgə silahlı qüvvələrinin komandanı idi. Bölgənin müdafiəsində türklərin burada qoyub getdiyi 300 əsgər və 5 zabit yaxından iştirak edirdilər.

Naxçıvanda keçmiş xan nəslinə məxsus şəxslər İrana meyl edir, AXC-lə əlaqələrin möhkəmləndirilməsinə xüsusi səy göstərmirdilər. AXC hökumətinin göndərdiyi nümayəndələr burada Cəfərqulu xan, Kalbalı xan və Araz–Türk hökuməti rəhbərliyi arasındakı ixtilafı aradan götürməyə və beləliklə, ingilislərin ermənipərəst siyasətini xeyli əngəlləməyə nail oldular. Burada Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi barədə akt tərtib edildi.

1918-ci il noyabrın 30-da hərbi nazir Abdulla paşa ilə görüşəndə K.Qarabəkir paşa boşaldılan Şərq bölgəsində (Üçsancaq, Ahılkələk, Ahıska və Naxçıvan) ermənilərin və gürcülərin yerli türklərə qarşı qırğına başlayacaqları fikrini bildirərək narahatlığını ifadə etmişdi. Daim Qafqaz türklərinin taleyi ilə yaxından maraqlanan və imkanları çərçivəsində bu bölgə türklərinə köməyini əsirgəməyən K.Qarabəkir paşa 23 dekabr 1918-ci ildə Rodosda yerləşən 14-cü kolordu komandanlığına təyin olunanda təkidlə Şərq cəbhəsinə göndərilməsini xahiş etdi. Nəhayət, onun bu xahişi nəzərə alındı və o, 13 mart 1919-cu ildə Ərzurumdakı 15-ci kolordu komandanlığına təyin edildi.

K.Qarabəkir paşa xidmət yerinə yola düşməzdən əvvəl 1919-cu il aprelin 11-də artıq Müttəfiqlərin işğalı altında olan İstanbulda Mustafa Kamal paşa ilə görüşündə demişdi: "Paşam, mən sabah Ərzuruma hərəkət edirəm, İstanbulda nə vəziyyətdə qalırsınız-qalın, bir şey etmək imkansızdır... Anadoluya, ordu başına gəliniz... Millətin qurtuluş açarı şərqdədir... Şərqdə milli hökumət əsaslarını qurduqdan sonra siz qərbə təvəccöh edərsiniz".

19 may 1919-cu ildə Mustafa Kamal paşa yaxın məsləkdaşları ilə Samsuna çıxmağa müvəffəq oldu. 3 iyun 1919-cu ildə Ərzuruma gəldi. Ordudan istefasını teleqrafla İstanbula, Osmanlı dövlətinin yetkililərinə bildirib türk xalqının milli-azadlıq mübarizəsinə başçılıq etməyə başladı. Onun rəhbərliyi ilə 23 iyuldan 7 avqusta qədər türk xalqının taleyində mühüm rol oynayan böyük Ərzurum Konqresi keçirildi.

Qeyd etmək lazımdır ki, Osmanlı dövlətində baş verən yeni hadisələri izləyən Naxçıvan əhalisinin qabaqcıl nümayəndələri düşünürdülər ki, Ərzurum Konqresinə nümayəndələr göndərib bölgənin qorunması üçün dəstək istəyə bilərlər və bu məqsədlə təcili olaraq Türkiyəyə heyət göndərdilər. Naxçıvan nümayəndələri həmin konqresə gedib çata bilməsələr də, Naxçıvan əhalisinin nümayəndələrinin vəkili Hacı Cabbarın konqresdə iştirak etməklə əlaqədar Qarsdan göndərdiyi iki teleqram Konqresə yetişdi və iclasların sonunda Naxçıvan bölgəsinin erməni istilasından qorunması və bölgəyə əsgəri yardım edilməsi ayrıca müzakirə olundu.

K.Qarabəkir paşa Naxçıvan bölgəsini daim diqqət mərkəzində saxlayırdı. Hələ konqresdən əvvəl, 17-18 iyul 1919-cu il gecəsi, əvvəlcədən verdiyi əmrə uyğun olaraq, Naxçıvan bölgəsinə hücuma keçən ermənilərin qarşısını almaq üçün Bəyazit qarnizonundan yüzbaşı Xəlil bəyin başçılığı ilə dörd zabit, 7 əsgərdən ibarət bir qrupu Naxçıvandakı müdafiə qüvvələrini təşkil etmək üçün yola salmışdı. Lakin bu iş elə təşkil edilmişdi ki, zahirdə görünsün ki, guya, Xəlil bəy və yoldaşları fərarilik edərək ordudan özləri qaçmışlar.

Bu yolla Naxçıvan türklərinə silah, cəbhə ləvazimatı, təcrübəli zabitlər göndərildi ki, bu tədbirlərin də bölgənin müdafiəsində əhəmiyyətli rolu oldu. K.Qarabəkir paşa 1919-cu ildə Ərzurum Konqresinin sonunda şərqi Anadoludakı diviziya komandirinə belə bir təlimat vermişdi: "Hər tərəfdən məhzur bir haldayıq, yalnız Azərbaycana açıq Naxçıvan pəncərəsi var. Onun qapanmamasını istəyirəm".

Bölgədə yaranmış vəziyyətdən istifadə edən, o zaman bütün Qafqazı öz təsir dairəsində saxlayan ingilislər Naxçıvan bölgəsinin daşnak Ermənistanına verilməsi üçün çox canfəşanlıq edirdilər. 1919-cu ilin fevralında kapitan Lautonun missiyası Naxçıvana gəldi. (Q.Mədətov. Naxçıvanda Sovet hökumətinin qələbəsi və Naxçıvan MSSR-nin təşkili. Bakı, 1968 (rus dilində). Həmin ilin fevralında burada elan edilən ingilis general-qubernatorluğuna Naxçıvan əhalisi qətiyyən etimad etmirdi. Belə bir vəziyyətdə Qafqazdakı Britaniya komandanlığı adından general Devi 1919-cu il mayın 1-də Şərur–Ordubad daxil olmaqla bütün Naxçıvan bölgəsinin Ermənistana verildiyini bəyan etdi.

Bu xəbər xalqın qəti etirazına səbəb oldu. Buna baxmayaraq, 1919-cu il mayın 14-də general Devi və Ermənistanın baş naziri Q.Xatisov Naxçıvana gəldilər. Naxçıvanda Milli Şuranın və əhalinin qəti etirazına baxmayaraq, ingilislər daşnak Varşamyanı general-qubernator təyin etdilər. AXC-nin buradakı zabitlərini Naxçıvanı tərk etməyə məcbur etdilər. Bununla əlaqədar Naxçıvanın Milli Şura sədri AXC hökumətinə bildirdi ki, Naxçıvan əhalisi ermənilərə tabe olmur, tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun tutulmasını və Azərbaycanla birləşməyi gözləyir. 3 may 1919-cu ildə AXC-in Ermənistandakı diplomatik nümayəndəsi Ermənistan hökumətinə bəyanat verdi. AXC hökuməti bütün vasitələrlə Naxçıvanın Ermənistan tərəfindən ilhaqına mane olmağa çalışsa da, təhlükə lap yaxında idi.



1919-cu il iyunun 21-də erməni qoşunları Naxçıvan bölgəsini qismən işğal etdilər. Naxçıvanla yanaşı, Vedibasar, Şərur, Şahtaxtı, Ordubad, Zəngəzur hücumlara məruz qaldı. İngilislər ermənilərin vəhşi zorakılıqlarına göz yumurdular. Naxçıvanda əhali adından çıxış edən Hacı Həsənli demişdi: "Biz ingilis hökumətinin əmrinə razı olub daşnak respublikasını qəbul etməyəcəyik. Naxçıvan ölkəsini al qanımızla hər cür təcavüzkarlardan müdafiə edəcəyik".

Tanınmış yazıçı, publisist, ictimai xadim Əli Səbri Qasımov Zaqafqaziya Ali Komissarı Haskellə 1919-cu il sentyabrın 9-da Naxçıvan nümayəndələrinin Tiflisdə görüşündə müraciətlə demişdi: "Naxçıvan əlində silah öz istiqlalını son nəfəsinədək qoruyacaqdır. Biz Ermənistan adlı hökumət tanımırıq". Bu müraciət "Azərbaycan" qəzetinin 1919-cu il, 193-cü nömrəsində dərc edilmişdi.

**(ardı var)**

**Eynulla MƏDƏTLİ,**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini, tarix elmləri dokroru**

# "Şərq qapısı" barədə tədqiqat 7 Avropa dilində

**Nəşr tarixi XX əsrin əvvələrinə təsadüf edən, müxtəlif illərdə "Cavanlar həyatı", "Füqəra səsi", "Sovet Naxçıvanı" adları ilə fəaliyyətini davam etdirən, iki əsrin güzgüsü sayılan "Şərq qapısı" qəzeti muxtar respublikanın ictimai-siyasi həyatında önəmli yer tutmuşdur.**

Bu qəzet ümummilli lider Heydər Əliyevin hələ gənc yaşlarından dəyər verdiyi, onun təsiri ilə böyüdüyü, gələcəkdə siyasi xadim kimi yetişməsində xüsusi rol oynayan bir mətbu orqandır. Dahi öndər 1990-cı ildə Moskvadan xalqın tələbi ilə Naxçıvana qayıdışında ilk müsahibə verdiyi qəzet də, məhz "Şərq qapısı" olmuşdur.

"Şərq qapısı" qəzeti Naxçıvan Muxtar Respublikasının bir əslik yazılı salnaməsidir. Naxçıvan mətbuatının bayraqdarı olan bu ictimai-siyasi nəşr dövlətçilik ənənələrinin möhkəmlənməsində, tarixi hadisələrin ensiklopedik xarakter almasında, ictimai-siyasi proseslərin geniş ictimaiyyətə çatdırılmasında böyük təsiri ilə seçilməkdədir. "Şərq qapısı" qəzeti sözün həqiqi mənasında regionda ədəbiyyat, jurnalistika, elm məktəbi funksiyasını yerinə yetirmişdir.

Qəzetinin ilk tədiqatçısı filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid son illərdə qəzetin tarixi ilə bağlı 1 monoqrafiya, azərbaycan və ingilis dillərində 2 dərs vəsaiti nəşr etdirib. 2019-cu ildə Lambert nəşriyyat evi ilə bağlanan müqaviləyə əsasən, müəllifin nəşrə hazırladığı "Naxçıvan mətbuat tarixi" ("Şərq qapısı" qəzetinin materialları əsasında) kitabı Almaniyada işıq üzü görmüş və dünyanın tanınmış kitab satışı mərkəzlərində yayımı və satışı təşkil edilmişdir.

Qərb ölkələrində bu tədqiqata olan maraq nəzərə alınaraq Avropa nəşriyyatları ilə bağlanmış müqaviləyə əsasən, kitab 7 dilə – alman, fransız, italyan, rus, portuqal, ispan, ingilis dillərinə tərcümə edilərək dünyanın bir çox kitab yayımı portallarında yayıma və satışa çıxarılmışdır. Hər biri beynəlxalq ISBN kodu ilə təmin edilən bu nəşrləri dünyanın istənilən kitab satışı bazasından əldə etmək olar.




Kitabın nəşri ilə bağlı təəssüratını XQ ilə bölüşən müəllif Surə Seyid bildirdi:

– "Şərq qapısı" qəzeti mənim ilk xitabət kürsüm və elmə açılan qapımın ilk açarı olub. 2000-ci ildə qəzetin nəşr tarixini tədqiqat obyekti kimi götürəndə haradan başlayacağımı belə bilmirdim. 7 il ərzidə Naxçıvanın ilk mətbu orqanı olan bu qəzetin bütün nömrələrini bir-bir araşdırdım. Üz tutmadığım arxiv, getmədiyim muzey, döymədiyim qapı qalmamışdı. XX əsrin 20-ci illərində ərəb əlifbası ilə nəşr olunan bu qəzetin həmin illərdəki nömrələrini qaranlıq və nəmli zirzəmilərdə hərf-hərf oxuduğum günlər də az olmayıb.

Nəhayət, 7 il sonra tədqiqatlarımı yekunlaşdırıb dissertasiyamı elmi rəhbərim, akademik İsa Həbibbəyliyə təqdim etdim. 1 il sonra müdafiəm gerçəkləşdi. Kəşməkəşli və təlatümlü fəaliyyət tarixi olan bu qəzet mənim sakit həyatıma böyük bir təlatüm gətirdi. Yeni ilin ilk ayında avropalı həmkarlarımdan gözəl bir xəbər aldım. 2023-cü ildə Avropada 7 dildə işıq üzü görən monoqrafiya artıq Avropanın və Amerikanın bütün kitab satışı və yayımı portallarında sərgilənməyə başlayıb. "Şərq qapısı" artıq sərhəd tanımır. Mən bunu muxtar respublikanın 100 illiyinə dəyərli töhfə sayıram.

**T.AYDINOĞLU**
**XQ**

Saxtakarlığın anatomiyası

# Ermənistan niyə 1918-ci il xəritələrindən imtina edir?

I YAZI

2020-ci ildə 44 günlük savaşdan sonra məğlub durumda olan Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalanmayıb. Bölgədə sülh və sabitliyə nail olmaq üçün Azərbaycanın təşəbbüsləri Ermənistan tərəfindən müxtəlif bəhanələrlə uzadılır, bir çox hallarda sülh prosesinin nəticə verməsindən daha çox onun hansı ölkə və kimlərin vasitəçiliyi ilə aparılması üzərində mübahisə aparılır. Bu da bölgəmizi maraqları olan dövlətlərin rəqabət sahəsinə çevirir.

Erməni təbliğat maşını Azərbaycanı guya sülh prosesinin uzadılmasında maraqlı olan tərəf kimi qələmə verməyə çalışır. Amma Ermənistanın özündə belə bu fikrin bir erməni uydurması olduğu qənaətinə gələnlər var. Çoxsaylı erməni analitiklərinin gəldiyi nəticə budur ki, Ermənistan rəhbərliyinin "sülh arzuları" sadəcə bir blefdir. Ermənistan səmimi şəkildə sülh anlaşmasına getmək istəsəydi, indiyəcən Azərbaycanın bir neçə dəfə hazırlayıb qarşı tərəfə göndərdiyi sülh təkliflərini qəbul edər, Qərb ölkələrində özünə havadarlar axtarmazdı. Ermənistan sülh masasına gəlməkdən çəkinir, çünki ərazi məsələlərində bir çox həqiqətlər ortaya çıxa bilər.

Ermənistanın ondan qorxur ki, baş nazir Paşinyanın 29,8 min kv. km kimi elan etdiyi Ermənistan ərazinin böyük bir hissəsi bu torpaqlara haqqı olanın əlinə keçə bilər. Çünki bu ölkədə anlayırlar ki, 1918-ci ildə Ermənistan 9 min kv. km ərazidə elan olunub və 20 min kvadratkilometrlik ərazi Ermənistana sonradan verilib və bunlar qanunsuz və ədalətsiz qərarlar nəticəsində baş verib .






Ermənistanda onu da yaxşı bilirlər ki, Azərbaycan Respublikası AXC-nın varisidir və onun elan etdiyi əraziləri geri almaq haqqını özündə saxlayır. O zaman isə Azərbaycan Xalq Respublikasının ərazisi Paşinyanın bu gün tanıdığını elan etdiyi 86,6 min kvadratkilometr deyil, 114 min kvadratkilometr olub. Nə üçün Ermənistan 1918-ci ildə olan ərazilərin danışıq predmeti olmasından çəkinir, ortaya 1970-ci illərin "xəritələrini" atır? Çünki sonrakı tarixlərdə bu ölkənin ərazisi Azərbaycan torpaqları hesabına genişləndirilərək indiki 29,8 səviyyəsinə çatdırılmışdır. Vaxtilə erməni siyasi xadimlərinin özlərinin yazdıqları tarixi faktlara müraciət etsək, aydın bir mənzərənin şahidi olarıq. Birinci Ermənistan Respublikasının baş naziri və xarici işlər naziri olmuş Aleksandr Hatisyan "Ermənistan Respublikasının yaranması və inkişafı" adlı xatirə əsərində bəzi mühüm və indiyədək məlum olmayan məqamlar da bu gerçəyi sübut edir.

Xatırladaq ki, 4 iyun 1918-ci il Batum anlaşması ilə Ermənistan ərazisi 9 min kavadratkilometr olaraq tanınıb. Xatisyanın həmin əsərindən bir hissəni olduğu kimi təqdim edirik. Xatırladaq ki, Aleksandr Xatisyanın Batuma göndərilən Erməni Milli Şurası nümayəndələrinin başçısı idi.

"Batuma çatan kimi birinci vəzifəmiz Xəlil bəyə məktubla Ermənistanın müstəqilliyinin elan edildiyini və türk ultimatumunun qəbul edildiyini bildirmək oldu. Məktub mayın 29-da saat 19:00-da, ultimatum üçün son tarixə bir saat qalmış türklərə çatdırıldı.

O zaman almanlara güvənən gürcülər tələsmirdilər. Onların Xəlil bəylə mayın 31-dək əlaqələri vardı və ultimatum mayın 29-u saat 20:00-da bitmişdi. Xəlil bəy elə həmin axşam mənə cavab verdi, bir gün sonra, mayın 30-da, gündüz saat 12-də onunla klub binasında görüşmək qərarına gəldik.

Danışıqlar fransız dilində aparılırdı. Birinci iclasda Vehib Paşa (Osmanlı Ordularının baş komandiri) şəxsən məndə olan tarixi xəritədə Ermənistanın sərhədlərini çəkdi. Biz bu xəritəni həm Trabzonda, həm də daha sonra İstanbulda, Gümrüdə və Avropada özümüzlə daşıyırdıq.

Xəritəyə baxanda içimizi iki kəskin duyğu bürüdü. Birincisi, biz ən azı fəxr edirdik ki, nəhayət, əsrlər boyu davam edən mübarizədən sonra dünya xəritəsində kiçik bir torpaq parçasına sahib olacaqdıq, ikincisi, bunun bizə verdiyi ağrı ilə baş-başa qalacaqdıq, bizə ayrılan torpaq sahəsi cəmi 9 min kvadrat kilometrdi ki, bu da xalqımızın məskunlaşması üçün tamamilə yetərli deyildi.

İlk iclas sərhədlərin araşdırılmasına həsr olundu. Türklərin Gürcüstan və Azərbaycanla sərhədlərimizin müəyyən edilməsindən qaçması faktı ilə üz-üzə qaldıq. Onlar bizim sərhədlərimizi yalnız Türkiyə ilə çəkib, digər qonşularımızla sərhədlərimizi onlarla razılaşdırmağı istəyirdilər.

Amma biz artıq bilirdik ki, gürcülər Qarakiliseyə qədər, Azərbaycan isə İrəvana qədər geniş ərazi istəyir. Mübahisəsiz ərazi Yeni Bəyazət qəzası və Aleksandropolun (Gümrü) dağlıq hissəsi idi, oradan bizim cəmi 13 kilometrlik dəmir yolumuz keçirdi.

Biz hər üç sessiyanı sərhədlər mövzusuna həsr etdik. Biz Vehib Paşadan və Xəlil bəydən erməni xalqının taleyi üçün bu gün də, sabah da birinci dərəcəli əhəmiyyət kəsb edəcək çox şey eşitmişik. Vehib Paşa xəritəyə işarə edərək və Türkiyənin səylərini izah edərək dedi:

"Görürsünüz, tale Türkiyəni qərbdən şərqə sürükləyir. Biz Balkanları tərk etdik, Afrikanı da tərk edəcəyik, amma Şərqdə məskunlaşmaqdan imtina etməyəcəyik . Qanımız, dinimiz, dilimiz oradadır. Bunun da təbii cazibəsi var. Qardaşlarımız Bakıdadır, Dağıstanda, Türküstanda, Azərbaycandadır. Biz oraya doğru getməliyik. Siz isə, ermənilər bizim yolumuzdasınız. Siz İrana gedən yolumuzu kəsirsiniz, Vanı tələb edirsiniz. Kür vadisindən enirsiniz, Naxçıvanı tələb edirsiniz. və Zəngəzura və Bakıya getməyimizə mane olursunuz. Qars və Axırkələk ərazilərinə iddia etməklə Qazax və Gəncəyə gedən yolumuzu bağlamaq istəyirsiniz. Siz kənara çəkilib bizə yol verməlisiniz. Əsas mübahisəmiz buradadır. Bizə iki geniş yol lazımdır. ordularımızın irəliləməsinə və müdafiəsinə imkan verəcək Qars–Axırkələk yoludur. Bu, Borçalı–Qazax–Gəncəyə gedir, o biri Sərur–Naxçıvan–Zəngəzurla Kür vadisinə uzanır. Yəni siz onların ortasında qala bilərsiniz. Bəyazit Eçmiədzin arasında".

Sonralar əmin olduq ki, Xəlil bəy və Vehib paşa Qarsın bütün ətrafını, Axırkələk vilayətini, Aleksandrapol şəhərini, Hamamlı–İrəvan yolunu, Sürmeli vilayətini, İrəvan quberniyasının yarısını və bütün Karakilise–Uluxanlı dəmir yolunu türklərin əlində saxlamağı təkid edirdilər.

Onlardan sərhədlərin müəyyən edilməsi ilə bağlı bütün təkliflərimizi İstanbula teleqrafla göndərmələrini istədik.

İyunun 2-də cavab aldıq ki, türklərlə "başlanan yaxşı münasibətlər naminə" Hamamlı-İrəvan magistral yolunu bizə buraxmağa razılaşıblar ki, sərhəd Eleyez dağının ətəyindən keçsin. Bu yeni sərhəd Eleyez zirvəsindən Cacur stansiyasına, oradan da Vağarşapata qədər uzandı və buradan 1000 kvadrat kilometr məsafə qazandıq. Türklər bundan başqa güzəştə getmədilər.

Danışıqlarımızın siyasi tərəfinə gəlincə, Vehib paşa bizi türklərlə hərbi ittifaq bağlamağa, onlara 10 min əsgər verməyə və birlikdə Bağdada doğru yürüşə razı salmağa çalışdı. Bu təklifi Ənvər paşa verdi. Biz bu təklifi heç bir şəkildə qəbul edə bilməzdik, xalqımızın hədsiz yorğunluğunu əsas gətirərək rədd etdik.

Vehib paşa bundan təəssüfləndiyini bildirdi və belə bir ittifaqın ermənilərlə türklər arasında bir çox anlaşılmazlıqları aradan qaldıracağını bildirdi". (Aleksandr Hatisyan "Ermənistan Respublikasının yaranması və inkişafı". Yerevan –2017, səh. 103 erməncə).

Göründüyü kimi, Azərbaycanın tarixi torpaqlarında ortaya çııxan süni dövlətin ərazisi 1918-ci ildə 9 min kvadrat kilometr olaraq elan olunub və bu, Batum anlaşması ilə təsdiq olunub. Ermənistanın əraziləri 1918-ci il xəritələri ilə müəyyən edilməlidir.

***Qafar ÇAXMAQLI,***
***Türkiyənin Ərciyəs Universitetinin professoru***

# Əl çəkin, Urartu erməni dövləti deyil!

## Hayların Qafqazda özlərinə uydurma tarix yaratmaq cəhdləri əsassızdır

**...2015-ci ildə Ermənistan prezidenti Serj Sarkisyan rusiyalı tele-jurnalist Vladimir Poznerə müsahibə verir. Bir vaxtlar həmkarı, amerikalı jurnalist Fil Donaxyu ilə Moskva–Vasinqton arasında tele-körpü lahiyəsinin aparıcısı, sovet quruluşunu təbliğ edən, SSRİ dagildıqdan sonra isə kommunist əqidəsini demokrat "imici" ilə pərdələyən Pozneri hamı yaxşı tanıyır. Həmin müsahibədə erməni prezidenti jurnalistə deyir ki, siz niyə məndən soruşmursunuz ki, Ermənistan nə üçün monoetnik dövlətdir? Ardınca sualına özü cavab verir: "Çünki çar hököməti ermənilərin ona isti münasibətini bilirdi. Bu səbəbdən, Ermənistana başqa milləti köçürməyi məqsədəuyğun saymırdı".**



Müsahibə bu ruhda davam edir. Əlbəttə ki, ikiüzlülükdə nə Poznerə, nə də onun müsahibinə çatan olmaz. İntəhası, ortaya maraqlı suallar çıxır. Məsələn, 1828-ci ilin oktyabırında nə baş verib? Nə üçün Qafqazdakı rus qoşunlarının baş komandanı İrəvanski təxəllüsünü götürüb? İrəvanda rus ordusu kiminlə döyüşüb? Əslində, Sarkisyanın sözlərində qeyri-adi heç nə yoxdur. Min illərdir ermənilər belə yalanlar uydurur, Pozner kimilər də bundan öz məqsədləri üçün istifadə edirlər.

Adolf Hitler yazırdı: "Mübarizədə yalandan mümkün qədər çox istifadə etmək lazımdır. Yalan nə qədər heyrətamiz olarsa, insanlar ona daha tez inanır. Qələbə qazandıqdan sonra heç kəs bizdən soruşmayacaq ki, yalan haradadır, doğru harada?"

Ermənilərin mənəvi atası Hitlerin bu fikrini faşist Almaniyasının maarif və təbliğat naziri Yozef Gebbels inkişaf etdirərək yazırdı: "Yalanı dönə-dönə təkrar etsən, o, artıq həqiqət olur".

Haylar yüz illərdir deyir və yazırlar ki, Qafqazda dövlətçilik Urartu ilə başlayır. Urartu isə guya, qədim erməni dövlətidir. Tanınmış erməni tarixçisi Gevorq Aslan yazır ki, ermənilərin heç vaxt dövləti və dövlətçilik ənənəsi olmayıb: "Ona görə də onlarda Vətənə bağlılıq hissi yoxdur Erməni vətənpərvərliyi yalnız onların məskunlaşdığı məkanla bağlıdır". Digər bir erməni akademik Manuk Abeqyan "Qədim erməni ədəbiyyatı tarixi" kitabında yazır: "Erməni xalqının mənşəyi, bu yerlərə nə zaman və haradan gəlmələri, erməniyə çevrilmələri, onların millət kimi formalaşmalarına hansı qəbilələrin və nə dərəcədə təsir göstərməsi barədə dəqiq və etibarlı məlumat yoxdur. Məsələnin qəlizliyi məlumatın olmaması deyil, onun ya gizlədilməsi, ya da qəsdən başqa qədim dövlət, yaxud xalqla qarışdırılması ilə bağlıdır. Sadə bir misal: Hansısa erməni, yaxud ermənipərəst alimdən müsahibə alınır. Onun saxta titulları sadalandıqdan sonra "alim" Misir ehramlarının layihəsinin koptilərin içində yaşayan erməni arxitektor tərəfindən çəkildiyini, inşaat işlərinin erməni mühəndislər tərəfindən aparıldığını deyir. "Alimin" qarşısındakı insanın hansı vəziyyətə düşdüyünü təsəvvürünüzə gətirin. Bu səbəbdən insanlar Urartunu erməni dövləti kimi tanıyırlar.

...Erməni xalqının mənşəyi barədə bu sual hələ də aktualdır: haylar yerlidir, yoxsa Qafqaza gəlmədirlər? Məsələyə obyektiv mövqedən yanaşan alimlər hayların gəlmə olmalarını əsas götürür və Şərqi Avropa, Qafqaz, Mərkəzi Asiyanın yerli xalqları ilə qaynayıb qarışdığını qeyd edirlər. Bu, e.ə II-I minilliklərdə baş verib. Müasir erməni dili Hind–Avropa dil ailəsinin xüsusi qoluna məxsusdur. O, yunan və alban dillərinə daha yaxındır. Onda bəs necə oldu ki, haylar, yaxud ermənilər birdən-birə aborigen qafqazlı olmaqla yanaşı, həm də urartulaşdılar? Məsələ heç də akademik Manuk Abeqyanın dediyi kimi, qəliz deyil. İşlərin bu cür dolaşığa düşməsində erməni tarixçilərin özləri maraqlıdır.

XX əsrin 30-cu illərində, guya, het yazıları tapılıb. Bu yazılarda Van gölü ətrafında ilk erməni çarlığının mövcud olduğu aşkarlanıb. Hətta bu çarlığa aid pullar da tapılıb. Beləliklə, bu tapıntı ermənilərin Qafqaza gəlmə olması konsepsiyasının üstündən "xətt çəkir". Amma bu erməni yalanının üstü tezliklə açıldı. Het epiqrafik parçanın bilərəkdən səhv oxunduğu, pulun isə orta əsrlərdə Atabəylər dövründə kəsildiyi sübut edildi.

Urartunun erməni dövlətinə çevrilməsi hayların uydurduğu ən gülməli yalandır. Bizim e.ə. IX-XIII əsrlərdə Urartu dövləti mövcud olub. Bu dövlət o dövrün məlum imperiyaları Het, Lidiya, Assuriya ilə qarşılıqlı əlaqədə olub. Urartulular hurrilərə qohum olmaqla yanaşı, hurri dilində danışan xalqdır. Hayların onları özlərinə əcdad seçməsi isə gülünc yalandır. Məqsəd özlərini Şərqi Anadolunun yerli xalqına "çevrilməkdir". Şərqi Anadoluda Van qülləsi, 50 metr uzunluğunda Şamran kanalı üzərində rahat oxunan urartu yazıları ilə zəngindir. Urartu dili Nax-Dağıstan dil qrupuna aiddir. Yuxarıda deyildiyi kimi, Linqvistik tədqiqatlar sübut edir ki, Hind–Avropa dil ailəsinə məxsus erməni dili həddən artıq deformasiyaya uğrayaraq, Qafqaz dillərinə qarışıb. Dəqiqliklə oxunan Urartu dilinin erməni dili ilə heç bir yaxınlığı yoxdur. Qədim müəlliflər hay və frakiyalıların eyni dildə danışdığını qeyd edirdilər. Professor Kəmaləddin Koroğlu yazır ki, Urartu dövründə Şərqi Anadolu və Qafqazda ermənilər olmayıb. Onlar yalnız farslar dövründə Şərqi Anadoluya gəlməyə başlayıblar. Bu dövrdə isə artıq Urartu dövləti yox idi. Professor V.Movrodin yazır: "Urartu Ararat (Ağrı) dağının adından meydana gəlib".

Tarixdən bəllidir ki, Van gölünün qərbində Arma vilayəti olub. Yeri gəlmişkən, bu ad ilk dəfə Əhəməni hökmdarı Daranın Bisutun kitabəsində çəkilir. E.ə. 612-ci ildə Arma vilayəti Midiyanın hakimiyyəti altında olur. Həmin vilayətdə yaşayan altı qəbilədən yalnız birinin Frakiyadan gəlmə haylar olduğu güman edilir.

Yalnız Maqneziya döyşündən sonra haylar müstəqil olublar. Bu isə e.ə. 190-cı ildir. Erməni tarixçilərinin ağızdolusu danışdığı, yeri, yurdu, məzarı tapılmayan Tiqran isə Parfiyalıdır. Pompeyin yürüşündən sonra onun zəbt etdiyi torpaqlar sahiblərinə qayıdır. Haylar isə Romaya tabe olurlar. Məlum dövrdə Qarabağa köçürülən ermənilər həmin fənddən (bunu başqa cür adlandırmaq olmaz) istifadə ediblər. Haylar Şərqi Anadoluya gələndə olmayan Urartu dövlətinə varis çıxdılar. Azərbaycanda da bu işi "uğurla" həyata keçirdilər. Amma tarix saxta yazılı daş parçalarını rədd etdi.

...Erməni tarixçisi B.İşxanyan yazır: "Qarabağda yaşayan ermənilərin bir hissəsi yerli əhali olan albanların nəslindəndir, digərləri Türk (Osmanlı) və İran qaçqınlarıdır. Azərbaycan torpaqları bu qaçqın və köçkünlər üçün sığınacaq yeri oldu"("Narodnosti Kafkaza". Sankt-Peterburq, 1916).

Bəli, erməni saxtakarlığı, yalanı sərhəd bilmir. Əgər bunu dünyada kimsə görmək istəmirsə, demək, o, mənən kordur. Hay xarakterini görkəmli gürcü mütəfəkkiri İlya Cavçavadze daha aydın xarakterizə edir. "Onlar (ermənilər) o qəbilədəndirlər ki, köçürüldüyü yerlərdə bir neçə on il yaşadıqdan sonra dünyaya car çəkəcəklər ki, bu yerlər bizim ulu babalarımızındır."

Əslində, SSRİ dövründə böyük bir erməni mifi yaradılmışdı. Bu gün Limonov, Satanovski və bu qəbildən olan, alimlik ləyaqətini erməni puluna satmış "tarixçilər" cidd–cəhdlə "hay konsepsiyanı" davam etdirməyə çalışırlar. Fəqət bunun heç bir faydası yoxdur. Çünki bu yalanlara inanan insanların sayı getdikcə azalmaqdadır.

***Dilavər QURBANOV,***
***BDU-nun Qazax filialının və Ağstafa texniki humanitar təmayüllü liseyin tarix müəllimi***

# Mühəndislik Akademiyasının Fəaliyyət Konsepsiyası

**Azərbaycan Mühəndislik Akademiyasının İdarə Heyətinin növbəti iclası keçirilib. İclasda Mühəndislik Akademiyasının 2024-2030-cu illəri üçün Fəaliyyət Konsepsiyası müzakirə olunub.**



Akademiyanın prezidenti akademik Arif Paşayev öz çıxışında diqqətə çatdırıb ki, Azərbaycan Mühəndislik Akademiyası UNESCO-nun nəzdindəki Ümumdünya Mühəndislik Təşkilatları Federasiyasına (WFEO) tamhüquqlu üzv seçilib.

Vurğulanıb ki, Azərbaycan Mühəndislik Akademiyasının WFEO, Beynəlxalq Mühəndislik Akademiyası və İslam Ölkələri Mühəndislik Federasiyası ilə əməkdaşlığı sahəsində mühəndislik ideyalarının dünya birliyinə inteqrasiyası sürətlənəcək, akademiyanın nailiyyətləri daha da artacaq, gələcəkdə müxtəlif ölkələrlə beynəlxalq əməkdaşlıq inkişaf edəcək və hüdudları digər akademiyalarla genişlənəcək. Bu nailiyyət aparıcı alimlər, mühəndislər və tədqiqatçılar üçün öz elmi nəticələrini bölüşmək, aktiv müzakirələrini aparmaq və texniki proqramlar hazırlamaq üçün ən yaxşı platformadır. Bu məqsədlə Akademiyanın Fəaliyyət Konsepsiyası işlənib-hazırlanıb və qəbul edilib.

Uzunmüddətli Fəaliyyət Konsepsiyası akademiyanın idarəetmə strukturunu və fəaliyyətini təkmilləşdirəcək, insanların ekosistemə mənfi təsirini azaldacaq, elm və texnika, müasir texnologiyalar sahəsində dövlət proqramlarının, strategiyaların və eləcə də hüquqi aktların müəyyənləşdirilməsində böyük rol oynayacaq. Konsepsiya ölkəmizin iqtisadi, sosial və mənəvi həyatına töhfə verəcək.

**XQ**

Şamil Mahmudbəyov – 100

# Filmlərində yaşayan rejissor

**Bu günlərdə Kino agentliyinin “ARKA.Culture.az" saytında oxuduq ki, kinorejissor, Əməkdar incəsənət xadimi Şamil Mahmudbəyovun qəbirüstü abidəsi yenilənib. Sosial şəbəkələrdə isə buna görə Mədəniyyət naziri Adil Kərimliyə minnətdarlıq duyğuları ifadə olunurdu.**



Tanınmış kinorejissor, Əməkdar incəsənət xadimi Şamil Mahmudbəyovun 100 illik yubileyi ərəfəsində baxımsız vəziyyətdə olan qəbirüstü abidəsinin Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə yenilənməsi xəbəri bizi də sevindirdi.

Xatırladaq ki, Şamil Mahmudbəyov 6 fevral 1924-cü ildə Naxçıvanda anadan olub. İkinci dünya müharibəsində iştirak edib, I Ukrayna Cəbhəsində döyüşən ordunun tərkibində vuruşub, kontuziya alıb. Tərxis olunandan sonra Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiyası İnstitutunda oxuyub. Sonra Bakı kinostudiyasında çalışıb. “Görüş” , “Qara daşlar” filmlərində 2-ci rejissor işləyib, ilk müstəqil kino işi “Əyri yolla qazanc” qısametrajlı filmi olub. Mərhum sənətkar “Romeo mənim qonşumdur” lirik komediyasının, “Qaraca qız” kinonovellasının və başqa filmlərin rejissorudur. Müharibədən sonraki ilk illərdən bəhs edən “Şərikli çörək” filminə görə Dövlət Mükafatına layiq görülüb.



Yeri gəlmişkən, davanın odunu-alovunu görmüş sənətkarın filmləri arasında müharibə mövzulu, bu və ya digər dərəcədə hərbi mövzuya toxunan kino əsərləri xüsusi yer tutur: “Torpaq. Dəniz. Od. Səma”, “Dörd bazar günü”, “Skripkanın sərgüzəşti”, “Tənha narın nağılı” bu qəbildəndir.

Şamil Mahmudbəyov, eyni zamanda, aktyor olub, “Yenilməz batalyon” filmində Qaçaq Əlimərdan obrazını, Qarabağ münaqişəsinə həsr edilmiş “Fəryad” bədii filmində isə erməni Samvelin mənfi rolunu olduqca təbii oynayıb. Ağır xəstəliyə tutulmuş rejissor “Divar” və “Adam” adlı sonuncu televiziya kinolentlərini tamamlaya bilməyib və 1997-ci ildə Bakıda dünyasını dəyişib. Ondan illər sonra filmin quruluşçu operatoru Nizami Abbas “Adam”ın yarımçıq qalmış montaj və post-prodakşn işlərini həyata keçirib. İnsanların bir-birinə etinasızlığından, vəfasızlığından və ümumilikdə insan tənhalığından bəhs edən kinolenti tamamlamaqla Nizami Abbas da, ssenari müəllifləri Balaş Abbaszadə və Nəriman Əbdülrəhmanlı da, prodüser Rasim Həsənov da unudulmaz sənətkarın ruhuna dərin ehtiramlarını sərgiləyiblər...

Onu da deyək ki, Mədəniyyət Nazirliyi, Kinematoqrafçılar İttifaqı və Dövlət Film Fondu böyük rejissorun 90 və 95 illik yubileylərinə həsr olunmuş yaddaqalan tədbirlər keçiriblər. Yalnız qəbirüstü abidəsinin təzələnməyə ehtiyacı vardı ki, o da artıq həll edilib.

**Kino Agentliyinin şöbə müdiri Rəşad Qasımovun dedikləri:**

– 2023-cü ilin 6 fevral sabahı Elxan Qasımov zəng vurdu ki, nahar fasiləsində vaxt elə gedək doğum günündə Şamil Mahmudbəyovun məzarını ziyarət edək. Ora çatanda həmişəki kimi kövrəldi. Böyük rejissorun məzarının pis vəziyyətdə olması bəlkə də hamıdan çox onu narahat edirdi. Dost, həmkar olmuşdular. Üstəlik, kinostudiyanın Həmkarlar ittifaqı komitəsinin sədri Elxan müəllim olduğu üçün bu məsələni həll etməyi özünə borc bilirdi. Dedi, gələn il Şamil müəllimin 100 illik yubileyidir. Birdən başıma bir iş gəlsə, nəzərində olsun, bu boyda kişidən, “Şərikli çörək” filmindən ayıbdır. Məzar bərpa olunmalıdır. Üç ay keçmədi ki, Elxan müəllimi də itirdik. Nə yaxşı ki, arzusu yerdə qalmadı.

Bu gün Şamil Mahmudbəyovun 100 yaşı tamam olur. Əlamətdar yubileyinə 2 gün qalmış artıq onun yenilənmiş məzarı hazırdır. Saat 11-də Bakıdakı II Fəxri xiyabanda məzarı başında xatirəsi anılacaq.

**Kinoşünas, Əməkdar incəsənət xadimi Aydın Kazımzadə:**

– Şamil müəllim böyük istedad sahibi, əsl ziyalı və təvazökar insan idi. Tələbə ikən, kurs rəhbərləri Sergey Gerasimov və Tamara Makarova ona böyük hörmətlə yanaşır və yüksək qiymətləndirirdilər. Bakıya qayıdandan sonra ona maneçilik törətsələr, bir müddətə sənətdən ayırsalar da, bütün çətinliklərə dözdü, özünü təsdiq etməyi bacardı. Filmləri ilə özünə heykəl qoydu. Şamil Mahmudbəyovun yaradıcılığında uşaq filmləri xüsusi yer tutur. Çəkiliş meydançasında uşaqlarla işləmək rejissordan böyük ustalıq tələb edir, kiçik yaşlı uşaqların psixologiyasını bilmək, qəlblərinə yol tapmaq lazım olur. O, bunun öhdəsindən layiqincə gəlirdi. Bu gün onun haqqında belə deyə bilərik: “Filmlərində yaşayan sənətkar”.

Ruhu şad olsun!

***Əli NƏCƏFXANLI***
***XQ***

Xatirələrdə yaşayanlar

# Sibirdə Cavidlə eyni kamerada qalan aktyor

**Ələkbər Seyfi. Bu ad Gəncədə teatr ictimaiyyətinə yaxşı tanışdır. O Ələkbər Seyfi ki, məhz Gəncə Dövlət Dram Teatrında fəaliyyətinə görə 19 il uzaq Sibirdə sürgün həyatı yaşayıb.**




...1932-ci ildə Gəncəyə köçürülən Bakı Türk İşçi teatrının yaradıcı kollektivinin ayrıca binası yox idi və yaradıcı kollektiv fəaliyyətini mədəniyyət evlərində, klublarda davam etdirirdi. Foreren qardaşlarının çaxır anbarı üçün tikilən bir bina 1934–36-cı illərdə bu teatr üçün uyğunlaşdırılır və truppa orada məskunlaşır. Əsl sınaq da məhz bundan sonra başlanır. Belə ki, 1937-ci ilin ağır represiya küləyi Ələkbər Seyfinin də qapısını döyür. Guya, çaxır anbarının binası rekonstruksiya olunanda o, bünövrəyə bomba qoyubmuş. Elə bu bəhanə ilə də Seyfi əmi uzaq Sibirə sürgün edilir.

Ələkbər əmi sürgündən Gəncəyə geri dönəndə – 1956-cı ildə teatrın yaradıcı kollektivi onu dəmiryol vaqzalında böyük coşqu ilə qarşılayıb. Təmkinini pozmadan elə vağzaldaca kollektivə verdiyi ilk sual bu olub: “Mən qoyduğum bomba partlayıbmı?”

Ələkbər Seyfi sürgün həyatı haqqında xatırələrində yazırdı: “Uzaq Sibirə sürgün olunmağımın bircə xoşbəxtliyi vardı. Böyük Hüseyn Cavid mənimlə eyni kamerada yatırdı. Şeirlərini bizə oxuyandan sonra sobada yandırırdı. O, əvəzsiz şəxsiyyət, görkəmli mütəfəkkir mənim qollarım arasında gözlərini yumdu”. Sürgündən gələn kimi, Hüseyn Cavidin Sibirdəki məzarının koordinatlarını Dövlət Təhlükəsizliyi İdarəsinə məhz Ələkbər Seyfi təqdim edib. Deməli, İrkutsk vilayəti Tayşet rayonunun Şevçenko kəndində torpağa tapşırılan Hüseyn Cavidin cənazəsinin qalıqlarının 1982-ci ildə Azərbaycana gətirilməsində Ələkbər Seyfinin də əvəzsiz xidməti olub.

Maraqlıdır ki, Sibirdə kamera qonşusu olanların həyatında 59 və 19 rəqəmləri dəfələrlə təkrarlanıb. Dahi şair və dramaturqun başının ölçüsü 59 olub və o, 59 yaşında vəfat edib, ölümü 59 nömrəli aktla sənədləşdirilib. Bakıdakı 59 nömrəli evindən zorla ayrı salınan şair Sibirdə 59 nömrəli qəbirdə dəfn olunub və 59 ildən sonra ailəsi ilə görüşüb. Ələkbər Seyfi isə 19 mart 1901-ci ildə dünyaya gəlib, 19 il sürgün həyatı yaşayıb, sürgündən sonra qaldığı mənzilində də cəmi 19 il yaşaya bilib...

Ələkbər Seyfulla oğlu Seyfi Tiflisdə anadan olub. “İttifaq” məktəbində təhsil alıb. Səhnədə ilk dəfə şagird vaxtı, 1914-cü ilin əvvəllərində Şəmsəddin Saminin “Gaveyi-ahəngər” (Dəmirçi Gavə) pyesinin tamaşasında Bəhram obrazında çıxış edib. Bundan sonra məktəb tamaşalarında rollar oynayıb. 1917-ci ildə “İbrət” dram dərnəyinə üzv yazılıb. Orada hazırlanan tamaşalarda maraqlı çıxışlar edib. Ələkbər Seyfi səhnədə qadın rollarını da məharətlə oynayıb. Altay Məmmədov və Alp Ağamirovun “Ələkbər Seyfi” kitabında oxuyuruq: “1919-cu ilin fevralında “Pəri-cadu”da Hafizə xanım rolu Ələkbər Seyfiyə tapşırılır. Qabaqlar həmin tamaşada nökər Əmrah və təlxək rollarını müvəffəqiyyətlə ifa edən Ələkbər Seyfi əvvəlcə bu roldan boyun qaçırmağa çalışır, lakin yoldaşlarının təkidi ilə razılıq verir. Məşqlərin birinə xəlvəti baxan pyesin müəllifi Əbdürrəhim bəy Haqverdiyev onun yoldaşlarına deyir: “Ələkbərdən əla Hafizə xanım çıxacaq”.

Ələkbər böyük ədibin inamını doğruldur, zabitəli və qəddar qadının surətini böyük məharətlə yarada bilir. Daha sonra Əbdürrəhim bəy “İttihad” və “İbrət” cəmiyyətlərini birləşdirərək, yeni truppa yaradanda idarə heyətinə Əlimirzə Nərimanov, İsmayıl Həqqi və Ələkbər Seyfi daxil edilirlər.

Kollektiv 1921-ci ildən hökumətin qərarı ilə Tiflis Dövlət Azərbaycan Dram Teatrı statusu ilə fəaliyyətini davam etdirib. İbrahim İsfahanlı, Mirzəli Abbasov, Mustafa Mərdanov, Mirseyfəddin Kirmanşahlı, Mirzəxan Quliyev, Əli Qurbanov, Möhsün Sənani, Panfiliya Tanailidi, Əbülfət Vəli ilə bərabər, Ələkbər Seyfinin səhnə fəaliyyəti Tiflisdə böyük maraqla qarşılanıb. 1929-cu ilədək o, burada bir sıra maraqlı obrazları ilə tanınıb. Həmin ildə Azərbaycan Xalq Maarif Komissarlığının dəvəti ilə Bakı Türk İşçi Teatrına gələrək, ədəbi hissə müdiri, direktor müavini, direktor kimi çalışıb. Sonra isə Gəncəyə gedib.

Gəncədə Ələkbər Seyfi yaddaqalan obrazlar qaleriyası yaradıb. “Nadir şah”-da Rzaqulu, “Hacı Qara”da Kərəməli, “Ölülər”də Məşədi Oruc, “Şeyx Sənan”-da Şeyx Kəbir, “O olmasın, bu olsun”-da Hambal, Həsənqulu bəy, “Arşın mal alan”da Vəli, “Müfəttiş”də Dobçinski, “Yanğın”da aqronom, “İncə”də Kərim, “Bahar”da Veysəl Mirzə, “Vicdan”da Abdulla, “Kələkbaz sevgili”də kapitan Bernardo bu silsiləyə daxildir. O, özünəməxsus ustalıqla rolların xarakterik cəhətlərini tapıb, rejissor fikrini incəliklərinə kimi canlandırıb.

Ələkbər Seyfi “Azərbaycanfilm” kinostudiyasında “Səhər”, “Qanun naminə”, “Mən ki, gözəl deyildim” filmlərinə çəkilib, “Uşaqlığın son gecəsi” filmində yaratdığı İsmayıl obrazı ilə daha çox yaddaşlarda yaşayır.

Dram və kino aktyoru, teatr təşkilatçısı Ələkbər Seyfi, eyni zamanda, teatrşünas və tərcüməçi olub. “Harunərrəşid”, “Məkr və məhəbbət”, “Qızılquşlar və qarğalar”, “İki yetim qız”, “İşarə”, “Morqanın qohumu”, “Fəlakət”, “Kələkbaz sevgilim”, “Qaçaqlar”, “Tülkü və üzüm”, “Təbilçi qız”, “Şeytan nəsli”, “Sabahın xeyir”, “Üç qəpiklik opera”, “Növbədə” kimi pyesləri dilimizə uğurla tərcümə edib. 1920-ci illərdə Tiflisdə “Yeni fikir” qəzetində və “Dan yıldızı” jurnalında teatrla bağlı bir sıra məqalələrin də müəllifi Ələkbər Seyfi olub.

Onun arxiv materiallarının içərisində görkəmli teatr xadimləri ilə olan yazışmaları da var. Professor Əziz Şərif, Xalq artisti Aleksandr Tuqanov və digərlərinin məktubları diqqət çəkir. Bir məktubunda Əziz Şərif Ələkbər Seyfiyə yazırdı: “Əzizim Seyfi, heç biləsən, kağızın məni nə qədər çox sevindirdi. Bəlkə daha çox ona görə ki, bu son iki ayın ərzində səni tez-tez xatırlayırdım. Bu vaxt mən Ə.Haqverdiyev haqqında müfəssəl xatirat yazır, onun mənə yazdığı məktublarını çapa hazırlayırdım. Bu ərəfədə gah Haqverdiyevin məktublarında, gah müxtəlif sənədlərdə, gah da öz gündəliyimdə hey sənin adına rast gəlirdim. Səni könlüm çox istəyirdi. Axı o vaxtdan sağ qalan bizik, bir də Rza Təhmasib. Qalanları Allahın rəhmətinə gedib, bizim yolumuzu gözləyirlər. Biz də üzü yamanlıq edib getmək istəmirik. İnşaallah, hələ çox gözləməli olacaqlar. Seyfi can, özünü qıvraq saxla, məni də unutma”.

Ələkbər Seyfi 1958-ci ildə Əməkdar artist, 1961-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. Böyük sənətkar 1977-ci ildə Gəncədə vəfat edib.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas***

Dilçilikdə yenilik

# “Türkmənşəli arxaizmlər lüğəti”

## (XIII-XVIII əsr Azərbaycan yazılı abidələri əsasında)

**Hər hansı dilin zənginliyinin mühüm cəhətlərindən biri də onun lüğət ehtiyatı ilə bağlıdır. Adətən, dildə fikirlərin daha dəqiq, uğurlu və bütünlüklə ifadə olunmasında sözün rolu və əhəmiyyəti misilsizdir.**




Elə buna görə də bəşəriyyətin tarixi boyu elm və sənət adamları, böyük təfəkkür sahibləri dilin gözəlliyindən danışarkən həmişə onun söz ehtiyatına xüsusi diqqət yetiriblər, sözün sehrli, ecazkar qüvvəsindən danışıblar, varlığın möhtəşəm sənət incilərinin yaradılmasında sözün əvəzsiz imkanlarından bəhs ediblər. Dil tədricən tarixin daş yaddaşı kimi təmsil etdiyi xalqın zəngin bir salnaməsinə çevrilib, tarixi hadisələrin, faktların simvolu kimi formalaşıb, onları özündə hifz edib. Bu zaman zəngin söz xəzinəsinə çevrilib, lüğətlərin, qamusların səhifələrində yeni ömür, həyat yaşamağa başlayıb.

Bu sözləri “Türkmənşəli arxaizmlər lüğəti”nə də fəxarətlə aid edə bilərik.Həmin lüğətlə bağlı AMEA Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dilinin tarixi şöbəsində, dilçiliyimizdə ilk dəfə olaraq, irihəcmli tarixi lüğət layihəsi həyata keçirilmişdir. Azərbaycanın orta əsr yazılı abidələrindən toplanmış nümunələr əsasında hazırlanmış 3 cildlik “Türkmənşəli arxaizmlər lüğəti”nin I cildi artıq çapdan çıxmışdır.

Azərbaycan dilçiliyində elmi yenilik olan bu qiymətli mənbəni ərsəyə gətirənlər onun lüğətçilik baxımından mükəmməl olması üçün çox böyük əmək sərf etmişlər. Bu leksikoqrafik əsərə arxaizmlərin bütün leksik, semantik, fonetik və qrammatik növləri daxil edilmişdir. Göstərilən və aşağıda sadalanacaq xüsusiyyətlər Azərbaycan dili tarixinin leksikologiya, semasiologiya, sintaksis, morfologiya və fonetika sahələrinin konkret dövrləri üzrə gələcək tədqiqatlar üçün geniş imkanlar açır.

Yeni lüğətdə əks olunmuş **leksik arxaizmlər**dən (müasir ədəbi dildə işlənməyən sözlər) *ağmaq* – çıxmaq, *ağgöz* – gözünün ağı çox olan, *aluluğ* – axmaqlıq, *andağı* – ondakı, *balçaq* – qılıncın qəbzəsi, *çəri* – qoşun, *çigləmək* - tapdalamaq, *çoxmaq/çoqmaq* – cummaq, hücum etmək və s.; **semantik arxaizmlər**dən (müasir dövrdə işlənən, lakin mənası dəyişmiş sözlər) *banlamaq* – azan oxumaq, *bərk* – dönməz, möhkəm, iradəli, *daşlamaq* – atmaq, tullamaq və s.; **fonetik arxaizmlər**dən (səslənməsi köhnəlmiş sözlər) *aqlıq/axlıx* – ağlıq, *dəprənmək* – tərpənmək, *dəgşirmək/dəgşürmək/dəyşirmək* – dəyişmək, dəyişdirmək və s.; **qrammatik arxaizmlər**dən (sözlərin müasir dildə müşahidə olunmayan köhnəlmiş qrammatik formaları) *açılğan* – açılan, *ağlayu* – ağlayaraq, *andan/andin* – ondan və s., aydınrak/*aydınraq* – daha aydın, *altunlığ* – qızıllı, *atlığ* – atlı, atı olan, *birlə/birlən* – ilə, - la, -lə və s. misal gətirmək olar.

Lüğətdə hər bir baş sözə aid nümunələr xronoloji ardıcıllıqla düzülmüşdür: “Kitabi Dədə Qorqud” dastanı ilk sırada yer alır, arxasınca XIII əsr və digər abidələr (ta XVIII əsrə qədər). Bu zaman sözlərin həm mənaca inkişafını, həm də işlənmə intensivliyini aşkar izləmək mümkündür: bəzən bir söz yalnız bir müəllifin dilində izləndiyi halda, digəri bütün əsərlərdə ümumişləkdir. Məsələn, müasir dilimizdə arxaik hesab etdiyimiz *bulmaq* feilinin XVIII əsrə qədər bütün nəzm və nəsr əsərlərində tam aktiv şəkildə olduğu müşahidə edilir. Amma fonetik arxaizm olan *ağrığ* sözünə XIII əsr abidəsi olan İbn Mühənna lüğətində və ən son “Şeyx Səfi” (XVI əsr) təzkirəsində rast gəlinir. Sonrakı dövrlərə aid mənbələrdə görmədiyimizə görə, deyə bilərik ki, XVI əsrdən sonra həmin fonetik variant işləklikdən qalmışdır. Yaxud *biləmcə* leksik arxaizminə ilk olaraq XIV əsrdə “Fütuhüş-Şam”da, daha sonra XVI əsrdə “Şeyx Səfi” və “Şühədanamə” tərcümə əsərlərində işlənir.

“Türk mənşəli arxaizmlər lüğəti”ndə verilən izahlar və sıralanma şöbə əməkdaşları tərəfindən sitatların kontekstinə və mötəbər, etibarlı lüğətlərə əsasən müəyyənləşdirilmişdir. Lüğət məqaləsinin tərtibatında, təbii olaraq, tarixi lüğətə xas semantik bölgü prinsipi həyata keçirilmişdir. Müasir dilin izahlı lüğətlərində baş sözün semantik bölgüsü zamanı birinci məna yerində onun müasir dildəki həqiqi mənası verilirsə, tarixi lüğətin lüğət məqalələrində öndə ən qədim və fəal işlənən mənası yer almalıdır.

Bundan başqa, orta əsrlərdə vahid ədəbi dil və vahid daimi orfoqrafik normaların olmaması və əski ərəb qrafikasının sait səsləri dəqiq ifadə edə bilməməsi müasir dövrdəki tranfoneliterasiyalarda fərqliliklərə gətirib çıxarmışdır. Bu səbəbdən Azərbaycan yazılı abidələrində müşahidə edilən sözlərin bütün fonetik variantlarının lüğətdə əks etdirilməsinə çalışılmışdır. Məsələn, *aymaq* (demək, söyləmək) feilinin *ayıdmaq, ayıtmaq, aytmaq, etmək, eytmək, əytmək; aydı vermək, edü vermək, eyidi vermək, eydi-vermək, eydü vermək* kimi fonetik və sintaktik variantları mövcuddur. Sındırmaq mənasını ifadə edən *üşətmək* / *uşatmaq* feilinin fonetik variantlarını da misal gətirmək olar. Lüğətdə bu sözlər əlifba sırasına görə aralı düşdüyündən bir-birinə baxdırılmışdır.

Lüğətdə daha önəmli məqamlardan biri arxaik morfoloji əlamətlərin istifadəçilər üçün şərh edilməsidir. Məsələn, *-ısar/-isər, -daçı/-dəçi* və *-ğay/-gay* gələcək zaman şəkilçiləri, *-van/-vən* I şəxsin təkinin xəbərlik şəkilçisi, *-duq/-dük* həm təyin, həm də şühudi keçmiş zamanın feili yerində işlənə bilən qədim oğuz şəkilçisi, *-ıban(ı)/-ibən(i)* feili bağlama şəkilçisi və s.

“Türk mənşəli arxaizmlər lüğəti”nin layihə rəhbəri isə Azərbaycan dilinin tarixi şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Xədicə Heydərovadır. Şöbə əməkdaşları lüğətin tərtibatını iki mərhələdə yerinə yetirmişlər: mənbələrdən nümunələrin toplanması və baş sözlər əsasında əlifba sırasına düzülməsi; ayrı-ayrılıqda toplanmış materialların qəbul edilən tərtibi prinsiplər əsasında hərflər üzrə birləşdirilməsi və vahid lüğət halına salınması.

“Türk mənşəli arxaizmlər lüğəti” leksikoqrafiyamızda tarixi lüğət baxımından ilk təcrübə olmaqla, uğurlu bir layihədir və Azərbaycan dili tarixinin tədqiqi sahəsində aparılacaq elmi araşdırmalar **üçün əvəzolunmaz məxəzdir.**

***Nadir MƏMMƏDLİ,***
***Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, professor***

***İsmayıl MƏMMƏDLİ,***
***Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyasının üzvü, professor***

## “Gəncə Ərzaqnəqliyyat” ASC səhmdarlarının nəzərinə!

26 mart 2024-cü ildə, saat 11.00-da “Gəncə Ərzaqnəqliyyat” ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** 2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.

**2.** Cəmiyyətin ləğv edilməsi.

**3.** Ləğvetmə komissiyasının yaradılması.

**4.** Ləğvetmə komissiyasının səlahiyyətlərinin müəyyənləşdirilməsi.

**5.** Cəmiyyətin idarə heyətinin və təftiş komissiyasının (müfəttişin) səlahiyyətlərinə xitam verilməsi.

**6.** Digər məsələlər.

Ümumi yığıncaq Gəncə şəhəri, Ələkbər bəy Rəfibəyli küçəsi 19 nömrəli ünvanda keçiriləcəkdir.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün hər həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə nömrəsi- +99450-346-44-00.

***İdarə heyəti***

Beynəlxalq həyat

# "Tramp,Tramp, Tramp..."

## Amerika mediasının aparıcı mövzusu

**ABŞ prezidentliyinə əsas namizəd hesab edilən Donald Tramp tərəddüd içində olan və 2024-cü il seçkilərinin taleyini həll edəcək 7 ştatda da qətiyyətlə liderliyini davam etdirir. Bu məlumatı "Bloomberg" və "Morning Consult"in keçirdiyi sorğuların nəticələrinə istinadən "Fox News" televiziya kanalı yayıb. Aparıcı Lora İnqremin fikrinə görə, "burada təəccüb ediləsi bir şey yoxdur: Amerikalılar Bayden idarəçiliyi dövründə ABŞ-ın nə günə düşdüyünü aydın görürlər".**

Bəli, "Tramp,Tramp, Tramp..." – Amerika mətbuatının bugünkü əsas mövzusu budur. Liberalların seçki öncəsi bütün əhvalı pozulub. Sorğulardan aydın görünür ki, əsas 7 tərəddüd edən ştatda da Tramp əzmlə Baydeni üstələyir və hətta Tramp 2020-ci ildə məğlub olduğu 4 ştatda da 2024-cü ildə qalib gələ bilər.



Milyarderlərin Viskonsidə Co Baydenə külli miqdarda vəsait xərcləməsinə baxmayaraq, Tramp 5 faiz səs çoxluğu ilə liderliyini qoruyub saxlayır. Pensilvaniyada isə eks-prezident 3 faiz irəlidədir. Demokratların idarə etdiyi və hər şeyin demokratlar üçün olduğu Nevada da Tramp Baydeni məğlub edir: O, rəqibindən 8 faiz çox səs qazanıb. Corciya ştatında da vəziyyət bunun eynidir. Şimali Karolinada isə Tramp artıq 10 faiz üstünlüklə qalib gəlir. Miçiqanda eks-prezidentin uğur faizi 5, Arizonada isə 3 faiz təşkil edir.

Aydın görünür ki, ölkəni milyonlarla "nankor və təhlükəli" miqrantlarla doldurmaq o qədər də yaxşı seçki strategiyası deyilmiş. Axı, bu kimin ağlına gələrdi? Xatırlayırsınızsa, 2020-ci il seçki öncəsi demokratlar göz yaşları içində "Kölgədə gizlənən bütün yoxsul miqrantlara kömək etməliyik!" demişdilər. "Kölgədən çıxsınlar, onlara iş versinlər! İndi onlar gizlənmirlər, əksinə öz vəzifələrini icra edən Nyu York polislərini vəhşicəsinə döyürlər", – deyə "Fox News"un aparıcısı canlı ekrandan amerikalılara səslənib.

Ekranda isə miqrantların törətdikləri vahimə saçan cinayətlər açıq-saçıq nümayiş etdirilir. Aparıcı Lora İnqremin deyir: "Baxın, bu başkəsənlərə yaxşı baxın! Heç kim buna görə respublikaçıları günahlandırmır, Co (Bayden). İnsanların çoxu elə də axmaq deyil ki, Senatdakı kuklalarınızın sizə siyasi dəstəyi təmin etmək üçün, saxta sərhəd qanun layihəsinin mahiyyətini anlamasınlar. İndi bunların heç biri işləmir".

Sonra ekranda mətbuat konfranslarının birində Prezident Co Baydenə verilən sual və onun cavabı görüntüyə gəlir.

JURNALİST: Siz hakimiyyətin verdiyi səlahiyyətlər çərçivəsində mümkün olan hər şeyi etmisinizmi? Yoxsa, daha çox şey edə bilərdiniz...?

CO BAYDEN: Mən əlimdən gələni etdim. Sadəcə, mənə səlahiyyətlər verin, mən vəzifəyə gəldiyim ilk gündən bunu istədim. Mənə sərhəd xidməti qüvvələri verin. Mənə adamlar, hakimlər verin. Mənə bunu dayandıra biləcək və işləri düzgün yerinə yetirə biləcək adamlar verin.

Sonra aparıcı heyrət içində Baydenin dediyi ifadəni səsləndirir: "Mənə sərhəd xidməti qüvvələri verin". Sizcə, bəs onlar orada nə işlə məşğul idilər?" Həqiqətən, görünür, Bayden prezident olduğunu və bu 3 ildə bütün səlahiyyətlərin sahibi olduğunu belə unudub...

Lora İnqremin sözünə davam edərək deyir: "Gözlərimiz bizi aldatmaz. Baydenin hakimiyyəti altında cəmi üç il ərzində Amerikanın başına gələnləri hamımız görürük! Narkotiklərin leqallaşdırılmasını dəstəkləyən liberal ştatlarda narkotik böhranı tüğyan edir. Təkcə bu kədərli statistikaya diqqət edin: "2019-cu ildə Oreqon ştatında dozadan artıq narkotik qəbul etdiyindən 280 nəfər ölüb. O vaxtdan bəri hər il ölüm sayı artır və 2022-ci ilə qədər bu rəqəm üç dəfədən çox artaraq 956 nəfərə çatıb. Ştat əvvəlki kimi 2023-cü il üçün məlumat toplayır, əgər bu tendensiya davam edərsə, – buna isə şübhə etmək üçün heç bir səbəb yoxdur - dozadan artıq narkotik qəbul edib ölənlərin ümumi sayı 1250-yə çatacaq.

Baydenin adamları guya Çinlə razılığa gəlmək istəyirlər ki, onlar bizim vətəndaşları fentanillə öldürməyə son qoysunlar".

"Fox News" aparıcısının həyəcan dolu çıxışı davam edir: "Əlbəttə, marixuanadan istifadə edən gənclər arasında şiddətli psixoz və şizofreniya hallarının artdığı gün kimi aydındır. Kaliforniyada bir qadının başına gələnlərə baxın: "Otdan" ağlını itirərək çılğın şəkildə insanlara bıçaqla hücum çəkib! Bayden buna necə reaksiya verdi? Qanunları sərtləşdirmədi, yox, amma marixuananı daha az təhlükəli narkotiklər kateqoriyasına daxil etdi! Afərin sizə! Sizcə bizə lazım olan bunlardırmı: daha çox süstlük, daha çox küçə zombisi, daha çox ölüm. Bəs baydenomika necə olsun? Bax, ona görə insanlar Trampa üstünlük verirlər. Bütün sorğular bunu göstərir".

Amerika ictimaiyyəti arasında narazılıq doğuran təkcə Baydenin həyata keçirdiyi miqrasiya siyasəti deyil. Bütövlükdə, ABŞ-ın xarici siyasəti bu gün ən sərt tənqidə məruz qalan sahələrdəndir. Xüsusilə, Ukraynaya olan yardım Amerika siyasi səhnəsində ciddi müzakirə mövzusuna çevrilib.

Amerikaşünas Malqojat Zaxara-Şamanska "Polskie Radio"da aparılan müzakirələrdə bildirib ki, NATO-nun baş katibi Yens Stoltenberqin bəyan etdiyinə görə, Ukraynaya yardım Amerikanın həyati vacib maraqlarına cavab verir və ona görə də o, hər iki partiyadan olan ABŞ konqresmenlərini ciddi-cəhdlə buna inandırmağa çalışıb.

Analitikin qeyd etdiyinə görə, ABŞ konqresmenləri siyasi oyunlarında özləri özlərini dolaşıq vəziyyətə salıblar. Bununla yanaşı, Bayden administrasiyası Ukraynaya yardım məsələsini ciddi böhrana gətirib çıxaran cənub sərhədlərinin mühafizəsində güzəştə getmək müqabilində müzakirə etmək istəyir. Bu, Respublikaçılar Partiyasını açıq şəkildə seçicilərə nümayiş etdirmək üçün olan oyunun bir elementidir.

Polşalı professor Petr Qroxmalskinin fikrinə görə, Co Bayden daxili siyasəti Ukraynanı dəstəkləmək məsələsilə birləşdirməkdə çox böyük səhvə yol verib. Ekspert xatırladıb ki, Amerika siyasətində cənub sərhədlərindən miqrasiya məsələsi çox-çox əvvəl – böyük Buşun vaxtından gündəlikdədir. "Yalnız Bill Klinton miqrasiya qaydalarını bir qədər başqa formada qanunvericilik şəklində təsdiq etmişdi. O vaxtdan bəri hər şey, demək olar ki dəyişib. Bu gün üçün isə bu son dərəcə kəskin problemdir", – deyə Qroxmalski açıqlayır.

"Bayden barıt çəlləyini partladıb. Bu baxımdan vəziyyət həqiqətən çox mürəkkəbdir, hər iki tərəf sərt elektoratla bağlı məntiqin qanunlarına əsasən oynayır", – deyə polşalı professor fikrini yekunlaşdırır.

Amma Co Baydeni indidən hesabdan silmək də doğru olmazdı. Belə ki, ötən şənbə günü Co Cənubi Karolinada keçirilən praymerizdə 97 faiz səs qazanaraq öz qələbəsinə doğru ilk addımını atıb. "The Associated Press" yazır ki, onun opponentləri Minnesota ştatını Nümayəndələr Palatasında təmsil edən Din Fillips və yazıçı Marianna Uilyams heç 2 faizlik həddi belə adlaya bilməyiblər. Demokratlar partiyasında rəqabətin zəif olması özü-özlüyündə aydındır, çünki onların əsas namizədi Ağ evin hazırkı sahibidir.

Cənubi Karolinada 55 nümayəndənin səsi uğrunda mübarizə gedir və bülletenlərin hesablanması başa çatandan sonra onlar siyasətçilər arasında bərabər bölünəcək. Partiyanın 18-22 avqust Çikaqoda keçiriləcək qurultayında Co Baydenə formal olaraq öz namizədliyini irəli sürmək üçün 1969 səs əldə etmək lazım gələcək.

Yeri gəlmişkən, yanvarın 23-də Nyu-Qepşerdə keçirilən praymerizdə də Bayden 63,9 faiz səslə qalib gəlmişdi. Lakin Demokratlar Partiyasının Milli Şurası ştatı nümayəndələrdən məhrum etdi. Çünki demokratlar istəyirdilər ki,elektorial təqvimdə əhalisi böyük etnik və irqi müxtəlifliyi ilə fərqlənən Cənubi Karolinada keçiriləcək praymeriz ilk tədbir olsun, amma yerli hakimiyyət ştatın 1975-ci il qanununa istinad edərək səsverməni geri çəkməkdən imtina etdi. Bundan əlavə, Bayden 2020-ci ildə özünün ilk prezidentlik müddətinə seçilməsinin qələbə marafonuna da məhz Cənubi Karolinadan başlamışdı.

Rəqibini sərt ironik ifadələrlə tənqid edən Tramp isə özünə sadiq qalaraq Nevada ştatında seçiciləri qarşısında çıxışı zamanı bildirib ki, "Baydenin miqrantları ABŞ-ı içəridən dağıdan kütləvi qırğın silahıdır. Milyonlarla qeyri-leqalı ölkəyə buraxan və buna göz yuman Bayden administrasiyası əsl həqiqətdə Amerikanı məhv edir". Tramp Baydenin hərəkətini "millətə qarşı cinayət" kimi qiymətləndirib və buna görə onun Amerika xalqı tərəfindən mühakimə olunacağını deyib.

"The New York Times" nəşri, həmçinin bildirir ki, Tramp Baydenin sərhədlə və Ukrayna ilə bağlı sövdələşməsini sərt tənqid edərək respublikaçıları hakimiyyətə güzəştə getməməyə çağırıb. O, Nevadada Baydenin irəli sürdüyü miqrasiya və Ukrayna üzrə hər iki partiyanın sazişini də çox kəskin tənqid edib və bildirib ki, bu, heç bir vəchlə sərhəd problemini həll etməyəcək.

"The New York Times" nəşri vurğulayır ki, respublikaçıların namizədləri arasında Donald Trampın lider mövqeyi gündən-günə yalnız möhkəmlənir. Bununla belə, eks-prezidentin seçki yürüşündə qalan yeganə rəqibi Nikki Xeyl özünün hələ də bu marafonda olduğunu Trampa xatırlatmaq üçün bütün imkanlardan istifadə edir. Lakin bu, Trampın mövqeyinin durmadan möhkəmlənməsinə elə də təsir göstərmir və çətin ki, Nikki Xeyl buna mane ola bilsin.

**P.S. Bazar günü Donald Tramp "Fox News" telekanalına eksklüziv müsahibəsində ABŞ-ın Suriya və İraqdakı bir çox obyektləri bombardman etməsinə münasibətini açıqlayarkən bildirib ki, "60 gün müddətində İran nüvə silahına sahib olacaq". O, həmçinin bəyan edib ki, Bayden öz prezidentlik müddətinin qalan 9 ayı ərzində Amerikanı Üçüncü Dünya müharibəsinə apara bilər. Ona hörmət etmirlər. O, öz işini yerinə yetirə bilmir. Bunu hamı bilir ki, onun yerinə kimlərsə qərar verirlər".**

*İlqar RÜSTƏMOV*
*XQ*

**Aralıq dənizinin dördüncü ən böyük adası sayılan Korsika tarixi ərzində dəfələrlə işğala məruz qalıb. 1755-ci ildə ada yenidən azadlığına qovuşsa da, orada Korsika Respublikası elan edilsə də, 1768-ci ildə Fransanın bir hissəsinə çevrilməklə, müstəqilliyi ilə vidalaşıb. Fransaya birləşdirilsə də, Korsika ötən müddət ərzində müstəqilliyi üçün mübarizəni dayandırmayıb. Buna görə də, ada ilə Paris arasında münasibətlər iki əsrdən çoxdur gərgin olaraq qalır və Korsika sakinləri hələ də materikdən ayrı yaşamağa ümid edirlər.**

Qərbin bir çox ölkəsi kimi, Fransa da "zəngin" müstəmləkəçilik tarixinə malikdir. Bir vaxtlar nəhəng müstəmləkə imperiyasının qalıqları hazırda Fransanın müasir dənizaşırı mülkləridir (xarici departamentlər, icmalar və xüsusi statusa malik inzibati-ərazi qurumları), onlardan yalnız Fransa Qvianası materikdə yerləşir. Korsika da, həmçinin fransız millətçiliyinin qurbanlarından biridir. Uzun illərdir ki, ada sakinləri mərkəzdən ayrılmağa çalışırlar. Lakin hər dəfə Paris korsikalıların müstəqillik istəklərini sərt şəkildə rədd edir, repressiya maşınını işə salır.

# Fransız imperializminə qarşı nifrət dalğası




Bununla belə, mübarizə bu gün də davam edir. 2014-cü il iyunun sonunda Korsikanın FLNC adlı radikal təşkilatı fəaliyyətini dayandırdıqdan sonra ada sakinləri Parislə mübarizəni hüquq müstəvisində həll etməyə çalışırlar. Ancaq dialoqun dalana dirəndiyini Paris də etiraf edir və Korsikanın mərkəzdən ayrılmasına qarşı sərt siyasət yürüdür. Bu yaxınlarda Fransa məhkəməsinin Korsikada dövlət qurumlarında yerli dilin qadağan edilməsi ilə bağlı qərarı da bunu təsdiqləyir. Korsika Milləti Partiyasının lideri Jan-Kristof Ancelini Fransa məhkəməsinin qərarını "ədalətsizlik və biabırçılıq" adlandırır: "Bu qərar bizim üçün təhqir kimi səslənir". Qərar BMT-də də tənqid edildi. Təşkilatın milli azlıqlar üzrə xüsusi həmməruzəçisi Fernand de Varenne Parisin qərarını "ayrı-seçkilik" kimi qiymərləndirdi.

Xatırladaq ki, müstəqillik tərəfdarlarının sözlərinə görə, Korsika dili bütün sahələrdə – televiziya və radiodan tutmuş ictimai xidmətlərin göstərilməsi və qanunların yazılmasına qədər fransız dili ilə eyni səviyyədə istifadə edilməlidir. Amma Paris bu istəyə qarşı çıxır, korsikalıların milli identikliyinin kodu olan dillərini qoruyub saxlamağa imkan vermir. Fransa artıq tarixə dönmüş SSRİ-nin yolu ilə gedir. Sovet hakimiyyəti də bütün xalqları, obrazlı desək, bir qazanda bişirib sovet xalqı əldə etmək istəyirdi. Nəticəsi məlumdur, SSRİ arxivdə, 15 respublikanı təmsil edən xalqlar isə müstəqildir. Müstəmləkə sakinlərini fransız qazanında bişirməyə çalışan, ancaq nifrət və kin qazanan Paris arxaya baxmadan ot basmış təhlükəli çığırla addımlayır. Bundan əlavə, Fransanın Milli Azlıqların Müdafiəsi Konvensiyasına qoşulmaması ölkənin insan haqları və demokratik dəyərlərlə öyünməsi ilə ziddiyyət təşkil edir. Korsikalıları ölkəni parçalamaqda ittiham edən Fransa hakimiyyəti dünyanın bir sıra regionlarında separatizmi dəstəkləyir.

Bir sözlə, bu gün Fransa istəyir ki, Korsika müstəqillik arzusundan əl çəksin. Ancaq korsikalılar 200 ildən artıqdır ki, öz ideyalarından əl çəkməyiblərsə, onları nəsildən-nəslə ötürüblərsə, indi onlardan əl çəkəcəklərinə inanmaq sadəlövhlükdür. Ən azından ona görə ki, bu gün korsikalılar lider hesab etdikləri Paskal Paolinin sözlərini unutmurlar: "Mənim bütün həyatım, deməliyəm ki, azadlığa davamlı and içmək olub". Fransa müstəmləkə hökmranlığına qarşı yaradılmış "Nazione" hərəkatının təsis edilməsi də bunu təsdiqləyir.

Yeni yaradılmış "Nazione" hərəkatının üzvləri Korsikanın müstəqilliyini istəyirlər. Ancaq Fransa hökuməti təşkilatın iki fəalını hələ də həbsdə saxlayır. Demək lazımdır ki, dünya ictimaiyyəti Fransa bürokratiyasının əzdiyi xalqların taleyinə biganədir. Bu torpaqların yerli xalqları öz hüquq və azadlıqlarının tapdalanması ilə bağlı fəryad qoparsa da, dünya laqeyd şəkildə susur. Təzadlı haldır, elə deyilmi? Fransa başqa ölkələrə gəldikdə insan hüquqlarının qorunmasından danışır, lakin öz sərhədləri daxilindəki dəyərlərə əməl etmir. Bir sözlə, bu gün müstəmləkəçiliyin "yaxşı" ənənələrinin uğurla davam etdiyi Fransa torpaqlarında baş verənlər birbaşa dövlətin siyasətinin aqressiv və dağıdıcı xarakterindən xəbər verir. Ancaq korsikalılar bütün çətinliklərə baxmayaraq, müstəqillik uğrunda mübarizəni qətiyyətlə davam etdirirlər.

Aydındır ki, keçmiş müstəmləkə ölkələrində cərəyan edən prosesləri alovlandıran əsas amillərdən biri fransız imperializminə qarşı güclü nifrətdir. Nifrət isə güclü silahdır, tarixi yaddaşı istismarla, təhqir edilməklə dolu olan xalqların əlində isə daha dəhşətli silahdır.

***S.ELAY***
***XQ***


# "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 Saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxsi

"Zəngilan rayonu, Ağalı kəndinin birinci fazasının ikinci mərhələsi və Ağalı kəndinin ikinci fazasının yenidənqurulması layihəsi çərçivəsində tikinti işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

• Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri.

• Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).

• Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).

• Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).

• Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.

• Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiqlənmiş surəti təqdim edilməlidir).

• Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları.

• Baş podratçı kimi son 3 il (2020-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 50 (əlli) milyon manatdan az olmayan,

TƏKRAR

müraciət edənin hissəsi isə ən azı 25 (iyirmi beş) milyon olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq: layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 3 (üç) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara qəbul və icazə aktları təqdim edilməlidir;

• Son üç il (2020-ci il yanvar 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində tikinti-quraşdırma işləri üzrə ən azı 50 (əlli) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 12 fevral 2024-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 20 fevral 2024-cü il saat 16.00-a qədər Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətində 21 fevral 2024-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs – Satınalmalar şöbəsinin baş məsləhətçisi – Zaur İbrahimov.

E-mail: zaur.ibrahimov@shzbti.gov.az

Telefon + 994512078998.

Tenderdə iştirak haqqı 1500,00 (bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs

VÖEN – 5200287501

BANK – "KAPİTAL BANK" ASC-nin 28 may filialı

Kod – 200123

VÖEN – 9900003611

M/h – AZ37NABZ01350100000000001944

H/h – AZ31AIIB380300D9447648156112

S.W.İ.F.T. – AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

• Tenderdə iştirak etmək üçün ərizə.

• İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

• Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır).

• Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 25 (30429) 6 fevral 2024-cü il, çərşənbə axşamı

# Rezin saatlar niyə təhlükəlidir?

**Alimlər plastik və ya rezin ağıllı saatların taxılmasının təhlükələrini aşkar ediblər. Bu materiallar bakteriyaların yığılması və yayılması üçün münbit mühitdir.**




Tədqiqatçılar 20 fərqli ağıllı saatı təhlil etdikdən sonra onların 95 faizinin səthində dəri xəstəlikləri və iltihaba səbəb ola biləcək fəal zərərli bakteriyaların olduğunu aşkar ediblər.

Həkimlərin fikrincə, nisbətən aşağı səviyyədə olsa belə, bu patogenlər bədənimizə əhəmiyyətli təsir göstərə bilər. İmmuniteti zəif olan insanlar üçün təhlükə xüsusilə kəskindir.

Yoluxmaya həssas kateqoriyalara tibb işçiləri daxildir. Çünki onlar daim xəstələrlə təmasda olurlar. İdmanla məşğul olanların da saatlarının səthində ən yüksək stafilokok bakteriyaları aşkar edilib.

***XQ***


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

***2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# "Dahilər"in həmişəyaşar nəğmələri

**Aprelin 11-də Heydər Əliyev Sarayında "Dahilər" adlı möhtəşəm konsert proqramı təqdim olunacaq.**




Sarayın mətbuat xidmətindən XQ-yə bildirilib ki, "Azkonsertşou" və "Maestro Musiqi – Azərbaycan"ın təşkilatçılığı və Azərbaycan Televiziyasının informasiya dəstəyi ilə keçirilən gecədə görkəmli bəstəkarlarımız Tofiq Quliyev, Emin Sabitoğlu, Oktay Kazımi və Elza İbrahimovanın yaddaşlara həkk olunan unudulmaz bəstələri səsləndiriləcək.

"Bakı Sinfonietta" Orkestrinin müşayiəti ilə keçiriləcək konsertdə Azərbaycanın Xalq və Əməkdar artistləri, tanınmış müğənniləri çıxış edəcəklər.

***XQ***

**Futbol tariximizdən**

# Bir oyunun tarixçəsi

## Ponomaryov–Çerenkov dueli



**39 il əvvəl, 1985-ci il aprelin 7-də Bakıda Respublika stadionunun tribunalarından 18 min azarkeşin izlədiyi 48-ci SSRİ çempionatının "Neftçi"—"Spartak" Moskva görüşü "dinc" nəticə ilə başa çatsa da (2:2), hamı 90 dəqiqə ərzində gərgin, məzmunlu və məhsuldar oyundan əsl zövq aldı. Meydan sahiblərinin də, qonaqların da əvvəldən axıradək nümayiş etdirdikləri hücum futbolu və tamaşaçılardan qazandıqları alqış sədaları oyunun şahidlərinə görüşün xatirələrdə çox yaşayacağını düşünməyə ciddi əsas verirdi.**

Matçın başlıca xüsusiyyəti isə qapıçımız Vyaçeslav Çanovu da, onun moskvalı məşhur həmkarı, bir çox il ərzində Sovet İttifaqı yığma komandasının şərəfini müvəffəqiyyətlə qorumuş Rinat Dasayevi də məyus edən qolların müəlliflərinin eyni futbolçular, üstəlik də, yarımmüdafiəçilər olması idi. Spartakçılardan 2 dəqiq zərbə ilə Fyodor Çerenkov fərqləndi, "Neftçi"-də isə oyunun qəhrəmanı bu klubun tarixində ən parlaq simalardan biri İqor Ponomaryov oldu.

Həmçinin diqqətçəkən məqamdır ki, Ponomaryov da, Çerenkov da hərəyə bir topu ümumittifaq dərəcəli hakim Miroslav Stuparın (İvano-Frankovsk) təyin etdiyi penalti ilə vurdular. Həmin görüş futbolumuzun tarixində həm də Ponomaryov–Çerenkov dueli kimi yaşayır.

Fevralın 24-də 64 yaşı tamam olacaq Azərbaycan futbolunda yeganə olimpiya çempionu, SSRİ Əməkdar idman ustası, "Şöhrət" ordenli İqor Anatolyeviç Ponomaryov hazırda Azərbaycan Premyer Liqasında çıxış edən "Sabah" klubunun Müşahidə Şurasının üzvü və idman direktorudur, Fyodor Çerenkov isə 2014-cü ildə, 55 yaşında vəfat etmişdir.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

**Sosial şəbəkələrdən seçmələr**



# Asqıran, öskürən, fınxıran metro qatarı

**"Facebook"da dostluğumda olan tanınmış yazıçı-dramaturq Firuz Mustafa bu günlərdə Bakı metropolitenində şahidi olduğu bir olayla bağlı paylaşım edib. Orada deyilir:**

"...Metro stansiyalarımıza söz olmaz. Yaraşıqlı, gur işıqlı, səliqə-sahmanlı, üstəlik də keçiddə dayanan polislərin sərnişinlərlə mədəni rəftarı... Həqiqətən, bütün bunlar çox gözəldir. Amma və lakin...

Mən daha çox "Nizami" stansiyasından istifadə edirəm. Adətən, "Dərnəgül"dən "Həzi Aslanov" stansiyasına gedən qatarlara minirəm. İnsafan, xəttə çox vaxt səliqəli, türkiyəli və iranlı arkadaşlarımız demiş, "xəfif" qatarlar buraxılır. Di gəl ki, bu gün (2 fevral–red) saat 19.30 radələrində elə bir qatar zühur etdi ki, təsvir etməyə söz tapmaq belə olmur.

Bu köhnə-körüş qatardakı vaqonların səs-küyü, cırıltısı qulaq batırırdı. Qatar gah xəstə heyvan kimi xırıldayır, gah da suvuran güclü nasos kimi fışıldayırdı. Hətta, mübaliğəsiz deyim ki, vaqonların hərdən zökəm olmuş adam kimi öskürməyi də vardı... Öhö-öhö...

Yaxınlığımda 2 kişi vardı. Hə, vaqonda... Rəng-ruflarından, geyim-kecimlərindən xarici vətəndaş olduqları bilinirdi. Təhər-tövrünü yuxarıda qısaca təsvir etdiyim, səliqəsiz boyanmış bu sürünən, öskürən, asqıran, fınxıran qatar "28 May" stansiyasına çatanda dərindən nəfəs alıb at kimi kişnədi və xırp yerində dayandı.

Əcnəbilərdən biri tutacaqdan bərk-bərk yapışıb ucadan qışqırdı:

– O, boje moy...

Eşidənlər gülüşdülər. Elə əcnəbilər də...

Qatarın yerinə xəcalət çəkdim. Yəqin ki, təkcə mən yox...

Nə yaxşı ki, bu qatarlar elektriklə işləyir. Yoxsa tüstüsü göz çıxarardı.

...Hə, orasını da deyim ki, Zaqafqaziyada hələ 1868-ci ildə Gədəbəydə almanların tikib istifadəyə verdiyi dəmiryol xəttində hərəkət edən qatar, öz səliqə-sahmanına görə heç də bu gün istifadəyə buraxılmış qatardan geri qalmırmış. Bunu alman sahibkar Simensin xatirələrindən və həmin qatarın fotosundan da aydın görmək olur...

Özünüz hesablayın, 1868-dən bu yana aradan neçə il keçib?

(Bu, Cənubi Qafqazdakı ilk qatarın fotosudur).

İnanmaq çətin olsa da Firuz müəllimin dediyinə şübhəmiz olmadı. Firuz müəllim, siz deyən tarixdən 156 il keçib.

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

**Sağlamlıq**

# "Vitamin D" – "De" bol olan qida ye!

**Qışda D vitamini kəskin düşə bilər. Bu, həm də hormon olduğundan qidaya da diqqət edilməlidir. Mütəxəssislərin fikrincə, D vitamini orqanizmdə bir sıra sistem və proseslərdə iştirak edir.**

Vitamin kalsium və fosforun mənimsənilməsinə kömək edir. İmmun sistemini möhkəmlədir. Sinir sistemi siqnallarını ötürür. İltihab və depressiya əleyhinə təsir edir. Əzələ spazmını aradan qaldırır. Profilaktik doza 1000 vahidə qədərdir.




D vitamini əskikliyinin əlamətləri – yorğunluq, halsızlıq, əzələ ağrıları, qıcolma, sümük əriməsi və ağrıları, yuxusuzluq, təşviş, depressiya, dırnaq və saçların qırılması, diş tökülməsi, qəbizlikdir.

D vitamini ilə zəngin bitki tərkibli (D2) və heyvani tərkibli (D3) qidalar var.

D vitamini ilə zəngin qidalar bunlardır:

1. Qızıl balıq, okean, dəniz balıqları – 100 qramında günlük normanın 50 faizi var.
2. Yumurta (təbii ki, kənd yumurtası) sarısı – bir sarıda 35 vahid D vitamini olur.
3. Balıq qaraciyəri, balıq konservi.
4. Göbələk – meşədə, talada yetişən. 1 porsiyada 300–500 vahid D vitamini var.
5. Süd məhsulları, yoqurt, kərə yağı.

***Z.HÜSEYNLİ***
***XQ***

**Hava**

# Abşeronda güclü külək, bölgələrdə yağıntı və duman...

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 6-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Lakin günün ikinci yarısında bəzi yerlərdə qısamüddətli az yağıntılı olacağı ehtimalı var. Arabir güclənən cənub-qərb küləyi əsəcək, gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq, axşama doğru zəifləyəcək. Gecə 4-8°, gündüz 9-13° isti olacaq. Atmosfer təzyiqi 751 mm civə sütunundan 760 mm civə sütununa yüksələcək, nisbi rütubət 55-65 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, şimal və qərb rayonlarında arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclü olacaq. Havanın temperaturu gecə 1-6°, gündüz 11-16° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.



***Q. QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Zaqatala rayon ağsaqqalı, el ziyalısı

**ORUC ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Ələkbər Qasımov, Cəlil Nəbiyev, İlqar Məmmədov, Rasim Kazımov, Mehman Məmmədov, Etibar Məmmədov, Ayaz Əsgərov, Tofiq Namazəliyev, Valeh Xubanov, Kəramət Kazımov, Rahim Maqsudov, Mikayıl Hümbətov, Nizami Yusifov, Həsrət Ağayev, Elsevər Səfərov, Aslan Manafov, Azər Məmmədov və Sənan Həsənov dostları Şahbaz Qasımova qardaşı

**VİLAYƏT QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3445
SİFARİŞ 284
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00